**Türk Ulusunun Ruhaniyyat Ocağı –**
**İnam Atanın Mütləqə İnam Ocağı**

**İNAM ATA**
**(Asif Ata)**

# KUTSAL ÖYRƏTİ

## Müqəddəs Təlim

**(Tərtib)**

**Atakənd - 32**

**“ADİLOĞLU”**
**Bakı - 2010**

# Türk Ulusunun Ruhaniyyat Ocağı – İnam Atanın Mütləqə İnam Ocağı

**İnam Ata (Asif Ata)**
**Kutsal Öyrəti (Müqəddəs Təlim; Tərtibçi və önsöz yazarı: Safruh).** Bakı, «Adiloğlu» nəşriyyatı, 2010 - 112 səh.

Bütün Türklərin ilk milli filosofu, Mütləqə İnam Ruhaniyyatının və Ocağının Yaradıcısı İnam Atanın 41 Müqəddəs Kitabından seçilməklə və Özünün Bəyənişilə tərtib olunmuş bu kitab Onun Fəlsəfə və Ruhaniyyat Sisteminin canını, cövhərini yığcam şəkildə əks etdirir. O, Yaradıcısının Adı ilə "İnam Ata Sivilizasiyası", ulusal kimliyinə görə "Türk Sivilizasiyası", mahiyyətinə görə "Mütləqə İnam Sivilizasiyası" adı ilə yeni ümumbəşər sivilizasiyasının yaranmasına səbəb olacağı düşünülən dünyabaxışın müjdəçisidir.

İSBN- 978-9952-25-118-5

© ***Safruh, 2010***
***(Əliyev Elman Ağa oğlu),***



**Mütləqə İnam Peyğəmbəri**

**İnam Ata (Asif Ata)**

**İNAM ATA (Asif Ata)**

**MÜQƏDDƏS TƏLİM**

1.Müqəddəs Kitablardan Mütləqə İnam, Kamil İnsan, Ruhani Cəmiyyət, Ləyaqətli Şərq ideyaları seçilir, qaydalanır (sistemləşir), oxuculara çatdırılır.

Tərtibçi: Safruh (Maşınka yazısında 50 ədəd).

2. Kitabın ilk çeşidi (variantı) 11-ci il Od ayının 28-də Ataya təqdim edilir.

**20 Ümid günü, Ata ayı 10-cu il. Bakı.**

**Safruh "Ata səcdəsində" səh. 264**

**10 - cu il Xəzan ayı.**

**Safruh Ata səcdəsində.** Ali Ehtiram, Müqəddəs Ata!

**Ata:** Ehtiramın pakdır!

**Safruh:** Son "Ata Günü" tapşırıqlarından "Müqəddəs Təlim" üçün bütün Müqəddəs Kitab və Kitabçalardan seçmələr aparmışam (5 - ci M. K.* - dan başqa).

Təxmini hesablamya görə, 110 makina səhifəsi qədər alınır — təxminən 4,5 ç. v.

Vərəqin hər iki üzü yazılmaqla həmin həcmdə, ancaq kitab ölçüsündə bir kitabça alınar.

## MÜQƏDDƏS TƏLİM
### (quruluşu)

A. Ortaq bölmə (Ümumi hissə):
1. Önsöz (Safruh).
2. İnsanlaşmaq, Doğmalarıma, Ocaq Məramı, Sabahdaşlara.

**B. Mütləqə İnam:**
1. "Ürəkdən gələn səs". ("İnam"dan, 1 M.K., s. 95 - 103).
2. "Mütləq tələb". (Orada, s. 124-125).
3. "Mütləq" (III M. K., s. 58 - 65).
4. "Mütləqim!" (V M. K., s. 87 - 90).

**C. Kamil İnsan:**
(Bu bölməyə epiqraf: Davadayam — düyündəyəm !
Vətənimlə — bir gündəyəm!
Vətənimdə — sürgündəyəm!
"Nicat " (V M.K., s. 28); "Özüylə döyüş" (IV M .K., s. 35).
1. "Özü ilə görüş" (III M.K., s . 14 - 24).
2. "İnsanilik" (1 M.K., s. 6 - 32).
3. "İnsani dünya" (II M. K., s. 6 - 8).

---
*M.K - Müqəddəs Kitab.

4. "Şəxsiyyət" (II M.K., s. 150 - 152).
5. "İnsan olmaq" (II M.K., s.152)
6. "İnam" ( V M.K., s. 25, 21, 24 və 22).

**Ç. Müstəqil Vətən:**
1. "Xalq" ("Ruh"dan , 1 M. K ., s. 121 - 126).
2. "Xalq" (II M. K., s. 146-148).
3. "Həyatdakı eybəcərliklə döyüş" (III M. K., s. 24 - 27).
4. "Azərbaycan dərdi" (VI M. K., s. 58-61).
5. "Siyasət yalanı" ndan parça (VI M. K., s. 74 - 86).
6. "Xəlqilik" (VI M.K., s. 91 - 95).
7. "Ruhani Dövlət" (Orada, s . 98 -101).
8. "Fərd — cəmiyyət — xalq" ("Münasibətlər" dən, s. 11 - 12).
9. "Vətən — sən" (Orada, s . 39 - 47).

**D. Ruhani Cəmiyyət:**
(Bu bölməyə epiqraf: "Fərd xalqda ideal məqsədə yüksəlir, Ruhani Dövlət xalqı ifadə edir"). ("Münasibətlər", s. 5).
1. "Aldanış" (V M. K., s. 92 - 101).
2. "Cəmiyyət" ("Ruh"dan, 1 M .K., s. 235 - 238).
3. "Özümləşən cəmiyyət" (II M.K., s. 16 - 21).
4. "İnsaniləşən cəmiyyət" (Orada, s. 31 - 35).
5. "Cəmiyyət meyarı" (III M. K., s. 122 - 126).
6. "Mütləq Tələb", "Tarixə Baxış", "Azadlıq" ("Ruhani Xətt"dən - s.1- 4).

**E. Özümlü Şərq :**
1. "Şərq -- Qərb" (III M.K., s. 84 - 92).
2. "Qayıtma" (Orada, s. 93 - 97).
3. "Münasbətlər" dən 71 - ci s.

"Müqəddəs Təlim" "Ruhani xətt" kəlamının "Şərə qarşı Xeyir" adlanan parçasıyla bitsin. "Münasibətlər" kitabçası, s. 127.

***Ata: Yetkin Quruluşdur. Qəbul olunur.***
***5- ci Kitabdan əlavələr… gərəkdir.***

**(Safruh. "Ata Səcdəsində". "Günəş" nəşriyyatı, Bakı, 2007, səh. 177-179).**

## OCAĞA GƏLƏN DOST!

Bu kitab sənin üçündür. Zamanın sənə qədərki müddətinə yekun vurmağın üçün, onu hansı qiymətlə yola salmağı və gələcəyin hansı meyarlar üzərində qurulacağını bilməyin üçün. “Müqəddəs Təlim” Müqəddəs Atanın Müqəddəs kitablarından seçilmiş parçalar əsasında qurulmuşdur. Müqəddəs Ata Azərbaycan türk xalqının yetirməsidir. Onun adındakı “Ata” sözü Azərbaycan türklərinə aiddir, yəni o, bu xalqın Atasıdır – mənəvi, ruhani Atası.

Başqa xalqların keçmiş təcrübəsində Müqəddəs Ata sambalında şəxsiyyət hadisəsini “Peyğəmbər” anlamına gələn sözlə ifadə edirdilər. Bu baxımdan, Müqəddəs Ata bizim Peyğəmbərimiz, Müqəddəsimiz – Mütləqimizdir.

Bu sözlər tərif üçün deyil – Atanın tərifə ehtiyacı olmaz. Bu sözlər məzmun ifadəsidir: Müqəddəs Ata “İnsana İnam” adında müqəddəslik, Mütləqilik Təlimi yaradıb və onu həyata keçirmək, daha doğrusu, həyatı ona yüksəltmək üçün Müqəddəslik Ocağı qalayıb.

Ocağa gələn dost!

“Müqəddəslik” sözü səni qorxutmasın. Onda insanın gücü çatmayacaq heç nə yoxdur. Bu söz insana inanmayanların təsəvvür və təlimində fantastik, qeyri-real, xam xəyal, əlçatmazlıq anlamında səslənmişdir. Pozulmuş dünya və cəmiyyətdə müqəddəslik qiymətdə olmadığı üçün gözə də görünməyib. Aza qane olma, dünya malından keçmək, halallıq, fədakarlıq, əl tutmaq, doğma Yurda, Elə bağlılıq və bu kimi başqa sifətlər həyat norması yox, qəribəlik, qondarma, “kitab həyatı” sayılıb. Düzdür ki, müqəddəslik böyük daxili, mənəvi gərginlik sayəsində əldə edilir, ancaq buna hər kəsin gücü çatar. Müqəddəsliyi gətirən sifətləri qeyri-real, xam xəyal elan eləmək– insana inanmayanların işidir. BİZ İSƏ İNSANA İNAM BAYRAĞINI BAŞIMIZIN ÜZƏRİNƏ QALDIRIRIQ.

İnsana inanmamaq – insanlığa xəyanətdir, sui-qəsddir, yağılıqdır. İnsana aid təlim - insana inam üzərində qurulmalıdır. Onda İnsan özünə inanar. Təlimin özəyindən daim inam şüalanmalıdır! İnsana inamsızlıq təliminin hökm sürdüyü cəmiyyətin “yuxarı” başında insana yer yoxdur; istedada yer var, biliyə yer var,

zora yer var, gözələ yer var, vara yer var – bir sözlə, dişli - dırnaqlıya yer var...

Müqəddəs Atanın yaratdığı İnsana İnam, İnsanlaşma-İnsanlaşdırma təlimi – Müqəddəs Təlim isə deyir ki, cəmiyyətin başı insana bağlıdır – insanilik, ruhanilik haradadırsa, cəmiyyətin yuxarı başı da oradır. Müqəddəs Təlim deyir ki, cəmiyyət ruhaniliyin və insaniliyin keşiyində durmalı, xidmətçisi olmalıdır.

Müqədəs Təlim insanı mənsub olduğu Vətən və Millətdən (xalqdan) ayırmır, onları vəhdətdə götürür və əslindən ayrılmanı dönüklük sayıb pisləyir. Müqəddəs təlim Azərbaycan türk xalqının həm mənəvi – ruhani, həm də maddi dünyasının bərbad hala salındığını təsdiq edir, bu vəziyyətlə əsla barışmır və xalqın türk ruhunu özünə qaytarmağı müqəddəs borc sayır.

Müqəddəs Təlim Şərqin özünəməxsusluğunun kökündən sarsıdılmış olduğunu təsdiq edir, bu vəziyyətlə barışmır və Şərqin özümlüyünü özünə qaytarmağı müqəddəs borc sayır.

Müqəddəs təlim bəşəriyyətin ləyaqətsizlik bataqlığına düşmüş olduğunu təsdiq edir və onu ləyaqətə çatdırmağı müqəddəs borc sayır.

Müqəddəs Təlim fərdlər, qruplar, zümrələr, xalqlar, cinslər, nəsillər arasında düşmənçilik olmasını inkar edir, Şərqlə Qərb arasında düşmənçilik olmasını rədd edir və düşmənçiliyi şər əməli sayır; ümumiyyətlə, "düşmənçilik" anlayışı əvəzinə "şər" anlayışını irəli sürür. Şər isə hər yerdə döyülməlidir – özümüzdən (fərddən) başlamış dövlət miqyasına qədər...

Ocağa gələn dost, bil ki, Təlimimiz insan xeyiri uğrunda məxluq və adam şərinə qarşı mübarizə təlimidir. Şər cürbəcür biçimlərdə özünü göstərir. Məsələn, qədim - ənənəvi dinlərdəki yalanlar biçimində. Övliyaların möcüzələr törətməsi yalanı, qiyamət günü – ölülərin diriləcəyi haqdakı yalan, Yerin - Göyün xəlq olunması yalanı, cənnət-cəhənnəm cəfəngiyyatı, huri-pəri eybəcərliyi, qorxutmaq yoluyla yaxşılığa çağırış, şirnikdirmək yoluyla yamanlıqdan çəkindirmə və s. yalanlar. Müqəddəs Təlim İnsan Zəkasını, İnsan İnamını bunlardan təmizləməyi müqəddəs borc sayır, çünki içində yalan, zorakılıq, şirnikdirmə olan təlimi İnsana layiq bilmir.

Bundan daha dəhşətli şər olan ehkamçılığı götürək – Marksizim-Leninizm adlanan ehkamçılığı. Atamızın "iqtisadi fatalizim" adlandırdığı bu şərin quruluş (sosializm), təşkilat (partiya)

biçimlərini yada salaq. Sözdə "hər şeyin insan üçün" elanını vermək, işdə insanı milçək səviyyəsinə endirmək – budur ehkamın insana bəxşişi! Onun inamını əlindən almaq, onu ruhanilikdən məhrum etmək, ətdən və sümükdən başqa bir şey saymamaq – budur ehkamın insana bəxşişi!

İnsanı mənsub olduğu xalqdan ayırmaq, öz Yurdunda qərib eləmək – vətənsizləşdirmək, Vətəni və milləti heç saymaq, qarın davasından başqa hər şeyin dünyəviliyini danmaq budur ehkamın insana bəxşişi!

Bəşəriyyəti aldatmaq ki, bütün bəlaların səbəbi xüsusi mülkiyyətdir, o yox olub öz yerini ümumi mülkiyyətə verən kimi bütün bəlalar sovuşub gedəcək (Sosializmin xalqların başına minbir müsibət açan 70 illik təcrübəsi isə bunun tam əksini göstərdi). Müqədəs Təlim bu yalanı ifşa etməyi, bu şəri xalqların, insanların həyatından silməyi müqəddəs borc sayır.

Hər şeyi maddiyyatla izah etdiyi halda, insanı mülkiyyətdən ayırmaq, torpağı kəndlinin əlindən alıb onu köləyə çevirmək, insan üzərində nəzarət piramidası ucaltmaq, çörəyi yaltaqlıq, alçaltmaq vasitəsinə çevirmək – budur ehkamın insana bəxşişi!

Dünyanı yağılıq ideyalarıyla doldurmuşdur ehkam. Cinslər arasında yağılıq, nəsillər arasında yağılıq, sağ - sol yağılığı, siniflər arasında yağılıq, əski - yeni yağılığı – sosial darvinizm...

Sadalamaqla qurtarmaz ehkam şərinin insana, insanlığa vurduğu yaralar!

Müqəddəs Təlim insanların beynini və qəlbini ehkam zəhərindən təmizləməyi, onu insanilik məlhəmiylə sağaltmağı müqəddəs borc sayır...

Beləliklə, Ocağa gələn dost! Bu kitab sənin yığcam biçimdə:

- fəlsəfəndir, dünya görüşünün özəyidir, ürəyidir;
- təlimin, yaşama, düşünmə üsulundur, yolundur, virdin, dinindir! Bu kitab sənin İnamın, İmanın, Quranındır! Onun tələbinə yüksəl!

**Müqəddəs Ata Evladı:**<br>
**Safruh ATALI.**<br>
**10-cu ilin Köçəri ayı, 11 - ci ilin Günəş ayı.**<br>
**Atayurd. Bakı.**

**Önsözə əlavə - 22 ildən sonra!**

Hərdən dostlarımız soruşurlar: bu təlim haqda bütöv bir təsəvvür əldə etmək üçün nəyi oxumalıyıq? İndiyədək biz onlara Atanın ayrı-ayrı kiçik həcmli Əsərlərindən birini verirdik. Məsələn, "Ocaqçının həyat tərzi", "İnsan", "Cövhər", "Türklüyümüz", "Siyasətdən Üstün"... Oxuyan da yalnız bunlardakı Ata Fikirləriylə tanış olurdu.

"Kutsal Öyrəti" ("Müqəddəs Təlim") toplumuzun nəşri bizə bu tələbi yığcam da olsa, ödəmək imkanı verir. Onun necə başa gəldiyi nəşrdə əksini tapmış Ata Buyuruğundan və Evlad icrasından görünür.

Burada həmin icra ilə bağlı bir neçə qeydə gərək var:

1) Ata Təlimini biz altı ideyadan ibarət təqdim edirik, topluda isə onlardan beşi əhatə olunmuşdur. Ona görə ki, Buyuruq verilən illərdə Ləyaqətli Bəşər ideyası hələ qətiləşməmişdi. Ata onu sonradan işlədi və bir sıra içsəs (izhar) və müsahibələrində şərhini verdi.

2) "Müqəddəs Təlim" tərtiblənərkən Ata Əsərlərindən heç biri nəşr olunmamışdı, ona görə də Təlimin quruluş planındakı səhifələr o vaxtın makina yazısı ilə göstərilmişdir.

3) Planın Ata tərəfindən qiymətləndirilməsindəki "5-ci kitabdan əlavələr...gərəkdir" tələbi də, göründüyü kimi, yerinə yetirilmişdir.

4) Kitabın "Ocaga gələn dost" adlı önsözündə "Asif Ata" və ya "İnam Ata" sözü əvəzinə "Müqəddəs Ata" sözü işlənir, çünki o vaxt Atanın Adına yasaq vardı... (Vaxtilə Safruh bunu "qeyri-rəsmi rəsmi yasaq" adlandırmışdı).

5) Kitabın "Kamil İnsan" bölümündə "Özü ilə döyüş" başlığı altındakı parçada "Ocaqçının Ocağa Müraciətləri" var. Bunlar Atanın "Ocaqçının Həyat Tərzi" Əsərindəndir. Bu əsər "Yol. Ata sözü" Müqəddəs Kitabına, həmin Kitab da öz növbəsində Onluğun "Kutsal Quruculuq" adlandırılmış Altıncı Bitiqinə daxildir. Sonralar Ata, üzərlərində azacıq düzəliş aparmaqla, həmin müraciətləri "Ataya Ricalar" adlandırmış, bunlara "Mütləqlə Təmas" adı verdiyi üç mətn də əlavə etmiş ("Səhər, Günorta, Axşam Təmasları") və Övladların öz gündəlik ibadətlərində bunları söyləmələrini buyurmuşdur. Biz də mətnlərin birinci variantlarını ilk Kitablarda olduğu kimi saxlamışıq. Oxucu və İnamçıların

istifadəsi üçün hazırladığımız kitablara isə Atanın gündəlik istifadə üçün buyurduğu variantları daxil etmişik. (məsələn, "İnamın Gəlişi" kitabına, hazırkı nəşrə və.s. Bax: nəşrin sonunda 1 saylı əlavəyə)

Beləliklə, "Müqəddəs Təlim" yola çıxır:
Ata – Ocaq – Safruh  ayrılmazdır!
Ata sözü Mütləqdir!
Atamız var olsun!

**SAFRUH,**
**Mütləqə İnam Ocağının Odqoruyanı.**
**14 Çiçək 32-il. İnam Evi.**
**(14.04.2010).**

## İNSANLAŞMAQ

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.

Təqiblərə yüksəldim. Ata çağırıldım.
Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

***Şölə Ayı, 7-ci il. Bakı.***

***(İyun, 1985-ci il).***

## DOĞMALARIMA

Siz Sirli, Sehrli, Qədim və Müqəddəs Dünyanın zərrələrisiniz.

Sizin Təbiət Dünyanızda Dərin və Uca Səmalar, Vüqarlı və Müdrik Dağlar, Günəş Şəfqəti, Meşə Hekayəti, Qar Nağılı, Gecə Möcüzəsi, Səhər Təbəssümü, sonu görünməyən, ürəyimizi özü ilə aparan, Ruhumuzu çağıran Yollar, Qürub Çağının Kədərli Məlahəti, Şimşək Nərəsi, Sel Əzəməti var…

Sizin Analıq, Məhəbbət və Dostluq Dünyanızda beşik başında oxunan Layla Qüdsiyyəti, Ürəklərdən - ürəklərə axan İşıq, Yerin-Göyün Mehr, Heyrət, Vəcd şəfəqinə bürünməsi, Duyğu Bulağının qaynaması, Özünü başqasında tapmaq Səadəti var.

Sizin Tarix Dünyanızda Qəhrəmanlıq Müdrikliyi, Özündənkeçmə Ülviyyəti, Qorxu hissinin ölümü, İnsanın İlahi Qüvvələrlə Yarışı, Babəkin tikə-tikə doğranılan bədəni və Xəlifəliyi sarsıdan Ruhu, Əzabdan alınan Fərəh, Fədakarlığın əvəzsiz Nəşəsi var.

Sizin Ruh Dünyanızda Zərdüştün Hürmüzdü, Füzulinin Məcnunu, Mənsur Həllacın Mütləqə qovuşmaq arzusu, Buddanın İmtinası, Muğamın Ülvi Ehtizazı var…

Sizin Xalq, Vətən Dünyanızda əsrlərin sınağından çıxmış Ağsaqqallıq, Varislik, Valideynlik, Həya, İsmət, Qeyrət Ənənəsi, Qədimliyə pərəstiş, Babaların Müqəddəs Ruhuna İnam var.

Siz həmişə özünüzü böyük Dünyada hiss edin. Onda kimliyinizi anlarsınız.

Dünyasızların Ürəkləri kordur. Onlar Ülviyyəti görmürlər.

Dünyasızlarla döyüşün – Dünyanızı təsdiq etmək üçün!

Öz Daxilinizdəki naqisliyi öldürün – Dünyanıza layiq olmaq üçün.

Ürəyinizə baxın – orada Sabahı görəcəksiniz!

## OCAQ MƏRAMI

Dünyada, Həyatda, Xalqımızda Əsilliyə, Mənəvi Kamilliyə, Ruhani Zənginliyə sonsuz Ehtiras yaşayır.

Ocaq həmin Ehtirasdan yaranmışdır!

Dünyada, Həyatda, Xalqımızda Süniliyə, Bəsitliyə, Yalana sonsuz Nifrət yaşayır.

Ocaq həmin Nifrətdən yaranmışdır!

Dünyada, Həyatda, Xalqımızda ölməz Ənənələrə, Ali Mənəvi sərvətlərə sönməz Məhəbbət yaşayır.

Ocaq həmin Məhəbbətdən yaranmışdır!

Dünyada, Həyatda, Xalqımızda Müqəddəsliyə alovlu bir pərəstiş yaşayır.

Ocaq həmin Pərəstişdən yaranmışdır!

Dünyada, Həyatda, Xalqımızda Bütöv, Parlaq, Gözəl İnsan Şəxsiyyətinə Çağırış yaşayır.

Ocaq həmin Çağırışdan yaranmışdır!

Dünyada, Həyatda, Xalqımızda Hərarətli və Dərin, Əzəmətli və Zərif, Ehtizazlı və Müqəddəs Şərq Ruhuna atəşli Meyl yaşayır.

Ocaq həmin Meyldən yaranmışdır!

Dünyada, Həyatda, Xalqımızda Qeyrət ilə Alçaqlıq, Ləyaqət ilə Qəbahət, Cəngavərlik ilə Mənəvi Zəlillik, Vətənpərvərlik ilə Vətənsizlik döyüşür.

Ocaq bu Döyüşün ön sırasındadır!

Dünyada, Həyatda, Xalqımızda Yanar Zəkanın Övladı olan, Dünya Fikrinin Mahiyyətini özündə təcəssüm etdirən, Bədiiyyatla nəfəs alan, Mənəviyyatı Həqiqət Odunda təmizləyən Qanadlı, Hissiyyatlı, Cəsarətli İdraka zəruri Ehtiyac yaşayır.

Ocaq həmin Ehtiyacdan yaranmışdır!

XX əsrin bayquşları İnsana İnam Bayrağını tapdalamağa çalışırlar. Biz həmin Bayrağı başımızın üzərinə qaldırırıq.

İnsan hər bir mühitdə İnsan olaraq qala bilər. O, hər bir şəraitdə öz zəifliyi üzərində qələbə çala bilər.

İnsan özünü daim təkmilləşdirməlidir. Bu, onun özü qarşısında ən böyük borcudur. Bütün çirkinlikləri daxildən silib atmaq olar. Pisliyin bəraət imkanı yoxdur…

Ocaq **İnsana İnam** ideyasına əsaslanır, Kamil İnsan yaratmağı öz məqsədi sayır.

Dünyada, Həyatda, Xalqımızda – yenilik pərdəsi altında əxlaqsızlıq, yırtıcılıq, bədbinlik, eybəcərlik təbliğ edən "sənət"ə qarşı ikrah hissi yaşayır.

Ocaq pozğun, çirkin, bayağı qeyri-sənətlə döyüşündə ardıcıl, amansız olacaqdır.

Dünyada, Həyatda, Xalqımızda müasir əxlaq, müasir gözəllik, müasir həyat tərzi libasına bürünmüş, öz Əsilliyindən, Qədimliyindən, Xəlqi Mahiyyətindən ayrılmış təcavüzkar, fəal, azğın qüvvələr yaşayır.

Onların puç və zərərli əqidəsini Ocaqda yandırıb külə döndərmək lazımdır.

Biz gələcəyə keçmişimizin meyidi üzərindən adlayıb keçmirik.

Biz gələcəyə Müqəddəs keçmişimizin geniş Yollarıyla gedirik.

Biz Qərb solçuları kimi gələcəklə keçmiş arasında uçurum görmürük, "ya gələcək, ya keçmiş" demirik.

Biz belə hesab edirik ki, müasir İnsanın Qəlbində Məcnun Alovu yaşamalıdır, Nəsimi Ənəlhəqqi səslənməlidir, Zərdüşt İşığı parlamalıdır, Muğam Hikməti, Saz Əzəməti səslənməlidir.

Biz mədəni bədbinlərin "İnsan məhv olur" – hay-küyünə inanmırıq.

İnsan öz böyüklüyünə qayıda bilər, qayıtmalıdır və Ocaq bu ümumbəşəri tarixi vəzifəyə xidmət edir.

Biz geriyə yox, irəliyə gedirik. Fəqət biz irəliyə keçmişimizlə bərabər gedirik.

Biz Bəşərin Ülvi Ruhunu Ürəyimizdə gəzdiririk. Həmin Ruh bizi Müqəddəsləşdirir və biz bu Müqəddəsliyi Dünyaya, Həyata, Xalqa qaytarırıq.

Dünya gözəlləşir, İnsan paklaşır, Əzəmət, Ülviyyət gəlir Həyata, Mehr, Məhəbbət bəzəyir Dünyanı, Qeyrət, Namus cilalayır Mənəviyyatı, Fikrə Ənginlik, Duyğuya Təravət bəxş olunur.

**İnsan öz üzərində çaldığı qələbəni bayram edir.**

Biz azərbaycanlıyıq, Şərq dünyasının bir hissəsiyik. Muğamlarımızla, Şeirimizlə, Adət-Ənənələrimizlə Şərqə bağlıyıq, Füzulilərimiz, Nəsimilərimiz Cəlaləddin Rumilərə, Hafizlərə qohumdur.

Şərq mədəniyyətinə qovuşmuşuq, onun Ruhuna Ruhumuzu calamışıq. İtirməmişik – Böyümüşük, Yüksəlmişik, həm də Yüksəltmişik.

Şərqin ikinci Füzulisi yoxdur, Muğamları da ən kamil şəkildə biz qoruyub saxlamışıq və ifa etmişik.

Biz həm də Qərbdən bəhrələnmişik. Ancaq heç vaxt qərbçi olmamışıq. Sənətimizdə, Fəlsəfi Fikrimizdə, Musiqimizdə təsdiq olunan Ruh – Hərarətli, Müdrik Şərq Ruhudur.

Biz həm də türkdilli xalqların bir hissəsiyik. Ancaq bu xüsusiyyətimizi bütün Şərqə qarşı qoymuruq.

Biz türkdilli xalq olsaq da, ən çox Şərqi xalqıq. Bizim Mənəviyyatımızda ümumi Şərq Mahiyyəti çox güclüdür. Adət-Ənənələrimiz, Cəngavərliyimiz hamıya bəllidir.

Belə bir xalq özünəməxsus **Mənəviyyat Fəlsəfəsi** yaratmalıdır. Tarix onun qarşısında bu vəzifəni qoyub.

Ocaq həmin Zəruriyyətdən yaranıb!

Füzulilərin, Nəsimilərin, Muğamatın, Sazın, Şərq Ruhunun, ümumən Dünya İdrakının davamı olan **Mənəviyyat Fəlsəfəsini** Ocaq mütləq yaradacaq!

Biz Dünyanı və İnsanı daha Gözəl və Kamil görmək istəyirik. Dünyanın Aqibəti İnsanın əlindədir. Gözəl İnsanlar Gözəl Dünya yaratmağa qadirdirlər.

Azərbaycanın sinəsində yanan bu Ocaq Xalis, Qeyrətli, Pak İnsanlar yetişdirəcək, Gözəl İnsan yaratmaqla Gözəl Dünyaya xidmət edəcək.

Qoy bir an da Qəlbimizdə Ülviyyət Odu azalmasın! Qoy bir an da Gözlərimizdə Heyrət İşığı azalmasın!

Əzmimiz, Gücümüz, Cəsarətimiz, Fədakarlığımız – Məqsədimizə bərabər olsun!

Ocağın Müqəddəs Ruhu sönməzdir!

## SABAHDAŞLARA (I)

Naşı deyəcək: "Rütbəsi kiçik idi".
Müdrik deyəcək: "Rütbəni saymadı".

Naşı deyəcək: "Mənsəbi yox idi".
Müdrik deyəcək: "Mənsəbi saymadı".

Naşı deyəcək: "Heç kəsi sevmirdi".
Müdrik deyəcək: "İnsanı sevirdi".

Naşı deyəcək: "Gün görmədi!"
Müdrik deyəcək: "Günəşliydi!"

Naşı deyəcək: "Zamanla ayaqlaşmadı!"
Müdrik deyəcək: "Axsaq deyildi!"

Naşı deyəcək: "Dövrana inanmadı!"
Müdrik deyəcək: "Ədalətə inandı!"

Naşı deyəcək: "Cərgəyə qoşulmadı!"
Müdrik deyəcək: "Sürüdən ayrıldı!"

Naşı deyəcək: "Əzaba düçar oldu!"
Müdrik deyəcək: "Sevindi!"

Naşı deyəcək: "Nailiyyəti görmədi!"
Müdrik deyəcək: "Çünki kor deyildi!"

Naşı deyəcək: "Nəqəratı eşitmədi!"
Müdrik deyəcək: "Çünki kar deyildi!"

Naşı deyəcək: "Çağırdılar – dinmədi!"
Müdrik deyəcək: "Çünki lal deyildi!"

Naşı deyəcək: "Söyüldü, döyüldü!"
Müdrik deyəcək: "Hürkütdü, hürdürdü".
Naşı deyəcək: "Özü haqqında böyük fikirdəydi!"
Müdrik deyəcək: "Yükü böyük idi!"

Naşı deyəcək: "Özünü sevəndi!"
Müdrik deyəcək: "Özündən keçəndi!"

Naşı deyəcək: "Ağ eləmişdi!"
Müdrik deyəcək: "Üzü ağ idi!"

Naşı deyəcək: "Birtərəfliydi!"
Müdrik deyəcək: "Birsifətliydi!"

Naşı deyəcək: "Böyüyü bəyənmədi!"
Müdrik deyəcək: "Böyüklüyü bəyəndi!"

Naşı deyəcək: "Alimi bəyənmədi!"
Müdrik deyəcək: "Elmi bəyəndi!"

Naşı deyəcək: "Şairi bəyənmədi!"
Müdrik deyəcək: "Şeiri bəyəndi!"

Naşı deyəcək: "Filosofu bəyənmədi!"
Müdrik deyəcək: "Tutuquşunu mütəfəkkir saymadı!"

Naşı deyəcək: "Xəyallıydı!"
Müdrik deyəcək: "Ruhluydu!"

Naşı deyəcək: "Dostu yox idi!"
Müdrik deyəcək: "Amalla dostluq edirdi!"

Naşı deyəcək: "Ailəsizdi!"
Müdrik deyəcək: Evladlıydı!"

Naşı deyəcək: "Tənqidə cavab verməzdi!"
Müdrik deyəcək: "Ataları eşidərdi!"

Naşı deyəcək: “Rəqiblə döyüşmədi!”
Müdrik deyəcək: “Rəqibi olmadı!”
Naşı deyəcək: “Qəyyuma “var ol” demədi!”
Müdrik deyəcək: “Ləyaqətliydi!”

Naşı deyəcək: “Dili acı idi!”
Müdrik deyəcək: “Həqiqət qəndindən dadmışdı!”

Naşı deyəcək: “Çətin adam idi!”
Müdrik deyəcək: “Özünə bənzəyirdi!”

## SABAHDAŞLARA (II)

Dedim: Bəşər fəlsəfəsizdir!
Dedilər: Dünya bizimdir!

Dedim: Ləyaqət mənimsənilir!
Dedilər: Bu, yeni ləyaqətdir!

Dedim: Yalan aləmi bürüyüb!
Dedilər: Yalan – həqiqətdir!

Dedim: Üstümüzə həqarət yağışı yağır!
Dedilər: İslanmışın sudan nə pakı!

Dedim: İnsan – ruhani varlıqdır!
Dedilər: Biz bədənə bağlıyıq!

Dedim: İnsanın Mahiyyəti Mütləqdir.
Dedilər: Biz nisbiyə tapınırıq!

Dedim: Dünyanın Mahiyyəti Mütləqdir.
Dedilər: Nisbidən başqa Mütləq yoxdur!

Dedim: İnsan Mütləqin təzahürüdür.

Dedilər: Mövhumatçısan!

Dedim: Təzə fəlsəfə yaradaq!
Dedilər: Başımızı saxlayaq!

Dedim: Varidata aldanmayaq!
Dedilər: Varidatsız düşmənin olsun!

Dedim: Əzaba qatlaşaq!
Dedilər: Əzab düşməninə qismət olsun!

Dedim: Sokrat deyirdi ki…
Dedilər: Sokratı öldürdülər!

Dedim: Yeni fikir söyləyək!
Dedilər: Biz tədqiqatçıyıq!

Dedim: Şərqi yaşadaq!
Dedilər: Onda gərək yaşamayaq!

Dedim: Müqəddəsliyi bərpa eləyək!
Dedilər: Günaha batarıq!

Dedim: Özümüzdən keçək!
Dedilər: Hünərdən keçək!

Dedim: Etiqadlı olaq!
Dedilər: Ehtiyatlı olaq!

Fikirsizlər arasında fikirlərimə həmdəm tapmadım!
Həqiqətlə dostlaşdım!

Əsərlərimi yazıb qurtardım.
İstədim ki, İnsan özünə bərabər olsun!
Mənim üçün o, göründüyündən artıqdır.
Büna görə də ona inanıram.

**Şölə Ayı, 6-cı il. Bakı.**
**(İyun, 1984-cü il).**

## SABAHDAŞLARA (III)

Dedim ki, filosofun Sözü olmalıdır.
Dedilər ki, Sözlü olmaq günahdır.

Dedim ki, İdeyasız filosof səssiz xanəndəyə bərabərdir.
Dedilər ki, İdeya ağıla yükdür.

Dedim ki, filosofluq – yaradıcılıqdır.
Dedilər ki, filosofluq – yaradıcılığın şərhidir.

Dedim – fəlsəfə inkişaf etdirilməlidir.
Dedilər ki, fəlsəfə araşdırılmalıdır.

Dedim – zaman yeni fəlsəfi fikir tələb edir.
Dedilər ki, gərəkli fikirlər deyilib.

Dedim – bu, fəlsəfənin ölümü deyilmi?
Dedilər ki, yox, yeni aqibətidir.

Dedim, Azərbaycan fəlsəfəsi yaradaq.
Dedilər – bu, dəlilikdir.

Dedim – Şərq ənənələrinə üz tutaq.
Dedilər – bu, gerilikdir.

Dedim – klassiklərə ayıq nəzərlə baxaq.
Dedilər – bu cinayətdir.

Dedim – əxlaq pozulur.
Dedilər – yeni əxlaq yaranır.

Dedim – özümüzdən ayrılırıq.
Dedilər – sabahımızı tapırıq.

Dedim – İnam azalır.
Dedilər – şübhəyə tapınırıq.

Dedim – qeyrət azalır.
Dedilər – qeyrət maddi deyil, qoy azalsın.

Dedim – Mütləqə inanmaq lazımdır.
Dedilər – nisbini Mütləq sayırıq.

Dedim – filosof zəmanəyə sığmaz.
Dedilər – zəmanə bizi görmür.

Dedim – fəlsəfədə düşüncə səviyyəsi əsasdır.
Dedilər – fəlsəfədə rütbə səviyyəsi əsasdır.

Dedim – Sokrat zəhər içdi.
Dedilər – biz meyi xoşlayırıq.

Dedim – Diogen İsgəndəri saymadı.
Dedilər – bizi sayan görünmədi.

Dedim – həqiqət hər şeydən qiymətlidir.
Dedilər – biz onu aramırıq.

…Özümü eşitdim. “Mütləqə İnam” Beşliyini (“İnsan”, “İnam”, “Ruh”, “Həyat”, “İntibah” kitablarını) yazıb qurtardım. Borana düşdü Beşlik. Çap olunmadan qadağan olundu. Bəxtiyaram. Ömür sevdam baş tutdu, arzuma çatdım. Kitablarımın, Evladlarımın Atası oldum.

Kitabları ilk növbədə azərbaycanlılar üçün yazdım. Mənim üçün Azərbaycan azərbaycanlıların cəmindən artıq, böyük, yüksək olan bir varlıqdır. İstədim ki, o, öz Müqəddəs mənasına layiq olsun.

Kitabları həm də bütün insanlar üçün yazdım. Mənim üçün bəşər insanların cəmindən artıq, böyük, yüksək olan bir varlıqdır. İstədim ki, o, öz müqəddəs mənasına layiq olsun.

İstədim ki, insanlar yaşasınlar...

# MÜTLƏQƏ İNAM

## Ürəkdən Gələn Səs

Dünyada, Həyatda, İnsanda – dünyaya, həyata, insana sığmayan, onlardan yüksək olan, ali, böyük olan, onlarda təzahür edən, nişanələriylə aşkara çıxan, onları böyüdən, yüksəldən Mütləq yaşayır. Dünyada, Həyatda, İnsanda gözəl, kamil, ülvi nə varsa – hamısında Mütləq var. Gözəlliklər, ülviliklər, kamilliklər Mütləqin əlamətləridir. Ancaq dünyada, həyatda, insanda gözəlliklərlə, kamilliklərlə, ülviliklərlə yanaşı, eybəcərliklər, naqisliklər, bəsitliklər də yaşayır. Mütləq onlara yaddır, düşməndir, onları rədd edəndir.

Mütləq dünyada, həyatda, insanda nə varsa, hamısını kamilləşməyə, ucalmağa, şərə, çirkinliyə qələbə çalmağa sövq edir, onları özlərindən kənara çıxarır, Mütləq gözəlliyə, Mütləq xeyirə səsləyir, onların qarşısında sonsuz üfüqlər açır, onlara sığmazlıq xisləti bəxş edir. Dünya, Həyat, İnsan çoxcəhətlidir, əlvandır, mürəkkəbdir, ziddiyyətlidir, bulanıqdır, ancaq həm də Mütləqlə səciyyələnən, yetişən, gözəlləşən, özündən yüksəyə qalxan, sonsuzluğa doğru hərəkət edəndir. Dünyanın, Həyatın, İnsanın məziyyətləri nisbi səciyyə daşıyır. Nisbi gözəllik, nisbi kamillik, nisbi xeyir var dünyada. Lakin nisbidə Mütləq var. Nisbi gözəlliyin, nisbi kamilliyin, nisbi xeyirin mayasında Mütləq yaşayır.

Əslində nisbilik nisbi olanın mahiyyətini ifadə etmir. Nisbiliyin mahiyyəti nisbi deyil, Mütləqdir. Bu o deməkdir ki, nisbi öz nisbiliyində qalmayacaq, onun üzərində qələbə çalacaq, daxilində yaşatdığı Mütləqin çağırışıyla, təsiriylə, hökmüylə daha yüksək mövcudiyyata qədəm qoyacaq, özündə dayanmayacaq, özündən ucalığa can atacaq. Mütləq dünyanı, insanı, həyatı Mütləqə doğru istiqamətləndirir; onlara əbədi kamilləşmə, gözəlləşmə, ülviləşmə səadəti verir.

Bir tərəfdən, Mütləq bizə deyir ki, nisbi hadisələrə ciddi yanaşın, onları düzgün qiymətləndirin – onlar Mütləqin təzahürləridir. Onlar nisbi olsa da, özlərində Mütləqi daşıyırlar. O biri tərəfdən, Mütləq bizə deyir ki, nisbi gözəlliklər, xeyirlər, kamilliklər öz indiki

səviyyələrində qalmayacaq, Mütləqə yaxınlaşacaq, özlərindən yüksəyə qalxmağa meyl göstərəcək, artacaq, böyüyəcək, gözəlləşəcəklər.

Mütləq heç vaxt özünü hadisələrdə tam ifadə etmir, lakin hadisələrin heç birini özündə dayanmağa, özüylə kifayətlənməyə də qoymur, onları özünə, Mütləqə yaxınlaşdırır.

Mütləq hadisələrin daxilində yaşayır və hadisələri öz arxasınca aparır. Mütləq ilə hadisələr arasında həm qırılmaz əlaqə, həm də sonsuz sədd var. Hadisələrin heç biri və hadisələrin hamısı bir yerdə Mütləqi bütövlükdə ifadə etmir. Ancaq Mütləq heç vaxt hadisələrdən kənarda olmur. O, hadisələrdə yaşayır. Hadisələr də öz növbəsində heç vaxt tək Mütləqdən ibarət olmur. Onlar həm də naşılıqdan, yanlışlıqdan, şərdən, çirkinlikdən ibarət olur. Ancaq hadisələr həmişə Mütləqin hökmünə əməl edir, Mütləq olmağa can atır. Dünyanın heç bir məqamı, vəziyyəti – Mütləq məziyyətə malik olmur. Ancaq dünyanın heç bir məqamı, vəziyyəti həm də özündə qalmır, özündən kənara çıxmağa can atır. Bu baxımdan, Mütləq zamanın əbədi gedişatında, Sabahda, bir-birini əvəz edən sonsuz məqamlar, vəziyyətlər, hadisələr axarında yaşayır. Dünya, Həyat, İnsan – Mütləqin təsiriylə, Mütləqin istiqamətində, Mütləqin yollarında addımlayırlar.

Mütləq ağılasığmaz dərəcədə kamildir, əlçatmazdır, təsəvvürə gətirilməz dərəcədə alidir, bu səbəbdən də o, dünyanın, həyatın, insanın ülvi xislətini təyin edir. Bu səbəbdən də dünya, həyat, insan heç bir vəziyyətdə qalmır, bu vəziyyətdən kənara çıxır, onunla kifayətlənmir, onun üzərində yüksəlir.

**Beləliklə də Mütləq – bugündə nişanələriylə, əbədi Sabahda bütöv mövcudluğuyla aşkara çıxan, nisbi hadisələrin daxilində yaşayan, ancaq onlara sığmayan, onları özlərindən kənara çıxarıb özünə yaxınlaşdıran, Dünyaya, Həyata, İnsana Ali Daxili Qüvvə, İstiqamət və Meyar olan bir Qüdrətdir.**

Bu Qüdrəti laboratoriyalarla, riyazi hesablamalarla, elmi tədqiqatlarla dərk etmək olmaz. Çünki o, ağılasığmazdır. Ağıla sığmamaq – var olmamaq deyil. Mütləq ağıla sığmır, gözlə görünmür, ancaq o, var: – Dünyanın, insanın, həyatın ideala yaxınlaşmaq meylində, bugünlə sabahın təmasında, dünyanın daimi dəyişməsi, təkmilləşməsində, insanın özüylə, dünyayla, həyatla kifayətlənməməsində, daim ədalətə, həqiqətə can atmasında, idrakda,

sənətdə, qəhrəmanlıqda, təbiətin sehrində. Mütləq heç vaxt tam gözə görünmür, çünki tarixə, dünyaya, həyata sığmır, gözlə görünən onun nişanələridir. Ancaq o, var. Çünki dünya nisbidə dayanmır.

Nisbinin nisbidən yüksəyə qalxması – Mütləqin yaşamasıdır. Bu meylin ölməzliyi, əbədiliyi Mütləqin yaşamasıdır. Dünyanı Mütləqə yaxınlaşmaq istiqamətində əbədi gedişi – Mütləqin yaşamasıdır.

Yaşamaq – yalnız zahirə çıxmaq deyil. Yaşamaq həm də hadisənin daxili məzmununu, inkişaf meylini müəyyən etmək, onun hərəkətverici qüvvəsinə çevrilməkdir. Bu baxımdan, Mütləq həmişə yaşayır, hadisələrin daxilində təzahür edir, həm də hadisələri özlərindən kənara çıxarıb, özünə yaxınlaşdırır.

Əgər dünyada, həyatda, insanda Mütləq olmasaydı, dünya, həyat, insan nisbi hadisələrə parçımlənib qalardı, sabahla bugün arasında fərq olmazdı, dünya, həyat, insan artmazdı, İnsan özünüdəyişdirməyə, insanı yaxşılaşdırmağa çalışmazdı, dünya, həyat, insan yerində sayardı.

İnsan özünü özüylə yox, Mütləqlə müqayisə etdiyindən özündən yüksəyə qalxdı, özüylə razılaşmadı, kifayətlənmədi. O, ən yaxşı insanı yox, Mütləqi özünə meyar seçdi. Mütləq insanın əsil inkişaf tarixini yaratdı. Onda ki, İnsan özünü Mütləqlə yox, özüylə, İnsanla müqayisə etdi, özüylə razılaşdı, barışdı, kifayətləndi, onda adiləşdi, kiçildi, çünki insanın ən alisi belə, İnsan üçün azdır.

Mütləqdən ayrıldıqca insan müflisləşdi. Mütləqə qovuşduqca yüksəldi.

Mütləqə can atmaq, özünə Mütləq ölçüsüylə yanaşmaq İnsanda **özüylədöyüş** ləyaqəti yaratdı və İnsan özünü təsdiq etməklə yanaşı, özünü inkar etməyi də öyrəndi və özünün özündən böyük səviyyəsini dərk etdi.

Köhnə peyğəmbərlər Mütləqi Allah adlandırdılar və həyatı, dünyanı, insanı yaradan Qüdrət saydılar. Onlar həyatda, dünyada, insanda Mütləqin olduğuna inanmadılar. Onlara elə gəldi ki, dünyanı, həyatı, insanı kimsə yaratmalıdır.

Onlar bəlkə də bilmədən, istəmədən Mütləqi insaniləşdirdilər. İnsan alətlər yaradırdı və onlara elə gəlirdi ki, dünyada nə varsa, hamısının yaradıcısı var. Bu yaradıcı – Allahdır. Yeri-Göyü, kainatı yaradan odur.

İstəmədən, bilmədən peyğəmbərlər Mütləqi kiçildirdilər, insan səviyyəsinə endirirdilər, ona insan səviyyəsində yanaşırdılar. Onlara elə gəlirdi ki, böyüklüyün yeganə meyarı yaratmaq qabiliyyətidir. Əgər Allah yeri-göyü yaratmayıbsa, yer-göy özü peyda olubsa, deməli, Allah mütləq gücə malik deyil.

Bu, yanlış təsəvvür idi. Peyğəmbərlər Mütləqin mütləqiliyini həyatın, dünyanın, insanın özündə görmürdülər.

Onlar Mütləq Qüdrətin olduğunu dərk etmişdilər, həmin Qüdrətə səcdə qılır, onu ürəklərində gəzdirir, bəşəriyyəti həmin Qüdrətə məhəbbət ruhunda bəsləyirdilər, həmin Qüdrəti Ali Varlıq səviyyəsində insanlara təqdim edirdilər. Ancaq onu dünyadan, insandan, həyatdan tam ayırırdılar. Ali Qüdrət dünyanı, həyatı, insanı yaradırdı, ancaq ondan təcrid olunurdu. O, dünyanın daxilində yox, fövqündə yaşayırdı. Peyğəmbərlər dünyanın heç bir varlıq tərəfindən yaradılmamasına inanmırdılar. Onlar Yeri, Göyü, dünyanı, insanı yarada bilməyənin Mütləq Qüdrətə malik olmasını ağıllarına gətirmirdilər. Əgər Mütləqsənsə, deməli, Dünyanı yaratmalısan, Dünyanı yaratmayırsansa, deməli, Mütləq deyilsən. Dünya öz-özünə yarana, yaşaya bilməz! Həyatda hər bir hadisənin yaradıcısı var, deməli, dünyanın da yaradıcısı olmalıdır. Həmin yaradıcı Allahdır.

Allahı dünyanın yaradıcısına çevirən peyğəmbərlər onu qeyri-ixtiyari olaraq insani keyfiyyətlərlə səciyyələndirirdilər. Allah insan kimi qeyzli, mərhəmətli, amansız, ağıllı olurdu, insan kimi yaşayırdı, bəndələrinə sahiblik edirdi, insanları cəzalandırırdı, mükafatlandırır, cənnət-cəhənnəm divanı, cin-şeytanlar, hurilər-pərilər aləmi icad edirdi. Bir sözlə, peyğəmbərlər özləri də hiss etmədən Mütləqi Mütləqlik taxtından salır, onu nisbilik səviyyəsinə endirirdilər. Allah qeyri-insani möhtəşəmliyə malik olurdu, ancaq insan münasibətləri, xasiyyəti məntiqinə uyğun davranırdı.

Allahın o dünyası da mahiyyət etibarilə bu dünyaya, insani dünyaya bənzəyir. İlahi möcüzələr – insan arzularını, niyyətlərini ifadə edirdi. Allah insan diləklərindən, təxəyyülündən çox asılı idi. O, həm də haradasa yer hakimlərinə bənzəyirdi. İnsanların Allaha münasibətində rəiyyət – hakim əlaqələri təkrar olunurdu. Allaha baş əyirdilər, ondan qorxurdular, çəkinirdilər, ona yalvarırdılar, ondan səadət umurdular.

Bir sözlə, peyğəmbərlərin Yeri, Göyü, insanı yaradan Allahı əslində İnsan mövcudluğunu təqlid edirdi. Üstəlik, zehinlərə həkk olunan xurafat cəfəngiyyatı Mütləqin ülvi mənasına xələl gətirirdi və inkarçılar həmin naqislikdən istifadə edib Mütləqi dandılar. Allahla döyüş əslində dünyanın, həyatın və insanın ali mənasıyla döyüş oldu. İnkarçılar dünyadan, həyatdan, insandan Mütləqi sildilər və dünyaya, həyata, insana dəhşətli zərbə vurdular. Dünyanı, həyatı, insanı nisbi hadisələrin cəminə çevirdilər, nisbi hadisələrə qapılıb qaldılar, yalnız olanı gördülər, olanda yalnız nisbini sezdilər, nisbiyə tapındılar… Görünənə sığındılar, dünyada, həyatda, insanda dünyadan, həyatdan, insandan yüksək heç nə tapmadılar, həyatla, dünyayla, insanla kifayətləndilər, barışdılar. Dünyanın, həyatın, insanın nisbi mənasını saxladılar, Mütləq mənasını itirdilər. Dünya müqəddəslik mahiyyətindən məhrum oldu.

Əgər dünyadakılar nisbi məziyyətə malikdirlərsə, nisbi məziyyətlərin arxasında heç bir mütləq məna dayanmırsa, dünyanın gedişatında Mütləqə yaxınlaşmaq meyli yoxsa, deməli – onda qeyri-adi xüsusiyyət, müqəddəs mahiyyət axtarmaq əbəsdir. İnsan elə insandır, yəni nisbi keyfiyyətlərə malik bir varlıqdır, onda nisbi mənadan kənara çıxmaq, mütləq məna axtarmaq lazım deyil.

Əgər insan bütöv mahiyyət kimi adidirsə, deməli, onun müxtəlif keyfiyyətləri: məhəbbəti, analığı, qəhrəmanlığı, fədakarlığı və s. də müqəddəslikdən məhrumdur. Beləliklə də insanı ucaltmaq niyyətini aləmə car çəkən inkarçılıq əslində insanı son dərəcədə alçaltdı, qiymətdən saldı.

Mütləqi alçaltmaq yoluyla İnsanı ucaltmaq cəhdi acı nəticə verdi. Müqəddəsliyin ləğvi həm də dünyanı İnsanın gözündən saldı.

Köhnə peyğəmbərlər dünyaya inanmadılar, onu icad edən Qüvvə axtardılar. İnkarçılar da dünyaya inanmadılar, ona xas olan mütləqliyi dandılar. Hər ikisində şübhə hökm sürür. Əslində isə dünyanın yaradıcısı allah yoxdur, ancaq dünyaya ülvilik, kamillik, gözəllik gətirən Mütləq var və o özünü dünyada aşkara çıxarır. O, dünyanın ümumi gedişindən, istiqamətindən kənarda deyil, dünyanın daxilindədir, o hər bir nisbi hadisənin, tarixi məqamın mənasından böyük, ali və yüksəkdir, bu baxımdan, özünü dünyanın, həyatın, insanın sonsuz, əbədi gedişatında realizə edir. Onu adi gözlə görmək olmaz, onun şəklini çəkmək olmaz, ancaq o var. Onu dünyanın, həyatın, insanın daimi kamilləşməsində görmək olar.

Əgər dünya bir yerdə qalmırsa, dəyişirsə, gözəlləşirsə, ülviləşirsə, – deməli, Mütləq var!

Əgər insan bir vəziyyətdə qalmırsa, özüylə kifayətlənmirsə, özüylə döyüş vasitəsiylə özünün üzərində ucalırsa, özündən daha kamil, daha ali olursa, – deməli, Mütləq var!

Əgər həyat bir səmtdə, bir məqamda qalmırsa, dayanmırsa, daim yaxşılaşmağa, gözəlləşməyə meyl edirsə, – deməli, Mütləq var!

Əgər şərə qarşı nifrət azalmırsa, əksinə, artırsa, əgər xeyirə qarşı məhəbbət azalmırsa, əksinə, çoxalırsa, əgər məşəqqətlərə, yanlışlıqlara, xülyalara, qəddarlığa baxmayaraq, bəşər şərin yox, xeyirin arxasınca gedirsə, – deməli, Mütləq var!

Əgər Məhəbbət, Müqəddəslik, Ülviyyət naminə ölənlər həmişə tapılırsa, əgər heç bir qüvvə Qüdsiyyət odunu söndürə bilmirsə, – deməli, Mütləq var!

Dünyanın, Həyatın, İnsanın Meyarı – Dünya, Həyat, İnsan ola bilməz – yalnız Mütləq ola bilər. Dünyanın, Həyatın, İnsanın əsas yolu Mütləqə aparan yoldur. Əsil mövcudluq – Mütləqə yaxınlaşmaqdır.

Bu sözlər Əbədi, Sonsuz, Müqəddəs qəlbdən gələn səslərin əks-sədası idi. Onlar qədimlərdən gəlib Əbədi Sabaha yollanırdı.

## Mütləq Tələb

Mütləqə İnamın Mütləq olsun! Özünü Mütləqlə müqayisə et!

Mütləqi Kamillik, Gözəllik və Xeyir meyarına çevir! Özünə tələbin Mütləq olsun!

Gerçəkliyi Mütləqləşdirmə – Mütləqdən uzaqlaşarsan! Həyata sığınma, onun üzərində yüksəl!

Mütləqin nişanələrini sev, onların ali mənasını qan, bu mənaya heyrət et!

İdrakın vəcddən ayrı düşməsin, Mütləqə və onun əlamətlərinə vəcdin işığında bax!

Qəlbin Mütləq eşqiylə çırpınsın, Mütləqlə danışsın! Xeyirə məhəbbətin, Şərə nifrətin Mütləq olsun!

Dünyadakı Mütləqə inan və dünyayla barışma!

Özünlə qane olma, bil ki, həmişə öz Mütləq mənin üçün azsan! Sən Mütləqin nişanəsisən, zəmanədən üstünsən, yüksəksən, zəmanənin havasına oynama, qoy zəmanə sənin havana oynasın!

Daxilini nəzarətsiz qoyma, oraya oğrular, qarətçilər girə bilər.

Günahını bağışlama – Mütləqi küsdürərsən!

Maddini yüksək tutma – onda Mütləqilik yoxdur!

İmtinan Mütləq olsun!

Mütləqə çatmaq əzmin Mütləq olsun!

Hərəkətlərində, fikirlərində, duyğularında Mütləqlə görüş! Ömrünü Mütləq kökündə sazla!

## Mütləq

Təbiətdə, Mənəviyyatda, Kainatın Ahəngində, Gözəllikdə, İdrakda, Ehtizazda, Vəcddə, Analıqda, Məhəbbətdə, Ruhun Ülvi Xilqətində, Bəşərin Özündən Böyük Mənasında, Ürəyin Ürəyə Qovuşmaq Arzusunda, İdeala qarşısıalınmaz Meyldə, Dostluqda, Həyada, İsmətdə, Dünənlə Bugünün Təmasında, Özündənkeçmədə, Qeyrətdə, Müqəddəsliyin Əfsunlu Cazibədarlığında Əbədi, Sonsuz Mütləq yaşayır.

Mənim Allahım Odur!

Sözə sığmayan, nisbi hadisələrin daxilində yaşayan, fəqət onlardan Yüksək və Kamil olan Mütləq!

Zəkada Dahilik, Mənəviyyatda Qəhrəmanlıq, Sifətdə Ruhani Gözəlliyin İfadəsi, Hissiyyatda Sevgi, ictimai həyatda – Azadlıq!

Mövcudiyyatda – Mütləqə qovuşmaq diləyi, Tarixdə – Xalqın Ölməzliyi, Təbiətdə – Dağların Vüqarı, Səmanın Sehrli Ənginliyi, Cəmiyyətdə – Torpağın Vətən səviyyəsinə qalxması! Bunlar Mütləqin təzahürləridir!

Mənim Allahım Mütləqdir!

İnsan Özündənkeçmə, Fədakarlıq Yüksəkliyinə qalxır, Adiliyindən, Keçiciliyindən, Qorxu Duyğusundan xilas olursa, Özündəki Mütləqə yaxınlaşır!

Xalq sonsuz Mətanət, Əzab-Əziyyət bahasına öz bənzərsizliyini, Bəşəri Ləyaqətini saxlayırsa, – Özündəki Mütləqə yaxınlaşır!

Ana Övladına Məhəbbətdə Dahilik göstərirsə – Özündəki Mütləqə yaxınlaşır!

Məhəbbətdə iki şəxs bir olursa, cismani qovuşma Ruhani Qovuşmaya çevrilirsə – İnsan Özündəki Mütləqə yaxınlaşır!

Günəş Yerə, Torpağa, Canlılara, Bitkilərə öz Şəfqətini Səxavətlə paylayırsa – özündəki Mütləqə yaxınlaşır!

Sifətdə İnsanın Dünyaya sığmayan Mahiyyəti öz İfadəsini tapırsa, – Sifətdə Mütləq İşığı parıldayır!

Musiqinin Vəcdli, Sehrli, Sirli səsi – Mütləqin səsidir…

Şəxsiyyətin özünü yenidən yaratmaq əzmi – Mütləqin təzahürüdür.

Peyğəmbərlərin Sözlərində, Qəhrəmanların Əməllərində Mütləq yaşayır!

Zülmə qarşı hiddətdə, eybəcərliyə qarşı Nifrətdə, Mərhəmətdə, Qüdsiyyətdə Mütləq yaşayır!

Gecə Sükutunda, Səhər Oyanmasında, Şimşək Nərəsində, Yağışda, Qarda Mütləq yaşayır!

Ruhun bədən üzərində, İnsaniliyin Heyvanilik üzərində, Müdrikliyin Naşılıq üzərində qələbəsində Mütləq yaşayır! Amalın Ömrə Hakim olmasında Mütləq yaşayır!

Mənim Allahım Mütləqdir!

Mən Ona Səcdə qılıram. Onunla yaşayıram. Onun tələblərinə əməl edirəm.

Mütləq Dünyada təzahür edir, Dünyanın daxilindədir. Ancaq Dünya təkcə Mütləqdən ibarət deyil. O, həm də şərdən, naqislikdən, çirkinlikdən, adilikdən, bəsitlikdən ibarətdir.

Dünya heç vaxt tam Mütləq olmur. Mütləq Həmişə Gerçəklikdən Yüksəkdir!

Ancaq Gerçəklikdə həmişə Mütləqə can atmağa, ona yaxınlaşmağa, onunla bir olmağa meyl var.

Dünya heç vaxt tam Mütləq olmur, ancaq Dünya həm də heç vaxt Mütləqsiz olmur.

Mütləq həmişə Dünyada özünü büruzə verir, həm də Dünya ona yaxınlaşmağa can atır.

Mənim Allahım Mütləqdir!

Mütləq İnam, Mütləq Gözəllik, Mütləq Həqiqət, Mütləq Tərəqqi, Mütləq Ədalət, Mütləq Fədakarlıq!

Mütləq məni Qanadlandırır, Qəhrəmanlaşdırır, Dahiləşdirir, Peyğəmbərləşdirir.

Özümlə Döyüşürəm, öz üzərimdə Qələbə çalıram, Gerçəkliklə razılaşmıram, Eybəcərliklə barışmıram, daim Mütləqə doğru irəliləyirəm.

Həm Əlçatmazdır Mütləq, həm də Yaxın!

Əlçatmazdır, çünki Gerçəklikdən Kamildir, Yüksəkdir.

Yaxındır, çünki özünü Gerçəklikdə büruzə verir, əməllərdə, hadisələrdə, keyfiyyətlərdə aşkara çıxır.

Həm Sonsuzdur Mütləq, həm də Sonlu! Sonsuzdur, çünki Mahiyyətini Gerçəklikdə heç vaxt tam ifadə etmir.

Sonludur, çünki Gözəl və Mənalı hadisələrdə təzahür edir!

Həm Görünəndir Mütləq, həm də Görünməz!

Görünəndir – ayrı-ayrı İnsanlarda, Gözəlliklərdə, Məziyyətlərdə, Təzahürlərdə!

Görünməzdir, çünki özü öz təzahürlərindən Artıqdır, Alidir, Böyükdür.

Bu səbəbdən də mən Mütləqi həm görürəm, həm də görmürəm!

Görürəm Ülviyyətlə, Qüdsiyyətlə görüşəndə, ona qovuşanda, onda itəndə!

Görmürəm, çünki Mütləq bu gördüklərimdən daha Kamil, daha Mənalı, daha Möhtəşəmdir!

Görünən Mütləq məni görünməyən Mütləqlə Ruhani qovuşmağa hazırlayır, birincidə ikincinin nişanələrini görürəm.

Peyğəmbərlərdə, Müdriklərdə, Özündən Keçənlərdə, Təbiətdə mən Mütləqin təzahürləriylə görüşürəm, onlarla bir oluram, Qüdrətim hədsiz dərəcədə artır; ancaq dərk edirəm ki, bunlar Günəşin Şüalarıdır, Günəş isə Şüaların cəmindən Artıqdır.

Mütləq Dünyanı yaratmayıb. Ancaq Dünyanın Ülvi Mənasını, Sığmazlığını, özündən kənara çıxmaq, İdeala qovuşmaq Qüdrətini yaradıb.

Mütləqə Səcdə qılıram, üzümü Ona tuturam və deyirəm: – Ey Yerə-Göyə sığmayan, tayı-bərabəri olmayan, Dünyada nə varsa, hamısına Ali Məna, Gözəllik, Ülvilik verən – Mütləq! Mənə kömək et!

Yanında cılızam, kiçiyəm, naqisəm, nöqsanlıyam, günahlıyam, qəbahətliyəm! Qolumdan qaldır, böyüt, artır, yüksəlt, təmizlə!

Müqəddəslik suyunda çimizdir, zəifliyimdən, keçiciliyimdən, naqisliyimdən uzaqlaşım! Necə varamsa, azam, cılızam, səndən uzağam. Yaxınlaşdır məni özünə. Həmişə mənimlə ol. Qəmimdə də, sevincimdə də, balacalığımda da, yetkinliyimdə də, cavanlığımda da, qocalığımda da, ölüm saatımda da, ümid məqamımda da – məni tək qoyma!

Ömrüm boyu sənə xidmət edəcəyəm! Dünyada, İnsanda, Dünəndə, Bugündə Gözəl, Mənalı, Müqəddəs nə varsa, hamısını yığacam qəlbimə, onlardan daha Kamil bir Ruhani Surət yaradacam Mənəviyyatımda və ona səcdə qılacam.

Sən mənim Atamsan! Doğmam, Ülvim, Müqəddəsim – Mütləqimsən!

## Mütləqim

İnsanın Mahiyyəti.
Dünyanın Mahiyyəti.
Həyatın Mahiyyəti.

***

Əbədi olan!
Sonsuz olan!
Kamil olan!

***

İnsanın gerçək vəziyyətindən artıq, böyük, yüksək!
Dünyanın gerçək vəziyyətindən artıq, böyük, yüksək!
Həyatın gerçək vəziyyətindən artıq, böyük, yüksək!

***

İnsan Nisbidə Təzahür edir, ancaq nisbiyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir, Mütləqə can atır.

Dünya Nisbidə Təzahür edir, ancaq Nisbiyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir, Mütləqə can atır.

Həyat Nisbidə Təzahür edir, ancaq nisbiyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir, Mütləqə can atır.

Mütləqə can atan – Mahiyyətə can atır.

Mahiyyət – Mütləqdir, əbədidir, sonsuzdur, kamildir.

***

Nisbi Mahiyyət – Yoxdur!
Keçici Mahiyyət – Yoxdur!
Sonlu Mahiyyət – Yoxdur!
Qeyri - Kamil Mahiyyət – Yoxdur!
Bu səbəbdən də Mütləq Var.

***

Mütləq Var – ona görə də İnsan nisbiylə barışmır, kifayətlənmir, nisbidə dayanıb qalmır.

Mütləq Var – ona görə də Dünya nisbiylə barışmır, kifayətlənmir, nisbidə dayanıb qalmır.

Mütləq Var – ona görə də Həyat nisbiylə barışmır, kifayətlənmir, nisbidə dayanıb qalmır.

***

Mütləq Var – ona görə də gerçək insan öz Mahiyyətindən aşağıdır.

Gerçək Dünya öz Mahiyyətindən aşağıdır.
Gerçək Həyat öz Mahiyyətindən aşağıdır.

***

Deməli, İnsan gerçək İnsanı ötməlidir.

Dünya gerçək Dünyanı ötməlidir.
Həyat gerçək Həyatı ötməlidir.

***

Deməli, İnsan insandan böyükdür.

Dünya Dünyadan böyükdür.
Həyat Həyatdan böyükdür.

***

Deməli, İnsan göründüyündən artıqdır.

Dünya göründüyündən artıqdır.
Həyat göründüyündən artıqdır.

***

Deməli, Mütləqə inanmaq – İnsanı tapmaqdır!

Dünyanı tapmaqdır!
Həyatı tapmaqdır!

***

Mahiyyət İnsanı qabaqlayır!
İnsan Mütləqə ucalır.
Mahiyyət Dünyanı qabaqlayır!
Dünya Mütləqə ucalır.
Mahiyyət Həyatı qabaqlayır!
Həyat Mütləqə ucalır.

***

İnsanın, Dünyanın, Həyatın yaradıcısı – İnsanın, Dünyanın, Həyatın özü – Mahiyyətidir.

Varlığı yaradan Allah – yoxdur.

***

İnsan gerçəkliyə – geçəkliyin gözüylə yox, Ruhun – İnsani Mahiyyətin – gözüylə baxmalıdır.

Gerçəklik – Nisbini Var olan sayır.

Ruh – yalnız Mütləqi Var olan sayır.

***

Ruhun məntiqinə əsasən, yalnız Mütləq Ədalət Ədalətdir, nisbi ədalət – Yoxdur.

Yalnız Mütləq Həqiqət – Həqiqətdir, nisbi Həqiqət – Yoxdur.
Yalnız Mütləq Əxlaq – Əxlaqdır, nisbi Əxlaq – Yoxdur.
Yalnız Mütləq İradə – İradədir, nisbi İradə – Yoxdur!

***

Gerçəklik – Mütləq Hadisə tanımır.
Bu səbəbdən də o, Var olmur.
Ruh gerçəkliyin Yoxluğunu görür.

***

“Gerçəklik – Yoxdur!” etirafında Həyata İnam var.
Demək, gerçəklik həyata bərabər deyil;
“Gerçəklik – Vardır!” etirafında həyata Şübhə var.
Deməli, gerçəklik həyata bərabərdir.

***

İnsan – gerçəkliyi ötür!
Qəhrəmanlığa yüksəlir!
Fədakarlığa yüksəlir!
Saflığa yüksəlir!
Müdrikliyə yüksəlir!
Gerçəkliyi geridə qoyur!
Mütləqləşir!

***

Mütləqim!
Özümdən böyük Özüm!
Dünyadan böyük – Dünyam!
Həyatdan böyük – Həyatım!

# KAMİL İNSAN

*Davadayam – düyündəyəm!*
*Vətənimlə bir gündəyəm!*
*Vətənimdə sürgündəyəm!*

## Nicat

Musa bəşəri aldatdı.
İsa bəşəri aldatdı.
Məhəmməd bəşəri aldatdı.
Yalana sığınan nicat – fəlakətdir.
Fəlakətdən xilas oldum.
Yalanı öldürdüm.

## Özü ilə döyüş

Dünyanı, İnsanı, Həyatı dəyişən, Kamilləşdirən, Ülviləşdirən Ocaqçı öz Mənəviyyatında, İdrakında yaşayan eybəcərliyi, naqisliyi, natamlığı öldürməlidir.

Ocaqçının qazandığı ilk Qələbə – özünün üzərində çaldığı Qələbə olmalıdır.

Ocaqçı bilməlidir ki, bəşər övladı **Məxluq** kimi dünyaya gəlir, **Adam** kimi mövcud olur, **İnsan** kimi yenidən doğulur.

Məxluqun başqa canlılardan fərqi azdır. O, cismani tələbləri ödəyir, nəsil artımında iştirak edir, Həyata uyğunlaşır, özünü qoruyur, ibtidai nəşələrdə səadət tapır. Təbiət tərəfindən bəxş olunan nadir Qüdrət – Ağıl həmin məqsədlərə xidmət edir. Dostluq əvəzinə faydalı ünsiyyət, Məhəbbət əvəzinə şəhvani asılılıq, Vətənpərvərlik əvəzinə məişətsevərlik yaranır.

**Məxluq** üçün Vicdan, Həqiqət, Fədakarlıq, Ülviyyət yoxdur. Məxluq Dünyanı, Bəşəri, Vətəni görmür. Çünki Mənəvi Aləmi dardır, Qəlbi sönükdür, İdrakı cılızdır.

**Məxluq** özünü dəyişdirməyə can atmır, çünki özünü tanımır, özünə qayıtmır, öz əsil Mahiyyətinə yaddır. O, daim bayağı

fəaliyyətdədir. Onun öz daxili Dünyasına enməyə meyli, həvəsi, vaxtı yoxdur. O, bəsit həyat axarında adi bir damladır.

**Məxluq** İradəsini, Ağlını, Mənəviyyatını cılız cismani mövcudluğa qarşı qoymağa cəhd göstərmir. Çünki bu mövcudluqdan kənara çıxa bilmir, ona pərçimlənir.

**Məxluq** özünün indiki vəziyyəti ilə kifayətlənir, bayağı Həyatın meyvələri ona dadlı gəlir, çünki başqa meyvə tanımır və tanımaq istəmir, başqa meyvənin olacağına inanmır.
O, Dünyadan yalnız cismani faydalanır. Məxluqun başını qaldırıb Dünyaya baxmağa vaxtı və ehtiyacı olmur.

Özünü dəyişdirmək üçün özünü öyrənməlisən. Məxluq özünə heç yaxınlaşmır da. Ali Duyğulara tələb yaranmır. Çünki hissiyyat div yuxusuna qərq olub.

Dəhşətli bir naşılıq törəyir. Günəş – bədəni isidən səma cismi, Torpaq – qarnı doyduran mətbəx, Vətən – birgəyaşayış yeri, Çay – böyük hovuz, Dağ – torpaq, daş və gil yığımı sayılır.

**Məxluqun** taleyi yoxdur, çünki Mənliyi yoxdur. Məxluq Zəmanənin daxilində olsa da, Zəmanəni görmür, çünki Zəmanədən fərqlənmir.

**Məxluq** Əqidə tanımır, çünki heyvaniliyi xoşbəxtlik sayır. Məxluq İdrak tanımır, çünki şüur onun cismani tələblərini tam ödəyir.

**Məxluq** Müqəddəslik tanımır, çünki heyvanilik səddini aşa bilmir.

Ocaqçı Qəlbində, Düşüncəsində, Həyat Tərzində təzahür edən məxluqluğa qarşı ardıcıl şəkildə vuruşmalıdır. O, anlamalıdır ki, Mənəvi naqislik öz-özünə aradan qalxmır, Kamilliyə nail olmaq istəyən şəxs Daxili Aləmin dərin qatlarına enməli, oradakı çirkabı Ürəkdən silib atmalıdır.

Ocaqçı **Həyat Dəftərinə** özünün səciyyəvi müsbət və mənfi cəhətlərini, özü ilə döyüşün nəticələrini yazmalıdır.

"Mən bu gün necə yaşadım, hansı mənfi keyfiyyətlərdən xilas ola bildim?"

"Mənəvi Kamilləşmə Yolunda hansı yeni addımlar atmalıyam?"

"Dostluğum, Məhəbbətim əsildirmi?"

"Yalana, saxtalığa meyl etmirəm ki?

"Vətən haqqında düşünürəmmi?"

"Qəlbimdə xəbislik ilanı yatmır ki?"
"Bu gün hansı xeyirxah iş gördüm?"
"Əqidəm uğrunda ölməyə hazırammı?"
"Əzabdan, cəzadan qorxmuram ki?"
"Başqasında özümü görə bilirəmmi?"

**(Bu qəbildən olan suallara cavab Həyat Dəftərində əks olunur və hər altı aydan bir Ocağa təqdim edilir, Ata tərəfindən qiymətləndirilir.)**

Ocaqçı bilməlidir ki, İnsan Həyata kamil, nöqsansız gəlmir, Təbiət insanı İdeal səviyyədə yaratmır. Ona görə də şəxsiyyət özünü yenidən yaratmalı, ardıcıl şəkildə dəyişdirməli, İdeala yaxınlaşdırmalıdır.

Yalnız özü ilə amansız döyüşən, özü üzərində yüksələn şəxs Ocaqçı adına layiq ola bilər!

Özü ilə Döyüş qurtaran yerdə Ocaqçılıq Ləyaqəti qurtarır.

**Adam** – Məxluqdan üstün, İnsandan aşağıdır. Məxluqdan fərqli olaraq, Adamda Ruhani Gözəlliyə, Yüksək Həyat Tərzinə meyl var. Ancaq həmin meyl güclü ehtiras səviyyəsinə qalxmır. Çünki Ali hisslərlə yanaşı, Adamın bulanıq daxili aləmində çirkin, cılız duyğular da yaşayır.

**Adam** – Vətəni sevir, ancaq Vətən yolunda Əzaba qatlaşmır, Ölümə getmir, çünki Vətənsevərliyi ömrün mənasına çevirməyib, güclü İradəyə malik deyil, Mənəviyyatını qorxu kabusu bürüyüb, yetkin mətanətli Şəxsiyyət deyil.

**Adam** – Müqəddəsliyi qiymətləndirə bilir, ancaq Müqəddəsliyə qovuşa bilmir. Çünki Ruhani Qüdrət sahibi deyil, xilqətində Böyüklük yoxdur.

**Adam** – Məhəbbətə, Sədaqətə biganə qalmaz, ancaq çətin anda Məhəbbətdən, Sədaqətdən qaçar. Çünki Məhəbbətlə yanaşı, daxilində Xudpəsəndlik də yaşayır.

**Adam** – Dostluğa can atar, lakin onun ağırlığını çiynində gəzdirə bilməz. Çünki çiyni zəifdir.

**Adam** – Əxlaqi Təmizliyi bəyənər, ancaq hərcayi ehtiraslarını cilovlamağa iradəsi çatmaz, Əxlaqsızlıq bataqlığına yuvarlanar.

**Adam** – ani Cəsarət göstərər, fəqət sonra Qorxu hissinin pəncəsində çabalayar, Qorxaqlığı İgidliyini üstələyər.

**Adam** – Qəhrəmanla, Fədakarla, Özündənkeçənlə bir neçə addım yol gedə bilər, ancaq yarı yoldan qayıdar.

**Adam** – əsil İdraka, Sənətə biganə qalmaz, ancaq süni və bəsit sənəti, İdrakı da sevər, onlara daha çox bağlanar.

**Adam** – Təmənnasızlığı qiymətləndirər, ancaq şəxsi həyatında ondan qaçar.

**Adam** – eybəcər mühitə lənətlər yağdırar, ancaq mühitlə təmasda özünü onun timsalı kimi aparar və son nəticədə mütiləşər, Üsyanından, Hiddətindən heç nə qalmaz.

**Adam** – Leyli axtarar, Məcnun olmaq istəməz, Böyüklük axtarar, Əzab istəməz, ölçülü yaşayar, ona görə də yaşamaz.

**Adamda** – müsbət keyfiyyətlər mənfi keyfiyyətlərlə qaynayıb qarışar, öz qüdrətini itirər.

Ocaqçı öz Mənəviyyatında, İdrakında, Həyat Tərzində Adam natamlığını, naqisliyini aradan qaldırıb, İnsan Kamilliyinə çatmalıdır.

**İnsan** – Müqəddəsliyə, Həqiqətə, Vətənpərvərliyə, Qəhrəmanlığa, Bəşərsevərliyə, İdeala, Məhəbbətə, Qədimliyə, Ruhani Ülviyyətə, Cəngavərlik Siqlətinə qəlbdən bağlanan, ömrünü Yüksək Arzulara həsr edən, Səadətini onda tapan Şəxsiyyətdir.

**Ocaqçının Məqsədi İnsan olmaqdır!**

Bunun üçün o, özüylə daim mübarizə etməlidir.

Ocaqçı Ürəyindən Qorxu duyğusunu silməlidir.

Ocaqçı Mənəviyyatından Paxıllığı qovmalıdır.

Ocaqçı Əxlaqından Heyvani Şəhvaniliyi murdar yük kimi atmalıdır.

Ocaqçı Bədxahlığı Daxili Aləminə qoymamalıdır.

Ocaqçı tənbəllik, fəalsızlıq eybəcərliyini məhv etməlidir.

İradəsizlik Ocaqçının qəddar düşmənidir.

Namus bəndini aşan ehtirası ürəyə qoymazlar.

Ocaqçı Mənəviyyatında Müxənnətliyə yer yoxdur.

Dilində Yalan gəzdirən Ocaqçı lənətə layiqdir.

Ocaqçının saxta Fərəhə ehtiyacı yoxdur. O, araq, şərab adlanan murdarlığı dilinə vurmur, mənəvi zəlillərin pənah gətirdiyi içki ehtirasını rədd edir.

Ocaqçı İdrakından lüzumsuz bilikləri atıb, dəyərli bilikləri saxlamalıdır.

Müqəddəslik duyğusunu Mənəviyyatının əsasına çevirməyən şəxsdən Ocaqçı olmaz.

**İnsan olmaq çətin peşədir!**

İnsan sözü əsil qiymətini itirib. Ocaqçı onun ləyaqətini bərpa etməlidir.

Özü ilə döyüşən Ocaqçı Ocaqdan güc alır. Ocağa müraciət edir.

**Ocaqçının Ocağa Səhər Müraciəti** belə olmalıdır:

“Ocağım, Ülvi Qüdrətini məndən əsirgəmə! Mənə kömək et!

Heç bir naqisin təsirinə düşməyim, pis hərəkətə yol verməyim, ürəyimdə çirkin duyğular oyanmasın.

Xeyirə xidmət edim.
Kamillik Yoluyla gedim.
Sənə layiq olum.
Kömək et mənə, Ocağım!”

**Ocaqçının Ocağa Günorta Müraciəti** belə olmalıdır:

“Səhərimi başa vurdum.
Saf Ürəklə, Təmiz Niyyətlə.
Sən istədiyin kimi.
Mənəviyyatıma çirk qonmadı.
Hərəkətlərimdə qəbahət olmadı.
Xeyirə qulluq göstərdim.
Şəri yaxına buraxmadım.
Kamillik Yolunda büdrəmədim, çünki səninləydim”.

**Ocaqçının Ocağa Axşam Müraciəti** belə olmalıdır:

“Ürəyimdə İşıq yandır, Ocağım, Qaranlıqlar çəkilsin!
İradəmə güc ver, daxilimdəki Çirkabları əritsin!
Saflığına bir addım da yaxınlaşdım.
Sabahıma apar məni!
Mənimlə ol!
Yoxuşlarda büdrəməyim!
And içirəm, Sabahım bu günümdən daha Kamil olacaq!”

Ocağından bir an da ayrılmayan Ocaqçının özü ilə döyüşdə qələbə çalacağına Ata İnamı böyükdür!

## İnsanilik

– Yenə də dövrdən, zəmanədən, sinfi mənsubiyyətdən təcrid olunmuş ümumi, əbədi, mütləq insan! Fəlsəfə onunla həmişəlik vidalaşmadımı, sübut etmədimi ki, insanı ictimai münasibətlərdən ayrı təsəvvür etmək olmaz?!

İnsan hansı bir mühitdəsə yetişir, hansı tarixi şəraitdəsə fəaliyyət göstərir, hansısa bir sinfi təmsil edir, onun konkret mövcudiyyəti var; o, fəhlədir, kapitalistdir, mülkədardır, kəndlidir – öz mənafeyini qoruyandır. İnsanlar əslində bir-birindən yerdən göyə qədər fərqlidir, bir-birini rədd edirlər, həyatda yaşamaq uğrunda amansız döyüş gedir. Siz isə ümumi insani cəhətlər, keyfiyyətlər axtarırsınız, dialektikanı, ictimai qanunları unudursunuz.

EHKAMÇI tez və qətiyyətlə danışırdı. Sözlər asanlıqla və ardıcıllıqla axırdı. **Gözlər işıqsız idi.**

– Hər ictimai quruluşun öz insanı var. Siz isə dəyişilməz insan arayırsınız, cəhdiniz əbəsdir, yanlışdır, zərərlidir.

HƏQİQƏTÇİ düşüncəsində, duyğularında Ehkamçıdan çox uzaqda idi. Ancaq onu dinləyirdi. Ehkamçının susduğunu görəndə o dilləndi:

– Sizin insan saydığınız varlıq – özünü itirmiş, yarımçıq, cansız, mexaniki insandır. O, əslində yaşamır, cəmiyyət tərəfindən müəyyən olunmuş vəzifəni, funksiyanı icra edir. Əgər insan kapitalistləşir, fəhlələşir, mülkədarlaşır, kəndliləşirsə, deməli, öz bütövlüyünü, tamlığını, insaniliyini itirir. **Sinifləşmək – özünü itirməkdir.**

Əgər insanın rolu sinfi münasibətlərlə məhdudlaşırsa, deməli, o, özünü həyatda dolğun, əsil insani şəkildə realizə edə bilmir, özündən ayrılır.

Özündən ayrılmış insanı əsil insan hesab etmək – onun müflisləşməsini əbədiləşdirmək deməkdir... Əslində cəmiyyət insanı bütöv varlıq kimi tanımır, icraçı kimi tanıyır. Ehkam isə iddia edir ki, insanın mahiyyətini onu tanımayan, dərindən dərk etməyən, onun hərtərəfli təzahürünə mane olan ictimai münasibətlərdə axtarmaq lazımdır.

İnsanı cılızlaşdırmağın, bəsitləşdirməyin, əşyalaşdırmağın elməbənzər nümunəsi!

Ehkam insanı bütünlükdə cəmiyyətin sərəncamına verir və cəmiyyət Allahlaşır, o, şəxsiyyəti yaradan, yaşadan, öldürən, dirildən, taleyini müəyyən edən ilahi qüdrətə çevrilir. **Ateistlər cəmiyyət adlanan yeni Allah yaradırlar və insanı onun bəndəsi edirlər.**

Əgər insan ictimai münasibətlərin məcmusudursa, deməli, cəmiyyət onu istədiyi şəklə sala bilər, istədiyi kimi yaşada bilər – Allah öz bəndəsini yaşatdığı kimi.

Əslində yalnız sinfi çərçivəyə sığmayan, öz daxili məzmunuyla mühitdən, tarixi şəraitdən kənara çıxan insanı əsil insan saymaq olar. Belə insan cəmiyyətdə itməz, mühitin oyuncağına çevrilməz, şəraitin arxasınca sürünməz, öz əvəzsizliyini, təkrarsızlığını, müstəqilliyini təsdiq edər.

İnsanın bütün canlılardan fərqi – özündə, dünyada, varlıqda – özündən, dünyadan, varlıqdan daha böyük məna tapmasındadır. İnsan üçün dünya heç vaxt təkcə görünən, ağılasığan, adi dünya olmayıb. İnsan üçün dünya həmişə təzahür edən, aşkara çıxan hadisələrdən qat-qat məzmunlu, ülvi, qeyri-adi varlıq olub.

İnsan dünyadan heç vaxt sadəcə istifadə etməyib, onun faydalı səciyyəsindən, maddi xeyirindən həmişə kənara çıxıb, ona sığmayıb. İnsan üçün Göy heç vaxt yalnız Göy, Yer heç vaxt yalnız Yer, çay yalnız çay, dağ yalnız dağ olmayıb. İnsan üçün onlar hamısı özlərindən, öz təzahürlərindən daha böyük olublar. İnsan təbiət üzərində hakimiyyətlə kifayətlənmədi. Bu, olsa-olsa onun fəaliyyətinin bir tərəfi idi və insani mahiyyət baxımından əsas tərəfi deyildi.

İnsaniliyin əsas mənası yerdə, göydə, dünyada, həyatda, bəşərdə zahirə, əlamətə, görünənə, ağıla sığmayan ülvi məna kəşf etməkdir.

İnsan dünyada dünyadan böyük məna görməsəydi, onun heyvandan fərqi olmazdı...

Dünyanın mənasını dünyadan yüksək saymaq, onu dünyadan kənarda axtarmaq insanı insan etdi. İnsan anladı ki, dünya insanı bəsləmək, yedirtmək üçün yaranmayıb, o, insanı heyran etmək,

vəcdə gətirmək üçün yaranıb. Beləliklə də insanın dünya ilə əsil insani münasibəti meydana gəldi.

Dünya insanı özünə, öz əsil mahiyyətinə qaytardı, qəlbini coşdurdu, düşüncəsini qanadlandırdı, idrak üfüqlərini sonsuzlaşdırdı.

**İnsanı insan eləyən ağıl yox, ruh oldu.**

Ağıl dünyanı ölçdü, biçdi, rəqiblərdən təmizlədi, öz niyyətinə uyğunlaşdırdı.

Ruh isə dünyaya sığmadı, dünyanın mənasını kəşf etdi.

Ağıl dünyanı özünə ram etdi, Ruh dünyaya qovuşdu.

Ruh – vəcdli zəka, narahat ehtiras, məhəbbət, ehtizaz oldu, ağıl – təhlil, fayda, mətləb.

Ruh insana dedi ki, onun öz mahiyyəti özündən alidir. İnsanın xilqətində sığmazlıq var.

İnsan həmişə özündən böyükdür. Onun daxili imkanlarıyla real imkanları arasında məsafə intəhasızdır. Ona görə də insan dünyada heç vaxt özü olmur, özünün cüzi hissəsi olur.

İnsan da dünya kimi özündən kənara çıxır, özünü özündən kənarda tapır.

Özündən kənara çıxmaq, özünə sığmamaq, özünü özündən kənarda tapmaq insanın başlıca əlamətidir. İnsanın yeni dünyası – insandan və dünyadan daha gözəl, daha geniş, daha kamil dünyası yaranır.

İnsan özünü həmin dünyanın tələbləri əsasında kamilləşdirməyə başlayır. Daxilindəki eybəcərliyi öldürür, qəlbi çirkabdan təmizləyir, ardıcıl, intizarla, həsrətlə Mütləqə qovuşmağa can atır. **Platonun** fəlsəfəsində **İdeyalar aləminə**, **Hegelin** təlimində **Mütləq Ruha** qovuşur; **İsanın, Məhəmmədin** dinində özünü **müqəddəs mövcudluğa** hazırlayır, Buddanın atəşin çağırışında **mənəvi kamilləşmə** ülviyyətinə yüksəlir.

Yeni, ideal, ruhani dünyanın yaranması insanla gerçəklik arasında münasiəti dəyişir.

İnsan anlayır ki, ən ali gerçəklik belə, dünyanın əsil mənasından aşağıdır. Deməli, gerçəkliyi heç vaxt mükəmməl varlıq saymaq olmaz. Deməli, gerçəkliyi yaxşılaşdırmaq, dəyişdirmək, kamilləşdirmək lazımdır.

Əgər ən qüdrətli insanın fəaliyyəti onun həmin fəaliyyətə sığmayan mənasından aşağıdırsa, deməli, insan özünü daim ideala, insani mənaya yüksəltməlidir. İnsan ona görə böyüdü, artdı ki, ikinci dünya – daha ali, daha gözəl, ideal, ruhani dünya yarada bildi.

Tarixin gedişatı da bunu sübut edir. Yan Qusların, Cordano Brunoların ruhunda ikinci dünya var idi. Onlar bu dünyanı gerçəkliklə müqayisə edirdilər və gerçəkliyə lənətlər yağdırırdılar, onu inkar edirdilər, əsil dünya naminə ölümə gedirdilər.

Musiqinin, şeirin mayasında ikinci dünya ideyası yaşayır. Musiqi qeyri-adi, sirli, sehirli, qəlbi titrədən, insanı Ali Həyata çağıran ehtirasların, duyğuların, düşüncələrin ifadəsidir. Musiqi insanı ruhun yaratdığı dünyaya qovuşdurur. Əsil şeirdə gerçəklik ikinci dünyanın təzahürü kimi qiymətləndirilir. Çay mahnı oxuyur, dəniz insanla danışır, sevgili – ilahiləşir, səma – insaniləşir.

İnsan idrakının ülvi məqsədi dünyanı sadəcə dərk etmək yox, dünya əsasında yeni, kamil, sonsuz, mütləq dünya yaratmaqdır.

Bir sözlə, insanın həqiqi insani tarixi – ruhun qüdrətiylə ikinci dünyanın yaranması, insanın özünə və dünyaya sığmaması, özündən və dünyadan kənara çıxmasından başlayır.

Ehkam isə insanı nəinki dünyaya, hətta sinfə, mühitə, tarixi şəraitə pərçimləyir və anlamır ki, bununla onun mahiyyətini inkar edir, dünyada yerini, mövqeyini hədsiz dərəcədə məhdudlaşdırır, kiçildir.

İnsanın mahiyyətini ruhani qüdrətdə axtarmaq lazımdır. Təbiidir ki, ruhanilik bir zəmanənin, əsrin, ictimai quruluşun məhsulu deyil, o, yaranan kimi yoxa çıxan hadisə də deyil. O, insanın ilkin, səciyyəvi, ölməz keyfiyyətidir.

– Bəs insanın azğınlığı, qəddarlığı, yırtıcılığı, harınlığı, qan hərisliyi, istismar, bərabərsizlik, ədalətsizlik? Bunların peyda olmasında insan təbiətinin rolu yoxdurmu? Sizin ruhani insanınız dəhşətli eybəcərlikləri öz daxili aləmində necə gəzdirmişdir?

– Siz yəqin elə bilirsiniz ki, bu dəlilinizlə mühakimələrimi alt-üst elədiniz? Əslində isə mənim dəyimanıma su tökürsünüz. İnsan yalnız ruhdan ibarət deyil, təəssüf ki, onun daxilində müxtəlif heyvani instinktlər, insanı kiçildən, sinifləşdirən ehtiraslar var.

Sinfi insan – əsil insan deyil, çünki onun sinifləşməsi natamlığın, naqisliyin ifadəsidir. İnsan o zaman mülkədarlaşır, hampalaşır ki, ruhun çağırışını eşitmir, vicdanı, ədaləti, insaniliyi unudur. Deməli, biz onun insaniliyini hampalığında yox, hampalığından kənarda, sizin təbirinizlə desək, mücərrəd insanda tapmalıyıq. İnsan sinifləşdikcə – mənən müflisləşir. İnsan ümumiləşdikcə, mücərrədləşdikcə, ruhaniləşdikcə – zənginləşir, böyüyür, bütövləşir. Sinfi insan olmaq – özündən ayrılmaqdır. "Ümumi" insan olmaq özünə qayıtmaqdır.

İnsan həyatda yalnız ruhani fəaliyyətlə məşğul olmur. Onun xilqətində qaranlıq duyğular da var. Ancaq ruhani qüdrət kimi o, özü üzərində yüksələ bilir. Yalnız ruhanilik insanı kiçik "mən"indən ayırıb böyük "Mən"inə qovuşdurur. Çünki yalnız ruhanilikdə insan bütöv, başqa canlılardan fərqli bir hadisə kimi təsdiq olunur.

– Belə çıxır ki, insanın əmək aləti yaratması onun başqa canlılardan əsas fərqi deyil?

– Bəli. Bu fərq formal fərqdir. Əmək alətlərinin hazırlanması insanın özünü qoruması, yaşayış uğrunda döyüşdə qələbə çalması üçündür. Burada məqsəd, niyyət, istiqamət baxımından digər canlılardan fərqlənmə yoxdur. Buradakı fərq özünümühafizənin forması baxımından əhəmiyyətlidir, insanın insani mahiyyəti baxımından yox dərəcəsindədir. Yalnız ruh insana heç bir canlıda müşahidə edilməyən keyfiyyət bəxş edir: dünyaya sığmamaq, ikinci dünya yaratmaq, dünyanın mənasını dünyadan kənarda tapmaq!

– Bəs ruh özü nədir?

– Ruh insanı adi vəziyyətindən ayırıb, qeyri-adi duyğulara, düşüncələrə, ehtiraslara yüksəldən mənəvi qüdrətdir. Ruh insanı balaca, dar, məhdud aləmdən böyük, geniş, möhtəşəm aləmə aparan daxili gücdür.

İnsan – onu əhatə edən mühitə heç vaxt sığmır, çünki ruhu var. Ruh – insanda həyatın naqisliyinə qarşı sonsuz nifrət və gözəlliyinə qarşı sonsuz heyrət yaradır.

**Gözəlliyi – ağıl yox, ruh kəşf edir.** Çünki gözəllikdə maddi, real keyfiyyətlərə sığmayan ideal keyfiyyətlər dərk olunur. Ruh

vasitəsilə insan məhəbbətə qovuşur, özünün özündən böyük mənasını anlayır.

Ruh – ehtizaz, vəcd, yanar, narahat, qeyri-adi zəka əsasında ağlın görmədiyi, dərk etmədiyi həqiqətlərə yüksəlir.

**Ali həqiqətlərin hamısını ruh kəşf edib.**

Ruh insanda başqa canlılardan fərqli ehtiraslar, meyllər yaradır: fədakarlıq, ülviyyət, müqəddəslik duyğusu!

İnsanın ruhu ölümlə barışmır, əbədiyyətə, ölməzliyə can atır. Ruh vasitəsiylə səs – musiqiləşir, söz – şeirləşir, daş – heykəlləşir.

İnsanın fəaliyyətini mənfəətlə bağlamaq barbarlıqdır. “Gözəl olan – lazımlı olandır” fikrində dəhşətli bir naşılıq var.

Həyatdakı gözəlliyin kəşf edilməsi və sənətdəki gözəlliyin yaranması faydalıq prinsipinin təsdiqi deyil! Belə olsaydı, gözəlliyin cazibədarlığı, sehri, möcüzəsi olmazdı! Gözəllik tələbatı – ruhani tələbatdır.

Ruh vasitəsilə insan nisbidə, natamda dayanmır, Mütləqə can atır, ona səcdə qılır.

Ruh insana kədərli həqiqəti söyləyir: insanın imkanları, arzuları, niyyətləri, duyğuları, düşüncələri ömrə sığmır. İnsan həyatda özünü tam realizə edə bilmir. Onun daxilində yaşayan min keyfiyyətin, min imkanın yalnız biri aşkara çıxır. İnsan qəbrə özüylə özünün sonsuz imkanlarını aparır.

Ruh onu da deyir ki, göz vasitəsiylə qavranılan bilik heçdir. Dünyanı gözlə düzgün görmək olmaz, ağılla isə dünyanı tənzim etmək olar. Dünyanı yalnız ruhun güzgüsündə görmək olar.

Ağıl vasitəsiylə sən başqasını öyrənirsən. Ruh vasitəsiylə sən onu özündə görürsən. Ruh vasitəsiylə sən zəmanədən, mühitdən kənara çıxırsan, pis adamların içində belə, yaxşı adam olaraq qalırsan.

Ruh vasitəsiylə təbiət insaniləşir, insan təbiətləşir.

Ruh vasitəsiylə sən insanda – varlını, yoxsulu, zadəganı, rəiyyəti yox, İnsanı görürsən.

Ruh vasitəsiylə sən “dəlicəsinə” yaşamaqdan – Məcnunlaşmaqdan, Babəkləşməkdən, Nəsimiləşməkdən çəkinmirsən.

Ruh vasitəsiylə sən dünyayla, təbiətlə, dünənlə, sabahla bir olursan. Ruh səndə hakimi olduğun təbiətə qarşı məhəbbət ehtirası yaradır.

Ruh səni ideala, Mütləqə çağırır və beləliklə də ən murdar şəraitdə belə, təmiz saxlayır.

Ruh insan qəlbini sözlə ifadəsi çətin olan incə, coşğun, ülvi hisslərlə, ehtiraslarla doldurur, təxəyyülün üfüqlərini sonsuzlaşdırır.

Ruh yıxılanı qaldırır, xəstəni sağaldır, qəmlini sevindirir, uzağı yaxınlaşdırır.

Bədən dözməyəndə – Ruh dözür, bədən məğlub olanda – ruh qalib gəlir.

Ruh möcüzəyə inanır, dünyanın mənasını möcüzə sayır və özü möcüzə yaradır.

Bir sözlə, **Ruh – insanın özüdür. İnsanı insan edən ruhdur.**

Ağıl vasitəsiylə insan özünü qorudu, xilas etdi, ölmədi, yaşadı. Ruh vasitəsiylə insan İnsan oldu, yəni hamıdan fərqləndi, dünyanın mənasını dünyadan böyük, insanın mahiyyətini insandan ali saydı.

Ruhsuz insan dünyanın adi bir zərrəsi olacaqdı. Ruhla insan dünyanın zirvəsi oldu.

– Sizin dedikləriniz fəlsəfə tarixində ruh haqqında bərqərar olmuş təsəvvürlərlə uyğun gəlmir.

– Düzdür, məsələn, Hegeldə ruh – fikrin, anlayışın sinonimidir. İrrasionalistlər – ruhu – zəkaya qarşı, həyat fəlsəfəsinin nümayəndələri isə həyata qarşı qoyurlar. Təbiidir ki, bu cür şərh olunan ruh insani mahiyyəti ifadə edə bilməz.

Ruh sadə fikir, anlayış deyil, zəkanın xüsusi səviyyəsi, vəcdli, heyrətli, ehtizazlı, Yerə-Göyə sığmayan məqamıdır.

Zəkadan kənarda ruh yoxdur. Ancaq ruh zəkanın adi vəziyyəti deyil, qeyri-adi vəziyyətidir. Ruhu zəkaya qarşı qoyanlar zəkanı ağılla eyniləşdirirlər. Ruhu zəkaya qarşı yox, soyuq, bəsit, qanadsız, nasiranə ağıla qarşı qoymaq lazımdır.

Ruh hardasa antiağıldır, onu eşitməyəndir, onun ziddinə gedəndir. Ancaq ruh zəkanın əleyhinə çıxış edən deyil.

Məcnunluq “ağılsızlıqdır”, ancaq zəkasızlıq deyil, əksinə yüksək zəkilikdir...

Zəka mahiyyətə enir, əlamətdə dayanmır, ona görə də dünyaya pərçimlənib qalmır, ondan kənara çıxır. Ancaq o, yalnız ruha çevriləndə öz niyyətinə nail olur, yəni dünyanı özündə görür.

Ruhun həyata zidd olması iddiasına gəldikdə, onu demək lazımdır ki, həyat həmişə ağıllı olmur, ancaq öz ruhaniliyini heç vaxt tam itirmir. Çünki **ağılsız dünyada insan tapılır, ancaq ruhsuz dünyada tapılmır.**

Həyatda məntiqsiz, mənasız, eybəcər hadisələr çoxdur. Lakin onlar heç vaxt tam ruhsuz dünya yaratmağa nail olmurlar. Çünki ruhsuz dünya ölü dünya olardı. Ona görə də ruh həyatın düşməni deyil – qanadıdır.

Ruh həyatı eybəcərlikdən qurtarır, onun insani məziyyətlərini qoruyur, ona ülvi məna verir. Bu baxımdan, ruhsuz dünya – eybəcərliyin tam təsdiqi olardı.

Ruhun həyat üzərində ağalığına gəldikdə, biz burada ruhu ağılla eyniləşdirməyin nümunəsiylə qarşılaşırıq. Ruhun mexaniki, cansız, gözəlliyə, müxtəlifliyə, həyatiliyə zidd olan keyfiyyəti yoxdur.

Ruha qarşı XIX əsrin axırında başlayan və XX əsrdə öz zirvə nöqtəsinə çatan mübarizə – əslində ağılın mənfi tərəflərinə qarşı, ruhsuzluğa qarşı mübarizədir.

– Sizin söylədikləriniz qatı, ardıcıl idealizmdir – deyə Ehkamçı dilləndi. O, bərk əsəbiləşmişdi, Həqiqətçinin sözünü neçə dəfə kəsmək istəmişdi, ancaq bacarmamışdı.

O, həm də heyrətlənmişdi, qulaqlarına inana bilmirdi. İndi eşitdikləri – illərlə oxuduğu, əzbərlədiyi, beyninə həkk elədiyi kitablara, məqalələrə uyğun gəlmirdi, həm də tədris vəsaitlərində, fəlsəfə lüğətlərində lənətlənən, tənqid olunan, rədd edilən fikirlərə bənzəyirdi. Bu səbəbdən də Ehkamçının ürəyini təlaş hissi bürümüşdü. O, bir an qulaqlarını pambıqla tıxamağa hazır idi. Ancaq qəlbinin dərinliyində deyilənlərə bir rəğbət də yaranmışdı ki, o, bu hissi qovmağa çalışırdı.

Bütün bunlar Ehkamçının əhvalına gərginlik gətirdi:

– Danışdığınızın hamısı idealizmin təkrarıdır.

Bu sözlər qeyri-təbii bir qətiyyətlə deyildi və Ehkamçının narahatlığını nisbətən azaltdı. Ona elə gəldi ki, ürəyində yaranmağa başlayan şübhəni dəf etdi.

– Əgər söhbət dünyanın dünyadan böyük mənasını dərk etməyə çalışan, Platon və Hegel kimi simalarla səciyyələnən fəlsəfi istiqamətdən gedirsə, o, insanın dünyaya əsil, insani münasibətini çox dərin və parlaq şəkildə nümayiş etdirir. Bu istiqamətdə ruhanilik özünü hərtərəfli büruzə verir, insanın başqa canlılardan fərqi bariz şəkildə aşkara çıxır. İdealizm deyir ki, sənin gördüyün, daxilində yaşadığın dünya qeyri-adi mahiyyətə malikdir, onun mənası təzahüründən alidir, ülvidir, genişdir, möhtəşəmdir. O, adi görünür, əslində isə əsrarəngizliyin təzahürüdür. O, keçici görünür, əslində isə sonsuzluğun ifadəsidir. O, natam, nöqsanlı, ölümə məhkum görünür, əslində isə kamilliyin, ölümsüzlüyün timsalıdır. Sonlu görünür, ancaq sonsuzdur. Sadə görünür, mürəkkəbdir. Bil ki, səni əhatə edən çəmən, çöl, Göy, Yer, gördüyün gecələr, üz, göz, ümumən bütün varlıq – daha böyük, daha ali ülviyyətin ifadəsidir. Ona görə də adini adi sayma, onun arxasında duran mənaya qovuş.

İdealizm – dünyaya ruhani münasibətdir. Materializm – dünyaya ağıllı münasibətdir.

Materializm üçün dünya göründüyündən artıq deyil! Ona görə də ona uyğunlaşmaq gərəkdir! Başqa dünya yoxdur, bu səbəbdən də ondan kənara çıxma! İdrak atının qantarğasını çək. O, sərhədi pozmasın! Ağac yalnız ağacdır, çay yalnız çaydır, insan yalnız insandır. Dünyanın mənası özündə olduğu üçün o, adi mənadır. Ağac meyvə gətirəndir, çay – axandır, torpaq məhsul verəndir. Dünyanın ikinci mənası və dünyada ikinci dünya yoxdur. Ona görə də dünyanı heç nəylə müqayisə etmə, onun idealını özündə axtar, tapmayanda kədərlənmə. Dünyadan istifadə etməyə çalış.

İdealizm insan idrakının məqsədini dünyanı sadəcə əks etdirməkdə görmür. O, dünyanın əsil mənasına layiq ikinci dünya yaratmağı idrakın ali məqsədi sayır. Dünyada hər şey ölümə məhkumdur, ancaq dünyanın böyük mənasında ölümsüzlük hökm

sürür. Deməli, idrak ölümsüz gözəllik yaratmalıdır və yaradır. Sənət ölümə məhkum olanları ölümsüzləşdirir.

Dünyada mütləq cismani və ruhani kamillik yox dərəcəsindədir. Həyatdakı ən kamil varlıq belə nöqsanlıdır. Deməli, idrak tam, nöqsansız, mütləq kamillik yaratmalıdır və yaradır.

İdealizmdə idrak – ruhani rol oynayır, materializmdə – praqmatik, faydalı, mənfəətli.

İnsan idrakının bənzərsizliyi idealizmdə parlaq şəkildə nümayiş etdirilir.

İdealizmin nöqsanı ondadır ki, o, dünyanın ali mənasını dünyadan qabaq yaranan qüdrət sayır. Belə çıxır ki, əvvəl dünyanın ali mənası yaranıb, sonra isə onun təzahürü kimi dünya özü.

Əslində vəziyyət belə deyil; dünyanın mənası dünyanın özündə yaranıb, ancaq dünyaya sığmayıb, dünyadan kənara çıxıb.

Materializm dünyanı dünyayla məhdudlaşdırır, idealizm dünyanı dünyadan kənara çıxarır, ancaq dünyanın mənasını dünyadan ayırır, onu dünyanı yaradan qüdrət hesab edir. **Bu, idealizmin ciddi qüsurudur**.

Əslində isə dünya özünə sığmır, özündən kənara çıxır, ancaq onun özündən kənara çıxan mənası dünyanı yaratmır. Əksinə, dünyadan doğur.

**Həm materializm, həm də idealizm nöqsanlıdır**. Ancaq idealizmin heyrətli, qanadlı, narahat ruhani qüdrəti yanında materializm çox sönükdür!

İdealizmdə dünya dərk olunduqca böyüyür, yüksəlir, genişlənir, ülviləşir. Materializmdə dünya dərk olunduqca – kiçilir, adiləşir, daralır. Son nəticədə, **materializm – dünyanı bəsitləşdirir, idealizm isə dünyanı müqəddəsləşdirir**.

Ehkamçı nəsə demək istədi, ancaq demədi. Materiyanın tərifini yada saldı, idealizmin mürtəce mahiyyəti haqqında oxuduqlarını xatırladı, amma nədənsə Həqiqətçinin əleyhinə tutarlı dəlil tapa bilmədi, ürəyində həm danışana, həm də özünə şiddətli hiddət yarandı və o, sərt bir ahənglə:

– Müqəddəslik dini cəfəngiyyatdır, – dedi. – Bəşəriyyət onunla əbədilik vidalaşdı.

– Bəşəriyyət Müqəddəsliklə vidalaşsaydı, özüylə vidalaşardı. İnsan heyvandan fərqli olaraq, dünyada, təbiətdə, insanda müqəddəs, yəni misilsiz dərəcədə yüksək, ali, qiymətli mənəvi sərvətlər görür. Torpaq insan üçün sadəcə təbiətin bir hissəsi deyil, pərəstişə, səcdəyə layiq olan bir qüdrətdir. Çünki onun ülvi mənası təbii xüsusiyyətlərindən, xassələrindən çox qiymətlidir.

Göy müqəddəsdir. Çünki o, insanın ruhani həyatında öz təbii keyfiyyətlərindən daha böyük rol oynayır. Sevdiyin şəxs müqəddəsdir, çünki onda adi məziyyətlərdən kənara çıxan ləyaqətlər kəşf etmisən.

Bir sözlə, müqəddəslik – dünyanın və insanın özünə sığmayan mahiyyətinin insan tərəfindən qiymətləndirilməsidir.

Dünya, Insan, Yer, Göy müqəddəsdir deyəndə, insan: – onlar mənim üçün sonsuz əhəmiyyətə malikdir, onlarsız mənim həyatım heçdir, onlara səcdə, pərəstiş etmək gərəkdir – deyir.

Beləliklə də, müqəddəslikdə – dünyaya sığmayan məna insana qayıdır və insan dünyaya həmin mənanın gözüylə baxır. Bu baxımdan ideallaşdırma, ilahiləşdirmə adlandırılan keyfiyyət əslində, ruhani dərketmədən başqa bir şey deyil. Mən kimisə, nəyisə ilahiləşdirirəm, deməli, kimdəsə, nədəsə göründüyündən, hiss olunduğundan daha böyük məziyyət kəşf edirəm. İnsanın heyvandan əsas fərqi elə bundan ibarətdir. İlahiləşdirməyən, ideallaşdırmayan idrak – əsil insani idrakın zəif kölgəsidir.

İnsan – dünyanı və insanı müqəddəsləşdirmədən yaşaya bilməz.

– Onda Allah ideyasına da bəraət qazandırmaq olar? – deyə Ehkamçı çılğınlıqla dilləndi.

– Özünü özündən və dünyanı dünyadan böyük görən insan Mütləqə can atır və onu Allah adlandırır. Allah mütləq qüdrətə malikdir – dünyanı və insanı yaradandır, ədalətli, möhtəşəm, ali varlıqdır. **Allah vasitəsiylə insan özünün realizə edilməmiş imkanlarını təsdiq edir.**

Allah arzuolunanın, istənilənin, Mütləqin təzahürüdür. Allah sonlu, keçici, natam, nisbi hadisələrin, keyfiyyətlərin, ideallarin üzərində yüksələn Mütləqdir. O, kamilliyin, qeyri-adiliyin, əbədiliyin ülvi təcəssümüdür.

Allaha münasibətdə insanın qarşısıalınmaz daxili tələbi aşkara çıxır; nisbidə, natamda, keçicidə, adidə dayanmamaq, sonsuza, əbədiyə, Mütləqə qovuşmaq.

**Heyvanın Allahı yoxdur.**

İnsan həyatda tam mənəvi və cismani qüdrətə malik olmur. Ancaq onda mütləq kamilliyə sonsuz ehtiras var. Həmin realizə edilməmiş ehtiras Allah ideyasında reallaşır. İnsan həyatda ən yaxşı halda nisbi ədalət görür. Ona görə də mütləq ədalət həsrətini Allahda təcəssüm etdirir.

Ətrafda yalnız nisbi məziyyətlər görən, ancaq onlarla kifayətlənməyən insan – arzularını Allahda həyata keçirir. O, Allahda özünün ali mahiyyətini tapır və bu mahiyyətə pərəstiş edir. Bu baxımdan, **Allahsız İnsan yoxdur və ola da bilməz!** Çünki Mütləqsiz yaşamaq müşküldür! Təbiidir ki, Yeri-Göyü yaradan, insanı törədən, kainatı idarə edən Allah yoxdur! Bunu indi uşaq da bilir.

Ancaq Allah ideyası insanın ən ilkin, ən dərin, əbədi ruhani tələbindən doğub. Allahı izah etmək – əslində insanı izah etmək deməkdir. Yeri-Göyü yaradan Allahdan əl çəkmək asandır. Ancaq Mütləqin rəmzi olan Allahdan insan heç vaxt əl çəkməyib. Hətta əl çəkdiyinə inananda belə. Çünki həmişə Mütləqə can atıb. Göydəki Allahı yerdə axtarıb, sərkərdələri, hökmdarları, şöhrətliləri, səlahiyyətliləri Allahlaşdırıb. Bu səbəbdən də Allah sözündən, Allah anlayışının ifrat tərəflərindən əl çəkmək olar, amma Allah tələbindən əl çəkmək olmaz. **Mütləqə tələb qurtaran yerdə insanilik də qurtarır.**

– Onda bəlkə dini də dirildəsiniz?

– Din müqəddəsliyin təsdiqidir, ancaq əfsanəvi, nağılvari, allegorik, məcazi təsdiqidir. Dində o dünya, bu dünya ideyası, xurafat, şeytan, cin, çoxçeşidli aldanışlar, dumanlı, xülyavari təsəvvürlər çoxdur. Bu baxımdan – din ehtizazı, Mütləqə qovuşma ehtirasını yanlış istiqamətləndirir. Ona görə din – bir forma kimi ali məzmuna təzyiq göstərir, onun təzahürünə mane olur. Bu səbəbdən də dinə qayıtmaq lazım deyil.

Ancaq din tərəfindən təsdiq, vəsf və təbliğ edilən müqəddəslik ideyasına, Allah ideyasının ülvi mənasına, həmin mənanın

yaratdığı vəcdə, heyrətə, səcdə ülviyyətinə qayıtmaq mütləq lazımdır. İnsanlar özlərini özlərindən böyük görəndə özlərinə qayıdacaqlar.

Bunun üçün Allahı öldürmək yox, insaniləşdirmək lazımdır.

– Bu cahanşümul vəzifəni necə yerinə yetirəcəksiniz? – deyə Ehkamçı istehza və hiddətlə soruşdu.

– Bu zəruri ideal – Mənəvi İntibah fəlsəfəsinin qüdrətiylə həyata keçiriləcək. Fəlsəfə müdrikliyə sevgi deməkdir. Ən böyük müdriklik insan ilə dünyanın münasibətini izah etməkdir. Fəlsəfənin əsas məqsədi insan ilə dünyanın əlaqəsini kəşf etməkdir. “İnsan dünyada kimdir, dünya insan üçün nədir?” Fəlsəfənin birinci sualı budur. “İnsanın Mütləqə, ideala münasibəti necədir?” Fəlsəfənin ikinci sualı budur. “İnsanı ideala yaxınlaşdırmaq üçün nə etmək gərəkdir?” Bu üçüncü sualda fəlsəfənin peyğəmbərlik siqləti aşkara çıxır. “İnsanın cəmiyyətdə yeri, vəziyyəti, taleyi necədir?” Bu, fəlsəfənin dördüncü sualıdır. “İnsanın öz əsilliyinə qayıtması üçün nə lazımdır?” Bu, fəlsəfənin beşinci sualıdır.

Bir sözlə, fəlsəfə insan aqibətini şərh, təhlil və təyin edən müdriklikdir.

Bu baxımdan, fəlsəfənin zəngin imkanları çox sönük realizə olunub. Fəlsəfəni cəmiyyət haqqında elm səviyyəsinə endiriblər, bu, fəlsəfənin ölümü deməkdir. Fəlsəfəni idealizmin ruhani qüdsiyyətindən, idraki ülviyyətindən məhrum ediblər – qadirsizləşdiriblər. Fəlsəfəni dinin alleqorik şəkildə ifadə etdiyi müqəddəs əxlaqi ideyalardan, sonsuzluq, əbədilik, mütləq kamillik, müqəddəslik ehtiyacından təcrid ediblər – müflisləşdiriblər.

Fəlsəfənin peyğəmbərlik siqlətini – İnsanın mənəviyyatında İntibah yaratmaq qüdrətini məhv ediblər.

Bir zamanlar fəlsəfə insanı ardıcıl şəkildə İdeala yaxınlaşdırırdı. İndi insan cəmiyyətin öhdəsindədir. Ona görə də özünə bənzəmir.

Fəlsəfənin bədiiyyatla, hissiyyatla, ehtizazla əlaqələrini ləğv ediblər, onu elmin kölgəsinə çeviriblər, onun misilsiz idraki-emosional təsirini yox ediblər.

Fəlsəfə – şeiriyyətli, musiqili, vəcdli, əlvan biçimli bir möcüzə idi. İndi o möcüzədən əsər-əlamət qalmayıb. Fəlsəfəni

siyasətin xidmətçisinə, özü də kölə, qorxaq, məzlum xidmətçisinə çevirdilər: onun məqsədini – siyasətə bəraət qazandırmaqda, onu hər vəchlə müdafiə etməkdə, təbliğ etməkdə gördülər. Beləliklə də fəlsəfənin və idrakın əsas cəhəti: yeni dünya yaratmaq və gerçək dünyaya tənqidi münasibət bəsləmək qabiliyyəti – aradan qaldırıldı. Fəlsəfi məzmun hədsiz dərəcədə bəsitləşdi: fəlsəfə tarixi haqqında söhbət – idealizmlə materializmin mübarizəsiylə, dünya haqqında söhbət – şüurun, yaxud materiyanın birinci olmasıyla, dialektika – üç qanunun və bir neçə kateqoriyanın şərhiylə, cəmiyyət problemi istehsal münasibətlərilə, idrak nəzəriyyəsi – inikasla məhdudlaşdı. Məzmun kasadlığı – fəlsəfəyə sırf sosioloji, tarixi, publisist, siyasi məlumatların dolmasıyla – "aradan qaldırıldı" və fəlsəfə görünməmiş dərəcədə bayağılaşdı.

İnsanilik haqqında idrak olan fəlsəfə təbiət elmlərinin heç kəsə lazım olmayan metodologiyası səviyyəsinə endi və gərəksizləşdi.

Bir sözlə, fəlsəfə fəlsəfəliyindən ayrıldı, özünün tam əksinə çevrildi. İndi məqsəd fəlsəfəni özünə qaytarmaqdır. **Dövrün yeni fəlsəfəsi** – fəlsəfə tarixinin yetirdiyi yüksək ideyaların ölməz mənasını özündə cəmləşdirən, onlara yüksək idraki səviyyədə qayıdan, onların əsasında ucalan fəlsəfə olacaqdır.

Keçmiş fəlsəfələrin çoxu biri digərini inkar etməkdə inkişaf nöqtəsi arayırdılar. Bizim fəlsəfəmiz isə – özündən əvvəlki fəlsəfi fikirdə gözəl, ali, ülvi nə varsa, özündə təcəssüm etdirəcək, ancaq onların heç birinə bənzəməyəcək, tam yeni fəlsəfə olacaq!

Zərdüştdən Platona, Platondan bu günə qədər olan idraki, mənəvi fikir, ideya, hissiyyat, ehtizaz fəlsəfəmizin qəlbində döyünəcək, ancaq qəlb özümüzün, bu günün, XX əsrin, **mənəvi İntibahın, Şərqə üz çevirən bəşərin** olacaq!

Fəlsəfə tarixi heyrətamiz idrak xəzinəsidir. Lakin onda insan demək olar ki, heç vaxt tam müstəqil varlıq kimi qiymətləndirilməyib. Zərdüştdə insanın taleyini Hürmüzd, Buddada İnsanın özündən təcrid olunması, Platonda ideyalar aləmi, İsada fədakar, özündən keçən Allah oğlu, Məhəmməddə – Allahın özü, Hegeldə mütləq ruh, Marksda – iqtisadi münasibətlər, Freyddə – şəhvani ehtiras həll edir. Yalnız Mənsur Həllacla başlayan və Nəimi –

Nəsimi zirvəsiylə tamamlanan Hürufilikdə İnsan – Müstəqildir, Alidir. Allahın özüdür... Ancaq burada onun müstəqilliyi Allaha qovuşmaqla bağlıdır. Yəni insan yalnız Allaha qovuşanda, Allaha çevriləndə Allah (müstəqil) olur. ("Mən Onu sevdim və O oldum". Mənsur Həllac).

Biz öz fəlsəfəmizdə insanı tam müstəqil, ali varlıq kimi tədqiq edirik, insaniliyin özünəməxsus, heç bir qüvvədən asılı olmayan mahiyyətini təsdiq edirik. **Bu mahiyyətin əsası – ruhdur, müqəddəslikdir, Allah ideyasıdır, sığmazlıqdır**. Onlar İnsanın dünyayla, təbiətlə, cəmiyyətlə, özüylə, İdealla, Mütləqlə və Ölümlə görüşlərində aşkara çıxır.

..HƏQİQƏTÇİ sözünü qurtardı. Ancaq EHKAMÇINI yerində görmədi. O, qeyb olmuşdu.

## İnsani dünya

**İnsani dünya – insaniləşən dünyadır.**

İnsanla təmasda olan dünya insani məna kəsb edən dünyadır.

**İnsani dünyada – dünya insaniləşir, insan dünyalaşır.**

İnsandan kənardakı aləm – insani münasibətlər dairəsində – yeni məzmun qazanır.

**İnsaniləşən dünya – təzələşən dünya olur.**

**Burada maddiyyat ruhaniləşir.**

**Təbiət yenidən qiymətləndirilir.**

**İnsan təbiətdə maddiyyatdan artıq, böyük, yüksək olanı görür.**

Təbiət Mütləq Mənanın ifadəsinə çevrilir; gözəllik, ülvilik, müqəddəslik keyfiyyətləri yaranır.

İnsaniləşən təbiət əvvəlki səviyyəsini ötür, yeni səviyyə əldə edir.

İnsan maddiyyatı maddiyyatdan yüksəyə qaldırır, ona yeni məna gətirir.

**İnsani məna – ruhani mənadır.**

**İnsan ruhani varlıqdır və bu baxımdan maddiyyatdan yüksəkdir, ruhani qanunlar əsasında yaşayandır.**

İnsan həm də cismanidir və bu səbəbdən maddi qanunlara

riayət edəndir.

Ancaq maddi qanunların insan həyatında oynadığı rol mütləq deyil, **çünki insanilik əslində ruhaniliyə bərabərdir, maddiyyatdan yüksəyə qalxmaq – insaniliyin meyarıdır.**

**Yalnız ruhani mövcudluq – insani mövcudluqdur.**

Cismanilik insanla başqa canlıların ümumiliyini təsdiq edir, ancaq həmin ümumilik insanilikdən uzaqdır, çünki insanilik insanın həmin ümumilik üzərində yüksəlməsindən başlayır.

İnsani mövcudluq əslində insanın ruhani qanunlar əsasında yaşaması deməkdir.

Bu səbəbdən də insanı maddiyyat qanunları əsasında dərk etmək – onu inkar etməkdir.

**Dünyanın insaniləşməsi – dünyanın ruhaniləşməsidir.**

Lakin bu ilkin və əbədi təmayül həyatda öz Mütləq ifadəsini tapmır.

İnsan dünyaya, təbiətə yalnız ruhanilik baxımından yanaşmır, həm də faydalıq, mənimsəmə baxımından yanaşır. Burada insanın dünyaya, təbiətə münasibətinin ziddiyyətli xüsusiyyəti meydana çıxır.

Mahiyyətə bərabər olmağa çalışan, ruhani varlıq olan insan dünyaya Mütləq mənada insani münasibət bəsləməyə can atır. Ancaq gerçəklikdə öz Mahiyyətini tam təsdiq edə bilməyən insan maddiyyata tam ruhani münasibət bəsləyə bilmir.

Həmin ziddiyyət cismaniliklə ruhaniliyin ziddiyyətindən doğur və insan həyatına mürəkkəb bir gərginlik gətirir.

Öz Mahiyyətinə görə İnsan dünyanı Mütləq mənada insaniləşdirməliydi, ancaq gerçəklikdə o, dünyanı həm də mənimsəyir.

İnsaniləşdirmə – insaniliyin ifadəsidir, mənimsəmə isə ümumən canlılara xas olan cəhətdir.

**Bu səbəbdən də İnsani dünya – insaniləşən dünya olur.**

**Bu o deməkdir ki, insani mövcudluq – insandan kənardakı dünyanın insani dünyaya çevrilməsidir, insanla dünya arasındakı yadlığın aradan qaldırılmasıdır, insanla dünyanın biri-birinə qovuşmasıdır, dünyayla insan arasında birliyin yaranmasıdır.**

İnsan kimi mövcud olmaq – dünyanı Özümləşdirməkdir.

Ancaq **özümləşdirmək** üçün ən əvvəl **özümləşmək**, yəni

müstəqilləşmək, özünü təsdiq etmək, əsarətdən xilas olmaq gərəkdir.

Yalnız Özümləşən Özümləşdirməyə qadirdir.

Dünyanı özümləşdirmək üçün onun əsarətindən xilas olmaq gərəkdir.

**Fərqlənməyən birləşməz!**

Buna görə də insan onu kölələşdirən, maddiləşdirən, əşyalaşdıran nə varsa, hamısından azad olmalıdır.

Özümləşmədə İnsan özünü təsdiq edir.

**Özümləşdirmədə İnsan dünyanı təsdiq edir.**

**Dünyalaşmada İnsan həm özünü, həm də dünyanı təsdiq edir.**

Özümləşmə balaca «Mən»in ölümü və böyük «Mən»in doğulmasıdır.

Balaca «Mən» İnsanı mahiyyətindən ayırır, böyük «Mən» onu mahiyyətə qaytarır.

Özümləşən özümləşdirmək qüdrəti əldə edir.

**Özümləşdirən dünyalaşır, özünü özündən böyükdə tapır, başqalaşır.**

**Özümləşən İnsan dünyanı özümləşdirir və özünü dünyalaşdırır.**

## Şəxsiyyət

Şəxsiyyət cəmiyyətdə doğulur, yaşayır.

Ancaq o, cəmiyyətdən artıqdır, yüksəkdir!

Çünki ictimai vəziyyətindən, gerçək "Mən"indən artıqdır, yüksəkdir!

Çünki Mütləq Mahiyyətlidir!

**Gerçəklikdə – zahirdə – naqis inamlıdır, nisbi inamlıdır; imkanda – daxildə – naqis inamdan, nisbi inamdan artıqdır.**

**Gerçəklikdə – zahirdə – naqis idraklıdır; nisbi idraklıdır; imkanda – daxildə – naqis idrakdan, nisbi idrakdan artıqdır.**

**Gerçəklikdə – zahirdə – naqis mənəviyyatlıdır; nisbi mənəviyyatlıdır; imkanda – daxildə – naqis mənəviyyatdan, nisbi mənəviyyatdan artıqdır.**

**Gerçəklikdə – zahirdə – naqis iradəlidir, nisbi iradəlidir; imkanda – daxildə naqis iradədən, nisbi iradədən artıqdır.**

**Cəmiyyətdədir, həm də cəmiyyətdən yüksəkdədir!**
Bugündədir, həm də Sabahlıdır!
Yalnız Mütləqlə kifayətlənəndir!
Yalnız Mütləqdə özünə bərabər olandır!
Yalnız Mütləq İnamda özünə bərabər olandır!
Yalnız Mütləq İdrakda özünə bərabər olandır!
Yalnız Mütləq Mənəviyyatda özünə bərabər olandır!
Yalnız Mütləq İradədə özünə bərabər olandır!
Yalnız əsil Dövlətdə özünə bərabər olandır!
Yalnız əsil Cəmiyyətdə özünə bərabər olandır!
Naqis İnamdan ayrılandır!
Naqis İdrakdan ayrılandır!
Naqis Mənəviyyatdan ayrılandır!
Naqis İradədən ayrılandır!
Naqis Dövlətdən ayrılandır!
Naqis Cəmiyyətdən ayrılandır!
İctimai münasibətlərin hamısından artıqdır!
İctimai təbəqələrin hamısından artıqdır!
İctimai quruluşların hamısından artıqdır!
**Mütləqə çatmalıdır, Mütləq olmalıdır!**

## İnsan olmaq

Məqsəd odur ki, cəmiyyət özünə bərabər olsun!
Bunun üçün İnsan özünə bərabər olmalıdır.
Məqsəd odur ki, xalq özünə bərabər olsun!
Bunun üçün İnsan özünə bərabər olmalıdır!
Məqsəd odur ki, Dövlət özünə bərabər olsun!
Bunun üçün İnsan özünə bərabər olmalıdır!
Məqsəd odur ki, Şəxsiyyət özünə bərabər olsun!
Bunun üçün İnsan özünə bərabər olmalıdır!
**İctimai məsələlərin əslində bir həlli var: İnsan olmaq!**

## Fədailik

Əzabım – ən böyük Sevincim.
Məğlubiyyətim – ən böyük Qələbəm.
Ölümüm – ən böyük Həyatım.

**İnam**

Dünyanı yaradan Allaha inanmadım!
Həyatı yaradan Allaha inanmadım!
İnsanı yaradan Allaha inanmadım!
Dünyada yaşayan Mütləqə inandım!
Həyatda yaşayan Mütləqə inandım!
İnsanda yaşayan Mütləqə inandım!

**Etiraf**

Nisbini sevmədim – Mütləqi sevdim.
Həyatı sevmədim – Amalı sevdim.
Bugünü sevmədim – Sabahı sevdim.

**Müdriklik**

Təzahürə uymadım – Mahiyyətə vuruldum.
Mahiyyətə qovuşdum. Mahiyyət oldum.

# MÜSTƏQİL VƏTƏN

## Xalq

Xalq ruhani xilqət olduğundan kamildir, əbədidir, sonsuzdur. Bu səbəbdən də o, fərdlərin adi cəmi deyil, yalnız məkan birliyinə əsaslanan birlik deyil, keçici hadisə deyil. Bu səbəbdən də xalq həyatı hadisəsi var.

Xalq mənəviyyatı hadisəsi var.

Xalq idealı hadisəsi var.

Xalq ölməzliyi hadisəsi var.

Xalq həyatı – ruhaniliyi, Mütləqi ifadə edən həyatdır.

İnsanların daxili dünyasında Mütləq ideyası yarananda xalq yaranır. Həmin ideya xəlqi birliyi təsdiq edir.

Birlik cismani, bəsit, maddi keyfiyyət kimi yox, müqəddəs, əbədi, əvəzsiz keyfiyyət kimi təzahür edir. Maddi birlik əsasında xalq yox, insan cəmi peyda olur. Çünki burada həmin cəmi müqəddəsləşdirən ruhanilik yoxdur.

Birlik maddi faydalığa əsaslananda xalq yaranmır.

Birlik – müqəddəsliyi, ruhaniliyi ifadə edəndə, insanların mənəvi aləmində yaşayan Mütləqə can atmaq duyğusunu aşkara

çıxaranda, fərdlər arasında ülvi əlaqələr bərqərar olanda – xalq yaranır.

Bir sözlə, birlik insanın əlamətini yox, mahiyyətini, ölümlüyünü yox, ölümsüzlüyünü, keçiciliyini yox, əbədiliyini təsdiq edəndə – xalq yaranır.

Həmin varlıqda fərdlərə xas olan ruhani məna hərtərəfli və parlaq şəkildə aşkara çıxır.

Xəlqi birlikdə insanlar sadəcə bir yerdə yaşamırlar, **bir tərzdə** yaşayırlar. Bir tərzdə yaşamaq o zaman zəruri olur ki, o, insanların dərin ruhani tələblərini ödəsin.

Bir sözlə, xalq həyatı Mütləqi təsdiq edən birlikdir. Bu səbəbdən də o, müqəddəsdir, yəni qeyri-adi dərəcədə qiymətli, xeyirli, zəruridir. Bu səbəbdən də o, özündə ölümsüzlüyü, kamilliyi və sonsuzluğu yaşadır. Bu səbəbdən də burada maddiyyat ruhaniləşir.

**Xalq mənəviyyatı Mütləqin tələbinə uyğun özünü kamilləşdirmə ehtiyacının təzahürüdür**.

Mənəviyyatlı xalq – qeyrətli xalqdır, qorxu duyğusu üzərində qələbə çalmış xalqdır. Həm də qeyrəti həyati imperativə çevirən xalqdır. Nəticə etibarı ilə Mütləqə yanaşan, mütləqlə yaşayan xalqdır.

Mənəviyyatlı xalq – ümumini təsdiq edən, fərdi ümumiyə tabe edən, nisbini Mütləqə tapşıran və bununla da Mütləqi təsdiq edən xalqdır. Müstəqilliyini hifz etmək – əslində Mütləqiliyi hifz etməkdir. Çünki müstəqillik Mütləqiliyin ifadəsidir. Mənəviyyatlı xalq – azadlıqsevər xalqdır. Azadlığı sevmək – Mütləqi sevməkdir, çünki azadlıq Mütləqin ifadəsidir. Çünki əslində yalnız ruhani olan azaddır. Sonlu, keçici, ölümlü – qeyri-azaddır. Azadlığı sevmək – xəlqi birliyin ruhani mahiyyətini sevməkdir.

Mənəviyyatlı xalq – tarixi, qədimliyi sevən xalqdır. Qədimliyi sevmək – əbədiliyi sevməkdir. Əbədiliyi sevmək – ruhaniliyi təsdiq etməkdir.

Mənəviyyatlı xalq – insansevər, xeyirsevər, gözəlliksevər xalqdır.

Xeyiri sevmək – Mütləqi sevməkdir.

İnsanı sevmək – Mütləqi sevməkdir.

Gözəlliyi sevmək – Mütləqi sevməkdir.

Şərə nifrət bəsləmək – Mütləqi sevməkdir.

Eybəcərliyi rədd etmək – Mütləqi sevməkdir.

Mənəviyyatlı olmaq – Mütləqi sevməkdir.

Xalq idealı - xeyirin və ədalətin xalq həyatının mənasına çevrilməsidir.

Bu baxımdan, xalq ideal vasitəsiylə Mütləqə yüksəlir, idealı təsdiq etməklə yaşayan Mütləqlə vəhdət ehtirasını təsdiq etmiş olur.

Nisbi xeyir – xeyir deyil, nisbi ədalət – ədalət deyil. Mütləqilik – xeyirin, ədalətin əsas xüsusiyyətidir.

Bu baxımdan, idealda xalq Mütləqi təsdiq edir.

O, həm də bəşərin mütləq mahiyyətini ifadə edir.

Xalqın ideal saydığı, can atdığı Xeyir sonsuzdur, əbədidir, kamildir. Bu səbəbdən də onu həyata keçirməyə can atan xalq öz gerçək imkanlarından kənara çıxır, bir vəziyyətdə dayanmır, artır, böyüyür, müqəddəsləşir, Mütləqə yaxınlaşmağa səy edir.

Ədalət əbədidir, sonsuzdur, kamildir, nöqsansızdır, bu cəhətdən onu həyata keçirməyə çalışan, ona can atan xalq özündə qalmır, Mütləqə yüksəlməyə can atır. Xeyiri, ədaləti həyatını mənasına çevirməklə, xalq ölməzlik qazanır.

Xalq ölmür, çünki həyatını ölməzliyə həsr edir. Xeyir, ədalət ölməz olduğundan, onlara həsr olunan həyat da ölməzdir.

Bu nöqteyi-nəzərdən, xalq həm də bəşəriyyətin ifadəsidir. Xalqdan və xalqlardan kənar bəşər yoxdur. Bəşərdə ali, yüksək, böyük, möhtəşəm nə varsa, xalqda aşkara çıxır.

Bəşər adlanan **toxum** özünü xalq adlanan **bitkidə** təsdiq edir. Bitki yoxdursa, deməli, toxum ölüb.

Xalqlardan təcrid olunmuş bəşər – ölü toxumdur. Bəşəriyyətin salamatlığı xalqın salamatlığıdır.

**Xalqsız bəşəriyyət – ölü bəşəriyyətdir.**

“Xeyiri, ədaləti bəşəriyyət bir cür, konkret xalq isə başqa cür ifadə edir” – fikrində ciddi yanlışlıq var. Əslində bəşər Mütləq sərvətləri yalnız və yalnız xalq vasitəsilə təsdiq edir. Bəşər öz idraki qabiliyyətini xalqlar arasında hissə-hissə paylamır, o, xalqda öz keyfiyyətlərini bütöv şəkildə büruzə verir. Bu cəhətdən, xalq ilə bəşər arasında elə bir fərq yoxdur. Xalq elə bəşərdir, Bəşər elə xalqdır. Buna görə də xalq idealı həm də bəşər idealıdır. Hər ikisində ruhanilik təsdiq olunur. Xalq idrakı həqiqəti dərk etməyə can atır, həqiqət – Mütləq səciyyəlidir.

Nisbi həqiqət – həqiqət deyil.

Qeyri-kamil həqiqət – həqiqət deyil.

Sonlu həqiqət – həqiqət deyil.

Xalq həqiqəti dərk etməyə can atmaqla ölümsüzlüyə, sonsuzluğa, kamilliyə can atır, ölümlülük, sonluluq, qeyri-kamilliklə barışmır, özünün gerçək vəziyyətindən kənara çıxır.

Mütləqi nisbi qabiliyyətlə dərk etmək olmaz. Bu səbəbdən xalq öz idraki fəaliyyətini təkmilləşdirməli olur. Mütləqi dərk etmək – həm də nisbi mövcudluqla barışmamaq, Mütləq mövcudluğa ucalmaq tələb edir.

**Mütləq idrak – Mütləq mövcudluq istəyir.**

Xalq həyatının ən dramatik xüsusiyyəti ondan ibarətdir ki, öz mahiyyəti etibarı ilə mütləq, sonsuz, əbədi, kamil olan sonlu şəkildə təzahür edib.

Xalq indiyə qədər mahiyyətdən aşağı yaşayıb, onun gerçəkliyi mahiyyətinə bərabər olmayıb. Bir çox hallarda o, özünü mahiyyətinin ziddinə realizə edib.

Xalq həyatında sonlu, qeyri-kamil hadisələr çox vaxt əbədi hadisələri üstələyib, yaradılan dövlətlərin, səltənətlərin çoxu məhv olub, səpilən toxumun çoxu bitməyib, nifrət məhəbbətə, bəsitlik müqəddəsliyə qənim olub, qüdrət, qeyrət, ülfət nisbi səciyyə daşıyıb, qorxu, həsəd, nadanlıq ləyaqətin üzərinə kölgə salıb, xalislər təhqir olunub, naqislər sevilib, xalq zora əyilib, yalana tapınıb.

Xalq mənəviyyatında ülviyyətlə qəbahət, gözəlliklə eybəcərlik birgə yaşayıb, xalq daxilindəki naqisliyi öldürə bilməyib, maddiyyat mənəviyyata qalib gəlib.

Xalq gerçəkliyə pərçimlənib qalıb, ideal əsasında yox, təmənna əsasında yaşayıb, müqəddəslikdən ayrılıb, öz mahiyyəti səviyyəsinə yüksəlməyib, xalq çox hallarda nisbi həqiqətlə kifayətlənib, onunla barışıb, ona uyub, pənah gətirib. Xalq öz ölməzliyini çox vaxt dərk etməyib, bu səbəbdən də özünə layiq yaşamayıb, keçici hadisələrə, xassələrə, keyfiyyətlərə tapınıb, böyüyü kiçikdən, alini alçaqdan seçə bilməyib, özündən aşağı mövcud olub.

Xalq hələlik nisbi mənada özünü tanıyıb, nisbi mənada tanıdıb, nisbi mənada dərk edib, nisbi mənada yaradıb, nisbi mənada inanıb.

O, öz mahiyyətinə layiq yaşamayıb, Mütləq mahiyyət nisbi əlamətlər şəklində təzahür edib.

Bu səbəbdən də **xalq Mütləq mənada hələ yaşamayıb**.

***

**Xalq** – ictimai təbəqələrin, siniflərin cəmindən artıqdır; mənafeyindən yüksəkdir.

**Xalq** – əhalinin cəmindən, mənafeyindən artıqdır, yüksəkdir.

Çünki o, Mütləqin ifadəsidir.

Bu səbəbdən də o, cəmiyyətdən Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə tələb edir.

Bu səbəbdən də o, özünü indiyə qədər mövcud olan cəmiyyətlərin heç birində tam təsdiq edə bilməyib!

Bu səbəbdən də xalq indiyə qədər özünə çatmayıb, özünü tapmayıb!

**Cəmiyyətdə həmişə nisbi İnam hökm sürüb!** Həmin İnamda xəlqi mahiyyət aşkara çıxmayıb. Çünki nisbi İnamda tam ruhanilik yoxdur!

**Cəmiyyətdə həmişə nisbi İdrak hökm sürüb.** Xalq özünü həmin İdrakda tapmayıb. Çünki nisbi İdrakda tam ruhanilik yoxdur!

**Cəmiyyətdə həmişə nisbi Mənəviyyat hökm sürüb.** Xalq özünü həmin Mənəviyyatda tapmayıb. Çünki nisbi Mənəviyyatda tam ruhanilik yoxdur!

**Cəmiyyətdə həmişə nisbi İradə hökm sürüb.** Xalq özünü həmin İradədə tapmayıb. Çünki nisbi İradədə tam ruhanilik yoxdur!

**Cəmiyyətdə təbəqə münaqişələri baş verib.** Xalq özünü onlarda tapmayıb. Çünki təbəqə münaqişələrində tam ruhanilik yoxdur.

Xalq gerçək cəmiyyətə sığmayıb. **İnamı** – cəmiyyət İnamından yüksək və artıq olub. **İdrakı** – cəmiyyət İdrakından yüksək və artıq olub. **Mənəviyyatı**– cəmiyyət Mənəviyyatından yüksək və artıq olub. **İradəsi** – cəmiyyət İradəsindən yüksək və artıq olub.

Heç bir **Ehkam** onu tam ifadə edə bilməyib.

Heç bir **Qüdrət** onu tam ifadə edə bilməyib.

Heç bir **Qanun** onu tam ifadə edə bilməyib.

Heç bir **Sinif** onu tam ifadə edə bilməyib.

Naqis Cəmiyyət olub, naqis xalq olmayıb.

Naqis İnam olub, naqis xalq olmayıb.

Naqis İdrak olub, naqis xalq olmayıb.

Naqis Mənəviyyat olub, naqis xalq olmayıb.

Naqis İradə olub, naqis xalq olmayıb.

Xalq heç vaxt **gerçək cəmiyyətlə** eyniləşməyib! Onun təsirinə məruz qalıb, ancaq ona bərabər olmayıb!

Xalq heç vaxt **gerçək İnamla** eyniləşməyib. Onun təsirinə məruz qalıb, ancaq ona bərabər olmayıb!

Xalq heç vaxt **gerçək İdrakla** eyniləşməyib. Onun təsirinə məruz qalıb, ancaq ona bərabər olmayıb!

Xalq heç vaxt **gerçək Mənəviyyatla** eyniləşməyib. Onun təsirinə məruz qalıb, ancaq ona bərabər olmayıb!

Xalq heç vaxt **gerçək İradəylə** eyniləşməyib. Onun təsirinə məruz qalıb, ancaq ona bərabər olmayıb!

Xalq cəmiyyəti öz gerçək səviyyəsindən yüksəyə qalxmağa, mahiyyətinə çatmağa sövq edib.

**Xalq əhali varlığına bərabər olmayıb.**

O, bütöv tarixi varlığa – yəni qədimliyə, müasirliyə və gələcəyə malikdir!

İndiyə qədər müxtəlif cəmiyyətlər olub, ancaq xəlqi cəmiyyət olmayıb! Çünki cəmiyyət – Öz mahiyyətinə bərabər olmayıb.

Bu səbəbdən də xəlqi mahiyyətə yüksəlməyib!

Xalqa bərabər olan cəmiyyət hələ olmayıb!

Bu səbəbdən də xalq hələ heç vaxt cəmiyyətdə özü olmayıb!

## Həyatdakı eybəcərliklə döyüş

Ocaqçının ən böyük düşməni – **Vətənsizlikdir.**

Vətənsizlik – Xalqına İnanmamaq, Xalq Ruhuna, İdrakına yad olmaq, özgələşmək deməkdir.

**Vətənsizlik** – Qərbi yamsılamaq, təqlid etmək və bu miskinliklə öyünmək, onu müasirlik, qabaqcıllıq timsalı saymaqdır.

**Vətənsizlik** – Kökündən, Qədimliyindən, Tarixindən ayrılmaq, süniləşmək, müflisləşməkdir.

**Vətənsizlik** – Xəlqi Düşüncəni, Mənəviyyatı – gerilik, ibtidailik nişanəsi saymaq qəbahətidir.

**Vətənsizlik** – ardıcıl, təcavüzkar, açıq əxlaqsızlıqdır, əxlaqsızlığı hörmətə mindirmək cəhdidir.

**Vətənsizlik** – fəndgirliyin, mənsəbpərəstliyin, minsifətliyin, mədəni alçaqlığın, nəcib cəlladlığın həyatımıza müdaxiləsidir.

**Vətənsizlik** – idealsız, antixəlqi, yarışərq, yarıqərb, müti və pozğun ziyalı qrupunun, elitasının peyda olmasıdır.

**Vətənsizlik** – sadə Vətən övladlarına təşəxxüslü və saxta münasibətdir.

**Vətənsizlik** – taleyini, səadətini, gələcəyini özündə yox, özündən uzaqlarda axtarmaq bəlasıdır.

Ocaqçı Vətənsizliklə həmişə, hər yerdə vuruşmalıdır. Əgər Ocaqçının yanında Vətənsizlik təbliğ olunursa və o, bədnam əqidəni ifşa etmirsə, onun Ocaqçı adını daşımağa haqqı yoxdur. Əgər bu və ya digər əsərdə Vətənsizlik əlaməti görünürsə, Ocaqçı ona öz münasibətini mütləq bildirməlidir.

Ocaqçı Vətənsizlik haqqında Ocağın fikrini xalqa şərh etməlidir.

Ocaqçı öz mühitini Vətənsizlik çirkabından təmizləməlidir.

**Ocaqçı olan yerdə Vətənsizlik toxumu bar verə bilməz.**

Ocaqçı Vətənsizlik adlanan yağı ilə bir an da barışmamalıdır.

Həyat – Ocaqçı üçün Vətənsizliklə döyüş meydanına çevrilməlidir.

Ocaqçı öz Həyat Dəftərində bu sözləri yazmağa haqq qazanmalıdır: "Mən Vətənsizliklə həmişə döyüşürəm"

Vətənsizliklə Mübarizənin çeşidləri müxtəlifdir. Müəllim dərslərində, qələm əhli əsərlərində, işçi müəssisələrdə, tələbə auditoriyada, yataqxanada Vətənsizliyi ifşa etməlidir, Vətənsevərliyi təbliğ etməlidir.

## Azərbaycan dərdi

"Azərbaycanlılar"dan utanmayan – Azərbaycanla fəxr etməz!

"Azərbaycanlılar"dan iyrənməyən – Azərbaycanla fəxr etməz!

"Azərbaycanlılar"ı lənətləməyən – Azərbaycanı qiymətləndirməz!

Çünki "azərbaycanlılar" – Azərbaycan yaratmadılar.

Çünki "azərbaycanlılar" – Azərbaycan yaratmaq istəmədilər.

Çünki "azərbaycanlılar"– Azərbaycan yaratmağı bacarmadılar.

Namərdliyə dözdülər – mərdliyə dözmədilər.
Alçaqlığa dözdülər – ucalığa dözmədilər.
Mütiliyə dözdülər – məğrurluğa dözmədilər.

"Babəkim var!" – dedilər. Özləri yox oldular.
"Nəsimim var!" – dedilər. Özləri yox oldular.
"Füzulim var!" – dedilər. Özləri yox oldular.

Çünki hünərdən qaçdılar.
Çünki əzabdan qaçdılar.
Çünki kədərdən qaçdılar.
Süründülər – öyündülər.
Sürüldülər – sevindilər.

"Azərbaycanlılar"dan utanmayan – azərbaycanlı sayılmaz!
"Azərbaycanlılar"dan iyrənməyən – azərbaycanlı sayılmaz!
"Azərbaycanlılar"ı lənətlənməyən – azərbaycanlı sayılmaz!

Əskilirlər – ölmürlər.
Kiçilirlər – ölmürlər.
Çünki yaşamırlar.
Yaşamayan ölməz.

Azərbaycan "azərbaycanlılar"a bənzəmədiyi dərəcədə böyük-dür.
Azərbaycan "azərbaycanlılar"a bənzəmədiyi dərəcədə yüksəkdir.
Azərbaycan "azərbaycanlılar"a bənzəmədiyi dərəcədə ləyaqətlidir.

Azərbaycanı aldatmayan "azərbaycanlı"ya rast gəlmədim.
Azərbaycanı satmayan "azərbaycanlı"ya rast gəlmədim.

Ən böyük yağım – "həmdəmim"!
Ən böyük oğrum – "keşikçim"!
Ən böyük xainim – "yaxınım"!

Azərbaycanda "azərbaycanlılar" təhlükəsi yaranıb.
Azərbaycanı "azərbaycanlılar"dan qorumaq gərək!

Yenidən şumlamaq gərək Azərbaycanı!
Yenidən tumlamaq gərək Azərbaycanı!
İnsan becərmək gərək Azərbaycanda!

"Azərbaycanlılar"dan xilas etmək gərək Azərbaycanı:
Babəkləşdirmək!
Nəsimiləşdirmək!
Füzuliləşdirmək!

## Köləlik

Siyasətdə "Aşağı İrq", "Balaca Xalq", Rəiyyət, Müstəqil İdrak, Fərdi Mənəviyyat kölələşir.

Aşağı İrqə deyirlər ki, sənin müstəqil mövcudluğun qeyri-mümkündür; çünki ağlın, mənəviyyatın, iradən naqisdir, sən bizim hakimiyyətimizi qəbul eləməlisən, himayəmizdə yaşamalısan, qəyyumluğumuzdan bəhrələnməlisən və bunu ali bəxtiyarlıq saymalısan!

Bizə – "Yüksək İrqin" nümayəndələrinə məhəbbətin, sədaqətin hədsiz olmalıdır, çünki çiynimizdə sənin yükünü daşıyırıq. Ölkənin maddi sərvətlərinə yiyələniriksə, bunu təbii və zəruri say, çünki sənin onları mənimsəmək qüdrətin yoxdur.

Mədəniyyətini də bizə uyğunlaşdır, çünki yeganə qabaqcıl, müasir, zəngin mədəniyyət bizimkidir.

Taleyini bizə tapşır – səni ağ günə çıxaracağıq. Özünə tapşırma – fəlakətə düçar olarsan!

"Balaca xalq"a deyirlər ki, aqibətinin son məqamına qədər bizdən – "böyük xalq"dan ayrılma, havadarlığımızdan imtina etmə – uçuruma düşərsən. Səndə Var olan – Bizik. Bizdən kənarda – Yoxsan! Özünə Sahib olan kimi – Yox olacaqsan! Müstəqil siyasi mövcudluq eşqinə düşmə!

İqtisadiyyatın bizə tabe olmalıdır, çünki o, yalnız bizim sayəmizdə inkişaf edə bilər. Mədəniyyətinə biz istiqamət verməliyik, çünki o, yalnız bizim sayəmizdə inkişaf edə bilər.

Yalnız bizimlə tərəqqiyə çata bilərsən! Bizdən ayrılan kimi başı aşağı ətalətə yuvarlanacaqsan!

Özünü bizdə tap – özün olarsan!

Özünü özündə tapma – itirərsən!

Tarixi meydanda at oynatmaq iddiasına düşmə! Həmin meydanda mən sənin yerinə də at sürürəm.

Tarix – böyük xalqların səhnəsidir. Mənimlə bağlandığın üçün, mənim tarixi fəaliyyətimə yaradığın üçün qürrələn, fərəhlən! Mənim tarixi yaradıcılığıma xidmət etdiyin üçün özünü xoşbəxt say!

Sənin tarixi xidmətin bundan ibarətdir!
Müstəqil tarixi fəaliyyət xülyasına uyma!
Tapdanarsan, sürünərsən, sürülərsən!
Müstəqiləbənzərlik aqibətiylə kifayətlən!
Özünü inandır ki, müstəqilsən!

Özünü məndə inkar et – bu sənin ən böyük özünütəsdiqindir!

Rəiyyətə deyirlər ki, Yuxarı təbəqəyə xidmət etmək – ən böyük ləyaqətdir, çünki rəiyyət bu xidmətdə öz ali mənafeyini qoruyur.

Həmin xidmətdən əl çəkmək – özünə xəyanət etməkdir. Çünki hakimlik üçün "Yuxarı təbəqə" yararlıdır; o daha səriştəli, daha qabil, daha səviyyəlidir.

Rəiyyətin özünə hakimlik eləməsi fəlakət törədərdi. Bu səbəbdən də xidmət, tabeçilik aqibətindən kənara çıxmaq – rəiyyəti uçuruma sürükləyər. Özünə sahib olan rəiyyət – özünü itirər.

Təbii aqibətlə barışmaq – zəruridir, Yuxarı Təbəqəyə ehtiram bəsləmək – mərifət əlamətidir. Yuxarı Təbəqə sənin hakimindir, çünki o səni səndən yaxşı təsdiq edir. Müstəqilliyini itirirsən – ancaq əsarətindən faydalanırsan.

Azad İdraka deyirlər ki, sən naşı, günahkar və miskinsən, insanı yolundan çıxaransan, özündən əl çəkməli, Ehkama tapınmalısan, onun hakimliyini qəbul etməlisən!

Müstəqilliyini itirən kimi həqiqəti tapacaqsan!

Azadlığın – əsarətindir! Özündən ayrılmağın – özünə çatmağındır!

Fərdi mənəviyyata deyirlər ki, ümumi hakim Mənəviyyatdan başqa Mənəviyyat yoxdur.

Hamının qəbul etdiyi Dini qanunlara baş əyməli, tabe olmalısan!

“Özünə məxsus olan – heç kəsə məxsus olmur”.

“Hamıdan fərqlənən özünə bənzəmir”.

“Fərdiyyət – əslində mənəvi məhrumiyyətdir.

Bu məhrumiyyətdən xilas olmaq – ruhani bəxtiyarlıqdır”.

Siyasət təsir edir, təzyiq göstərir, Zora əl atır, kölələşdirir.

Ancaq köləliyi əbədiləşdirə bilmir.

## Fatehlik

Siyasət – Dünyanı fəth edəndə belə, fədakar görünməyə çalışır.

Siyasət – fatehlikdən danışmır, fatehlik edir.

“Fateh yardımı” yaranır.
“Fateh xeyirxahlığı” yaranır.
“Fateh sədəqəsi” yaranır.
“Fateh səadəti” yaranır.

Fatehlik – çağırılır, dəvət olunur, bəslənir. O, fəth olunan ölkələrdə öz ardıcıllarını, carçılarını, silahdaşlarını yaradır.

“Vətənin müqəddəratı naminə” Vətən fəth olunur.

“Vətənin tərəqqisi naminə” Vətən fəth olunur.

“Vətənin gələcəyi naminə” Vətən fəth olunur.

Fatehlik – Xəyanət əhvalı yaradır.

“Sənin nicatın səndən uzaqdadır!” – deyirlər.

“Fatehsiz yaşaya bilməzsən!” – deyirlər.

“Fəth olunmaqdan böyük qeyrət yoxdur!” deyirlər.

“Fəth olunmaq – ali aqibətdir!” – deyirlər.

“Fəth olunmaq – tarixi zərurətdir!” – deyirlər.

Fateh **İdrakı** zəbt edə bilmir, zindana salır, ağılları hakim idrakla zəncirləyir.

Fateh **İnamı** zəbt edə bilmir, zindana salır, ürəkləri hakim inamla zəncirləyir.

Fateh **Əxlaqı** zəbt edə bilmir, zindana salır, mənəviyyatı hakim əxlaqla zəncirləyir.

Fateh **İradəni** zəbt edə bilmir, zindana salır, iradələri Zorla zəncirləyir.

Etiqad Fatehliyini – İnam tərəqqisi adlandırırlar.
İdrak Fatehliyini – Əqli tərəqqi adlandırırlar.
Əxlaq Fatehliyini – Mənəvi tərəqqi adlandırırlar.
Zoru – İradə tərəqqisi adlandırırlar.
Fatehlik alqışlanır.

Siyasət – möhtəşəm Yalan yaradır.
Siyasət – xalqları möhtəşəm Yalan qaranlığına bürüyür.
Həqiqət Günəşi doğanda zülmət çəkilir, xülya itir, fatehliyin qanlı pəncəsi göz önündə canlanır.

## Zor

Siyasət Zora arxalanır, ancaq özünü könüllü niyyət tərcümanı kimi təqdim edir.

Siyasət "balaca" xalqları "böyük" xalqlara "könüllü surətdə" calayır, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət kiçik ölkələri böyük ölkələrə "könüllü surətdə" birləşdirir, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət xalqları "Ümumtarixi", "Həqiqi", "Yeganə", "Vahid" İdeoloji Ehkama "könüllü surətdə" tabe edir, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət xalqları "ümumbəşəri" Dini Kəlamlara "könüllü surətdə" tabe edir, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət qılınca əl atanda belə, "könüllülük" Yalanından əl çəkmir. Qılıncı xalqlara qarşı yox, əsil insanlara qarşı yox, asilərə, azğınlara, yolunu azanlara qarşı **(könüllülərin xeyrinə)** çevirməsindən danışır.

Zor – **Mənəvi Zor biçimində** Özünü Zor saymır, İqtisadi Zor biçimində özünü Zor saymır.

Zor ictimai qanunlardan, xəlqi vəhdətdən, dövlət imtiyazından danışır, özünün qatil, cəllad xislətindən danışmır; zəruriyyətdən danışır – bəd niyyətdən danışmır.

Zor sübut eləmək istəyir ki, o, ən böyük ədalətdir, səmimiyyətdir, səxavətdir.

Zor sübut eləmək istəyir ki, o, həmişə keşikçidir – quldur deyil!

Zor sübut eləmək istəyir ki, o, Zor deyil.

“Zora əyilənlər – vüqarlı görünürlər!”

Zor buna nail olmaq istəyir, ancaq ola bilmir.

Çünki insanlar Zora əyilsələr də, həm də Zoru əyirlər.

## Hərcayilik

Siyasətin qazandığı nə varsa – ölümə məhkumdur.

“Möhtəşəm”, “Əbədi”, “Sonsuz” **Hakimiyyət** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

“Möhtəşəm”, “Əbədi”, “Sonsuz” Ümumdünyəvi **Səltənət** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, məhv edilir, Yer üzündən silinir.

“Möhtəşəm”, “Əbədi”, “Sonsuz” Ümumdünyəvi **Siyasi Qüdrət** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

“Möhtəşəm”, “Əbədi”, “Sonsuz”, “Vahid”, “Həqiqi” **Ehkam** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir. “Möhtəşəm”, “Əbədi”, “Sonsuz” **Siyasi Birlik** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

“Möhtəşəm”, “Əbədi”, “Sonsuz” **Maddi Qüdrət** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir. Siyasət əslində heç nə yaratmır, çünki yaratdığı əbədi olmur.

## Oyun

Siyasət – Oyundur.

Əxlaqsızın – Əxlaq oyunudur.

Həqiqətsizin – Həqiqət oyunudur.

Məhəbbətsizin – Məhəbbət oyunudur.

Günahkarın – Saflıq oyunudur.

Quldurun – Keşikçi oyunudur.

Ağanın – Ata oyunudur.

Kölənin – Övlad oyunudur.

**Siyasət – oyundur**

Siyasətdə xalqın, bəşərin, insanın taleyiylə oynayırlar.

## İnsaniyyət

Siyasətin qələbəsi – İnsaniyyətin məğlubiyyətidir.
Əxlaqsızlıq qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Xudbinlik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Yalan qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Təmənna qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Ağalıq qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Köləlik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Fatehlik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Zor qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Hərcayilik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Oyun qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.

**Siyasətin məğlub olması üçün – İnsaniyyətin Qələbəsi gərəkdir.**

## Xəlqilik

**Xalq** – Əhalinin cəmi deyil, Mahiyyətidir. Yəni Xalq – Əhalinin cəmindən artıqdır, yüksəkdir.

**Xalq** – Əhalinin bugünü deyil, Mahiyyətidir. Yəni Xalq – Əhalinin bugünündən artıqdır, yüksəkdir.

**Xalq** – Maddi mənafedən artıqdır, yüksəkdir. Çünki maddi mənafe Xəlqi Mahiyyətdən aşağıdır, kiçikdir.

**Xalq** – Sinfi münaqişələrdən artıqdır, yüksəkdir. Çünki Sinfi münaqişə Xəlqi Mahiyyətdən aşağıdır, kiçikdir.

**Xalq** – gerçəklikdən artıqdır, yüksəkdir. Çünki Mahiyyət təzahürdən böyükdür.

**Xalq – Əhalinin dünənində, bugünündə, sabahında təzahür edən və onlardan artıq, yüksək, böyük olan Mahiyyətdir.**

**Xalq** – müxtəlif hakimlik növlərinin hamısından artıq, yüksək, böyük olan Mahiyyətdir. Onların üzərindən adlayıb keçən, onları son nəticədə rədd edən, inkar edən Ruhanilikdir.

**Xalq** – əlvan çeşidli ictimai-siyasi quruluşların hamısından artıq, yüksək, böyük olan Mahiyyətdir. Onların üzərindən adlayıb keçən, onları son nəticədə rədd edən, inkar edən Ruhanilikdir.

**Xalq** – bir-birini əvəz edən İdeologiyaların, siyasi Qanunların, dini Ehkamların hamısından artıq, yüksək, böyük olan Mahiyyətdir. Onların üzərindən adlayıb keçən, onları son nəticədə rədd edən, inkar edən Ruhanilikdir.

**Xalq** – Mahiyyətdir, yəni Mütləqin, Müqəddəsliyin, Kamilliyin ifadəsidir.

Yalnız Vahid **Müqəddəs İdeya** əsasında yaşayan Əhali – Xalq səviyyəsinə ucalır.

Yalnız Vahid Müqəddəs **Mənəvi Qanun** (İmperativ) əsasında yaşayan əhali – xalq səviyyəsinə ucalır.

Maddi mənafe səviyyəsindən yuxarı qalxmayan birlik – xalq deyil.

Əhali cəminə malik olan ölkələr çoxdur, ancaq xalq azdır.

Əhali xalqda öz Mahiyyətini tapır. Xalq – əhalidə təzahür edir.

Heç bir təbəqədə o, özünü tam büruzə vermir. Hər bir təbəqədə o, özünün bir cəhətini, bir xüsusiyyətini aşkara çıxarır. Bu səbəbdən də heç bir təbəqə özünü Xalq adlandıra bilməz.

Xalq – əhalinin özündən böyük Mənasıdır.

Xalq – təbəqələr birliyinin həmin birlikdən böyük mənasıdır. Həmin Ali Mənanın ən ibtidai Tələbi – ictimai-siyasi Müstəqillikdir.

Müstəqil olmayan heçə bərabərdir.

Heçlik Mahiyyəti ifadə edə bilməz.

Ali Mənanın Yüksək Tələbi – əhalinin Xalq səviyyəsinə yüksəlməsidir. Həmin Yüksəliş: Xalqı Tanıma, Xalqa Qovuşma və Xalqlaşma tələb edir.

Xalqı Tanıma – Xalqın Müqəddəs Mənasına Səcdə yaradır: xalqa aşiqlik ülviyyəti peyda olur. Bütün təbəqələr anlayırlar ki, xalq onlardan böyükdür, yüksəkdir, artıqdır.

Kəndli başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır. Fəhlə başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır. Ziyalı başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır. İdarəçi başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

Əhalinin cəmi başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

Həmin dərketmə Aşiqlik ucalığı kəsb edir, müqəddəslik ləyaqəti kəsb edir:

Əhali xalqlaşır!

## Ruhani Dövlət

Fərdlərin xalqla vəhdəti ruhani dövlət vasitəsilə həyata keçirilir.

Ruhani dövlət – Xəlqi Mahiyyəti ifadə edir, Əhalini həmin mahiyyət ətrafında birləşdirir, müxtəlif fərdlərdən ictimai birlik yaradır. Ruhanilik gerçəklikdə ictimai hadisələr biçimində aşkara çıxır.

Adi dövlət öz vəzifəsini əksər hallarda təbəqələr, siniflər arasında müvazinət yaratmaqda, əhalinin maddi, siyasi mənafeyini təmsil eləmək və qorumaqda görür. Əslində isə ictimai olan nə varsa, arxasında ruhanilik dayanır.

Elə bir siyasi məsələ yoxdur ki, o, insaniyyətlə bağlı olmasın.

Yaxşı cəmiyyət qurmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

Güclü məmləkət yaratmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

Dünyada yüksək siyasi mövqe qazanmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

Vətəni düşməndən qorumaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

İctimai Tərəqqiyə çatmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

Bütün ictimai məsələlərin həlli əslində ruhani səciyyə daşıyır. Bütün ictimai müşküllərin arxasında insani xəsarət dayanır.

Ədalətsizliyin səbəbi – insani xəsarətdir!

İctimai geriliyin səbəbi – insani xəsarətdir!

Cəhalətin səbəbi – insani xəsarətdir!

Qəsbkarlığın səbəbi – insani xəsarətdir!

Buna görə də **ictimai məsələləri həll etmək – əslində ruhani məsələləri həll etməkdir. Dövlət xadimi həm də ruhaniyyat xadimi olmalıdır.**

**Dövlət Səlahiyyətini ruhanilik səlahiyyətindən ayırmaq – yanlış təmayüldür.**

Dövlət Əhalinin həm siyasi, həm də ruhani rəhbəri olmalıdır.

Ruhani rəhbərliyi dövlətdən təcrid etmək, onu xüsusi bir səlahiyyətə tapşırmaq bəşər tarixində çox yayılmış, fəqət son dərəcə zərərli bir meyldir.

İnsan – ruhani varlıqdır.

Buna görə də onu ruhanilikdən kənarda idarə etmək mümkün deyil!

İnsana sırf siyasi baxımdan yanaşmaq – onu anlamamaqdır. Çünki İnsanda elə siyasi keyfiyyət yoxdur ki, arxasında ruhanilik dayanmasın!

Bu səbəbdən də Dövlət Ruhani səciyyə daşımalıdır, ruhaniləşməlidir; siyasi məsələlərə ruhaniliyin ifadəsi, təzahürü kimi yanaşmaq lazımdır.

Bu səbəbdən də Ruhani Xadimlik Səlahiyyətindən məhrum olan dövləti – əsil dövlət saymaq olmaz. Xalqı təmsil etmək – ruhaniliyi təsdiq etməkdir.

Ruhaniliyi təsdiq etmək üçün Vahid, Qüdrətli, Ruhani Dövlət gərəkdir.

Güclü Dövlət – Ruhani Dövlətdir.

## Fərd –Cəmiyyət – Xalq

Fərd cəmiyyətə tabe olur – Xalqda özünü tapır.
Cəmiyyət Fərdi Məhrumiyyətdən yaranır.
Xalq Fərdi Tələbatdan yaranır.
Cəmiyyətdə yadlaşan – Xalqda doğmalaşır.
Cəmiyyətdən ayrılan – özgədən ayrılır.
Xalqdan ayrılan – özündən ayrılır.

## Vətən – sən

**Vətən – sənsən.**
Özündən ayrı yaşaya bilməzsən!
Həyat sənə yad ola bilər, Vətən həmişə doğmadır.
Çünki özünə yad ola bilməzsən!
Vətəndən ayrı yaşayan – özündən ayrı yaşayır.
Tək qalanda belə, Vətənləsən.

II

Maddi mənafe qurtarır – Vətən yaranır.

III

Torpaq Müqəddəsləşir.
Tarix Müqəddəsləşir.
Əcdad Müqəddəsləşir.
Adət Müqəddəsləşir.

IV

Vətənə Mütləq İnam doğur – Vətən yaranır.

V

Vətən dərdlisi olursan.
Vətən qəhərlisi olursan.
Vətən qeyrətlisi olursan.
Vətən həyanı olursan.
Vətən dayağı olursan.
Vətənə gərək olduğun dərəcədə özünə gərək olursan.

VI

Hamı Vətənli olmur.
Vətəndə Vətənsiz yaşayanlar var.
Vətənlə bir olmurlar.
Özləriylə bir olmurlar.
Özgələşirlər.

VII

Özgələşən – eybəcərləşir.
**Şərləşir.**

## RUHANİ CƏMİYYƏT

*Fərd xalqda ideal məqsədə yüksəlir.*
*Ruhani dövlət xalqı ifadə edir.*

### Aldanış

### Uçurum

"Çiçəkliyik!" – deyirlər.
Uçurumda gül bitərmi?

"Binalıyıq!" – deyirlər.
Uçurumda bina qurularmı?

"Meyvəliyik!" – deyirlər.
Uçurumda meyvə yetişərmi?

"Diriyik!" – deyirlər.
Uçurumda dirilik olarmı?

İnamda uçurum yaratdılar.
Uçurumda inam yaranarmı?

İdrakda uçurum yaratdılar.
Uçurumda idrak yaranarmı?

Mənəviyyatda uçurum yaratdılar.
Uçurumda mənəviyyat yaranarmı?

İradədə uçurum yaratdılar.
Uçurumda iradə yaranarmı?

Uçurumda cəmiyyət yaratdılar.
Uçurumda ədalət yaratdılar.

Uçurumda həqiqət yaratdılar.
Uçurumda səadət yaratdılar.

Fərəh uçuruma düşdü.
İstək uçuruma düşdü.
Məslək uçuruma düşdü.

Uçurum vüqarı yarandı.
Uçurum nişanı yarandı.
Uçurum sahibi yarandı.
Uçurum dahisi yarandı.

İnsana uçurumdan baxdılar.
Dünyaya uçurumdan baxdılar.
Həyata uçurumdan baxdılar.
Uçuruma səslədilər.
Uçuruma saldılar.

Söz uçuruma düşdü – deyilmədi.
Səs uçuruma düşdü – eşidilmədi.
Fikir uçuruma düşdü – qanadı sındı.
Ürək uçuruma düşdü – qanadı.

"Uçurum – uludur!" – dedilər.
"Uçurum – nurludur!" – dedilər.
"Uçurum – nicatdır!" – dedilər.
"Uçurum – savabdır!" – dedilər.
"Uçuruma düşməyən – kafirdir!" – dedilər.
"Uçuruma düşməyən – xaindir!" – dedilər.
"Uçuruma düşməyən – cahildir!" – dedilər.
"Uçurumu uçurmaq olmaz!" – dedilər.
"Uçurumu dağıtmaq olmaz!" – dedilər.
"Uçurumu adlamaq olmaz!" – dedilər.
Uçuruma düşdülər.
Uçuruma yaradılar.
Uçuruma yaraşdılar.

## Dünyasızlıq

"Yüzü pisdirsə – biri yaxşıdır" – dedilər.
"Yüzü pisdirsə – yüz biri də pisdir" – dedim.
"Yüz alaq otu arasında bir gül tapılar" – dedilər.
"Alaq otu düzündə gül qəribdir" – dedim.
"Yüz çirkli arasında bir təmiz tapılar" – dedilər.
"Çirkli dünyada təmiz qəribdir" – dedim.
"Yüz topal arasında bir ayaqlı tapılar" – dedilər.
"Topal dünyada ayaqlı qəribdir" – dedim.
"Yüz alçaq arasında bir uca tapılar" – dedilər.
"Alçaq dünyada uca qəribdir" – dedim.
"Yüz zalım arasında bir adil tapılar" – dedilər.
"Zalım dünyada adil qəribdir" – dedim.
"Yüz namərd arasında bir mərd tapılar" – dedilər.
"Namərd dünyada mərd qəribdir" – dedim.
"Yüz əyyaş arasında bir aşiq tapılar" – dedilər.
"Əyyaş dünyada aşiq qəribdir" – dedim.
"Yüz arsız arasında bir dərdli tapılar" – dedilər.
"Arsız dünyada dərdli qəribdir" – dedim.
"Hər şeyi inkar etmək olmaz" – dedilər.
"Heç şey hər şey olanda dünya yox olur" – dedim.

***

"Pisə qalan dünya – dünya deyil!" – dedim – orada gül bitsə də.
"Çirkliyə qalan dünya – dünya deyil!" – dedim – orada təmiz tapılsa da.
"Topala qalan dünya – dünya deyil!" – dedim – orada ayaqlı tapılsa da.
"Alçağa qalan dünya – dünya deyil!" – dedim – orada uca tapılsa da.
"Zalıma qalan dünya – dünya deyil!" – dedim – orada adil tapılsa da.
"Namərdə qalan dünya – dünya deyil!" – dedim – orada mərd tapılsa da.
"Əyyaşa qalan dünya – dünya deyil!" – dedim – orada aşiq tapılsa da.
"Arsıza qalan dünya – dünya deyil!" – dedim – orada dərdli tapılsa da.

## Günah

"Bəşər axtarır – tapmır!" – dedilər.
"Bəşər axtarmır – aldanır!" – dedim.

“Bəşərin Allahları çox olub!” – dedilər.
“Mütləqi olmayıb!” – dedim.
“Bəşərin dahiləri çox olub!” – dedilər.
“Atası olmayıb!” – dedim.
“Bəşərə Söz söyləyən çox olub!” – dedilər.
“Həqiqət söyləyən az olub!” – dedim.
“Bəşəri cənnətə səsləyiblər!” – dedilər.
“Cəhənnəmə düşüb!” – dedim.
“Bəşər cəmiyyəti dəyişib!” – dedilər.
“Özünü dəyişə bilməyib!” – dedim.
“Bəşər vədlərə inanıb!” – dedilər.
“Şirnikib!” – dedim.
“Bəşər – qədimdir!” – dedilər.
“Körpədir!” – dedim.
“Bəşər irəli gedib!” – dedilər.
“Sürülüb!” – dedim.
“Uzun yol keçib!” – dedilər.
“Yolunu tapmayıb!” – dedim.
“Heyvanla döyüşüb!” – dedilər.
“Özüylə döyüşməyib!” – dedim.
“Talesizdir!” – dedilər.
“Günahkardır!” – dedim.
“Axtardı – tapmadı!” – dedilər.
“Özünü axtarmadı!” – dedim.
**Axtaracaq – tapacaq – dedim.**

## Nicat Əsatiri

Fəhlə hakimiyyətə gəlməliydi!
Kəndli hakimiyyətə gəlməliydi!
Zavod fəhlənin olmalıydı!
Torpaq kəndlinin olmalıydı!
Fəhlə hakimiyyətdən kənarda qaldı!
Kəndli hakimiyyətdən kənarda qaldı!
Fəhlə Mülkiyyətdən kənarda qaldı!
Kəndli Mülkiyyətdən kənarda qaldı!

***

“Millətlər biri-birinə qovuşacaq.
Vahid bəşəriyyət yaranacaq” – deyirlər.
(Yəni kiçik millətlər böyük millətlərin içərisində əriyəcək!)
“Milli mədəniyyətlər biri-birinə qovuşacaq.
Vahid ümumbəşəri mədəniyyət yaranacaq!” – deyirlər.
(Yəni “kiçik mədəniyyətlər böyük mədəniyyətlərin içərisində əriyəcək!” – deyirlər.
“Ölkələr biri-birinə qovuşacaq, vahid ölkə yaranacaq!” – deyirlər.
(Yəni dünya “böyük millət”ə qalacaq!)

***

“Maddi təminat yüksək mənəviyyat yaradır!” – deyirlər.
“Mənəviyyat maddiyyatdan asılı deyil!” – deyirəm.
“İctimailəşən – insanilәşir!” – deyirlər.
“İnsanilәşmək – ictimailəşməkdən asılı deyil!” deyirəm.
“Mənəviyyat İnsandan asılıdır!” – deyirəm.
“İnsanilәşmək – İnsandan asılıdır!” – deyirəm.

***

“Mülkiyyət Fərdin olanda – Dünya naqisləşir!” – deyirlər.
“Mülkiyyət ictimai (Ümumi) olanda – Dünya insanilәşir” – deyirlər.
“Bütün fəlakətlərin səbəbi Fərdi (Xüsusi) mülkiyyətdədir” – deyirlər.
“Bütün dərdlərin əlacı – ictimai (Ümumi) mülkiyyətdir” – deyirlər.
“Mülkiyyət Dövlətin (Ümuminin) əlinə keçəndə – Dünya pisləşir” – deyirəm.
“Dövlət (Ümumi) Mülkiyyətində istismar bərqərar olur” – deyirəm.
“Dövlət Mülkiyyətində izafi dəyər mənimsənilir” – deyirəm.
“İstismarçı siniflərin ləğvi – istismarı aradan qaldırmır” – deyirəm.
“Mülkədarsız dünya – gözəl dünya olmur” – deyirəm.
“Kapitalistsiz dünya – gözəl dünya olmur” – deyirəm.
“Məsələ İnsani səviyyədədir” – deyirəm.
“Məsələ – İdrakdadır” – deyirəm.
“Məsələ – Mənəviyyatdadır” – deyirəm.

"Məsələ – İradədədir" – deyirəm.
"Məsələ – İnsaniləşməkdədir!" – deyirəm.

***

"Şəxsiyyəti çoxluq (kollektiv) tərbiyə edir!" – deyirlər.
"Çoxluqda naqislik azalmır, artır!" – deyirəm.
"Kollektiv haqlıdır – Fərd haqsız!" – deyirlər.
"Kollektiv haqq – kollektiv haqsızlıq yaradır" – deyirəm.
"Şəxsiyyəti şəxsiyyət özü tərbiyə edir!" – deyirəm.
"Şəxsiyyət naqisliyini anlayır və aradan qaldırır!" – deyirəm.
"Şəxsiyyət məziyyətlərini görür və bəsləyir!" – deyirəm.

## Tilsim

Böyük kitabları oxumadın –
kiçik kitabları oxudun.
Xalis kitabları oxumadın –
naqis kitabları oxudun.
Düz kitabları oxumadın –
əyri kitabları oxudun.
Ülvi kitabları oxumadın –
Bəsit kitabları oxudun.
Zəngin kitabları oxumadın –
Yoxsul kitabları oxudun.
Deməli, əslində kitab oxumadın.
Böyük sözləri eşitmədin –
kiçik sözləri eşitdin.
Xalis sözləri eşitmədin –
naqis sözləri eşitdin.
Düz sözləri eşitmədin –
əyri sözləri eşitdin.
Ülvi sözləri eşitmədin –
bəsit sözləri eşitdin.
Zəngin sözləri eşitmədin –
yoxsul sözləri eşitdin.
Deməli, əslində söz eşitmədin.
Böyük Zəka görmədin – kiçik Zəka gördün.
Xalis Zəka görmədin – naqis Zəka gördün.

Düz Zəka görmədin – əyri Zəka gördün.
Ülvi Zəka görmədin – bəsit Zəka gördün.
Zəngin Zəka görmədin – yoxsul Zəka gördün.
Deməli, əslində Zəka görmədin.
Böyük Ürək görmədin – kiçik Ürək gördün!
Xalis Ürək görmədin – naqis Ürək gördün!
Düz Ürək görmədin – əyri Ürək gördün!
Ülvi Ürək görmədin – bəsit Ürək gördün!
Zəngin Ürək görmədin – yoxsul Ürək gördün!
Deməli, əslində Ürək görmədin!
Böyük İradə görmədin – kiçik İradə gördün!
Xalis İradə görmədin – naqis İradə gördün!
Düz İradə görmədin – əyri İradə gördün!
Ülvi İradə görmədin – bəsit İradə gördün!
Zəngin İradə görmədin – yoxsul İradə gördün!
Deməli, əslində İradə görmədin!
Kiçik böyüklər gördün.
Naqis xalislər gördün.
Əyri düzlər gördün.
Bəsit ülvilər gördün.
Yoxsul zənginlər gördün.
Aldatdılar səni – xəbərin olmadı!
Alçaltdılar səni – xəbərin olmadı!

***

Böyük görsən – tanımazsan!
Xalis görsən – tanımazsan!
Düz görsən – tanımazsan!
Ülvi görsən – tanımazsan!
Zəngin görsən – tanımazsan!
Tilsimdəsən!
**Tilsim sınacaq!..**

## Cəmiyyət

Cəmiyyətin məqsədi ruhanidir: insanın ləyaqətini, böyüklüyünü, qüdrətini təsdiq etmək, sonsuz, əbədi, kamil mahiyyətini aşkara çıxarmaq.

İnsan təklikdə özünə çata bilmirdi.

O, cəmdə özünə çatmaq istədi.

İnsanın daxilindəki ruhanilik – sonsuzluğa, əbədiliyə, kamilliyə meyl onu özündən kənara çıxmağa, özünü cəmiyyətdə tapmağa sövq etdi.

Buna görə də o, öz azadlığını, sərbəstliyini cəmiyyətə tabe etdi. İnsan bu tabeçiliyi təbii saydı, onunla barışdı, ona əməl etdi. Ancaq cəmiyyət insanın özünütəsdiqinə zidd oldu. İnsan cəmiyyətdə özünün ruhani təbiətinin əleyhinə yaşamağa məcbur oldu.

Cəmiyyətdə insan öz bütövlüyünü, zənginliyini, fərdi müstəqilliyini itirdi.

İnsan arzularından yaranmış cəmiyyət insani yox, antiinsani cəmiyyətdir. Cəmiyyətdə hakimiyyət cəmin hakimliyi biçimində təsdiq olunur: yəni fərd cəmin hökmünə tabe olur. Həmin hökm müxtəlif fərdlərin kollektiv hökmündən fərqlidir: bu, xüsusi cəmiyyət hökmüdür.

Fərd həmin hökmə mütləq mənada tabe olmalı, əməl etməlidir. Hakimliyin bu xüsusiyyəti özü-özlüyündə antiinsani səciyyə daşımır. Ancaq gerçəklikdə hakimlik – fərdi itaətdə saxlayan, onun azadlığını əlindən alan, iradəsini sarsıdan, taleyinə qənim kəsilən son dərəcə yad bir qüvvəyə çevrildi. Həmin qüvvə insanı yox, hakimiyyətin özünü təsdiq etməyə başladı.

Hakimiyyət hakimlə eyniləşdikdə hakim öz xudpəsənd, azğın, hərcayi arzularını, niyyətlərini həyata keçirməyə başladı.

Birinci – hər şey, ikinci – heç şey oldu.

İnsan cəmiyyət adlanan dəyirmanda üyüdüldü.

Onun həyatı, taleyi hakimin ixtiyarına verildi.

Hakim fərdin ağası oldu.

İnsan cəmiyyətdə yalnız cismani, maddi varlıq kimi mövcud oldu, onun ruhani ləyaqəti tapdalandı. Ona cismani varlıq kimi

yanaşdılar, ondan cismani varlıq kimi istifadə etdilər, onu alətə çevirdilər.

Hakim – fərdi rəiyyət səviyyəsinə endirməklə onun ruhaniliyini əlindən aldı.

Cəmiyyətdə fərd istehsal münasibətlərində iştirak edirdi. Burada o, öz mahiyyətindən uzaq düşdü. Burada onun daxili dünyası, ruhani keyfiyyətləri lazım olmadı, onun istehsal etmək funksiyası, qabiliyyəti lazım oldu, həmin qabiliyyət başqa keyfiyyətlərdən təcrid olundu.

İnsan ruhani xilqət yox, istehsalçı oldu.

Cəmiyyət silklər, siniflər yaratmaqla insanlar arasında doğmalığı aradan qaldırdı, ictimai həyatda düşmənçilik bərqərar oldu, yırtıcı duyğular, vəhşi ehtiraslar, ədalətsizlik, həqiqətsizlik, şər, qəbahət cəmiyyəti bürüdü. Cəmiyyət insanın daxilindəki naqis duyğuları alışdırdı, insan ruhaniliyini unutdu, ona yad oldu. Cəmiyyət mexaniki, ruhsuz, düşüncəsiz ifaçılıq – ictimai xidmət, hakimliyə səcdə, rütbəyə pərəstiş yaratdı.

Nəhayət, cəmiyyət insanı, fərdi mühitin quluna, alətinə, kölgəsinə çevirdi.

Mühit insanı böyütdü, ömrünü müəyyən etdi, onu istədiyi biçimə saldı və insan özünün mühitdən böyük, mühitəsığmaz mahiyyətini unutdu, bu səbəbdən də mühitə uyğunlaşmağa, ona pərçimlənməyə başladı: fəlakətli ruhsuzluq bəlası törədi. Buna baxmayaraq, cəmiyyət insanı öldürə bilmədi.

İnsan cəmiyyətin daxilində vətəndaşlıq ülviyyəti yaratdı və bu ülviyyətdə öz ruhani mahiyyətini təsdiq etdi, vətənsevərlik, xalqsevərlik səviyyəsinə ucaltdı. İnsan cəmiyyətlə barışmadı, onunla daim vuruşdu, onun antiruhani xislətini dərk etdi, cəmiyyətə sığmadı, ondan kənara çıxdı və onu öz ruhani tələbləri əsasında dəyişməyə çalışdı. Cəmiyyət maddiyyatı tərəqqinin meyarına çevirmək istədisə də, insan mənəvini özünə meyar seçdi və bu səbəbdən də cəmiyyəti bir vəziyyətdə qalmağa qoymadı. Cəmiyyətin şəxsiyyətə layiq olmaması – insan tarixinin ən dəhşətli ziddiyyətidir.

Bu ziddiyyəti aradan qaldırmaq üçün bəşər **ruhani cəmiyyət** qurmalıdır!

## Özümləşən Cəmiyyət

Özümləşən cəmiyyət – **Müstəbid əsarətindən** azad olan cəmiyyətdir.

Cəmiyyətin məqsədi – İnsanı təsdiq etməkdir.

Müstəbidlikdə insanların ləyaqəti mənimsənilir.

Müstəbid başqalarının Mənliyinə sahib olur, onları əşyalaşdırır.

Beləliklə, cəmiyyət öz Məqsədindən ayrılır.

Cəmiyyətdə özünü tapmağa çalışan İnsan özünü tam itirir və nəticədə insanla cəmiyyət arasında gərgin ziddiyyət əmələ gəlir.

İnsana yad olan cəmiyyət özünə yad olur.

Fərdiyyət yox olur, deməli, cəmiyyət də yox olur, çünki cəmiyyət müstəqil fərdlərin məcmuudur; fərdi xüsusiyyətlərini itirmiş insan – insan deyil, əşyadır, əşyaların məcmusu isə insani cəmiyyət yaratmağa qadir deyil.

Əslində insan fərdiyyət deməkdir, həmin fərdiyyət mövcudluğun ali səviyyəsində cəmiyyət ehtiyacı yaradır.

Müstəbidlik həmin ehtiyacı əsarət eybəcərliyinə çevirir.

Ancaq əslində müstəbidlik həm də müstəbidin insan kimi, şəxsiyyət kimi ölümü deməkdir.

Çünki cəmiyyətə sahib olan – özünə sahib olmur, hamının mənliyini mənimsəyən – öz mənliyini itirir; **Mütləq ağalıq Mütləq səfalət törədir.**

Bu baxımdan, müstəbidin hökm sürdüyü cəmiyyət – insanlardan məhrum olan cəmiyyətdir.

Müstəbidlik – cəmiyyətin və müstəbidin ruhani ölümüdür.

**Müstəbid cəmiyyəti – ölü cəmiyyətdir.**

**Özümləşmək – müstəbidliyi ləğv etmək, cəmiyyəti özünə qaytarmaq, insanı özünə çatdırmaq deməkdir.**

Müstəbidlik kütləvi köləlik yaradır.

Köləlik – insanın özündən əl çəkməsidir.

Özündən əl çəkən insan – özündən əl çəkən cəmiyyət törədir. Həmin cəmiyyətdə müstəbid özü qula çevrilir.

**Çünki köləşdirmək – köləşməkdir.**

**Bu nöqteyi-nəzərdən, müstəbidliyin hökm sürdüyü cəmiyyət – kölələr cəmiyyətidir.**

**Özümləşmək – kölələr cəmiyyətini İnsani cəmiyyətə çevirmək deməkdir.**

Müstəbidlik – cəmiyyətdə məzar eyniyyəti yaradır.

Həyat – müxtəlifliyin, zənginliyin, bənzərsizliyin, əvəzsizliyin təsdiqidir.

Müstəbidlik – insaniliyin əzəli mənasına ziddir.

Bu baxımdan, müstəbidlik – antihəyatdır.

Özümləşmək – antihəyati münasibətləri ləğv etmək, cəmiyyəti özünə qaytarmaq deməkdir.

Cəmiyyət – insanların ruhani birliyidir.

Həmin birlik – mənəviyyat, idrak, amal birliyindən doğur.

Zorla yaranan birlik, zorla ağıllara pərçimlənən, duyğuları zəncirləyən birlik, zülm, zillət bahasına qazanılan birlik – cəmiyyətin süqutudur.

Həmin birlikdə ruhanilik iştirak etmir, yəni İnsanilik iştirak etmir, bu səbəbdən də o, qeyri-insani birlik olur.

Həmin birlik hərtərəfli (total) yadlaşma və süni həmdəmlik törədir.

Yadlıq və sünilik – insaniliyin məğlubiyyətidir.

**Zorla yaranan birlikdə İnsan məğlub olur.**

**Özümləşmək – həmin məğlubiyyəti qələbəyə çevirmək, Zoru həyatdan silmək deməkdir.**

Yalnız ürəyin ürəyə, ağılın ağıla, iradənin iradəyə qovuşmasından doğan cəmiyyət özü olur.

**Özümləşmək** – Zorla təsdiq olunan, qəbul edilən əqidənin, düşüncə tərzinin cəmiyyətdən silinməsidir.

Düşüncə tərzi, əqidə – insanın daxili dünyasında bitməli, yetişməli, daxili dünyanın Mütləq Mahiyyətini ifadə etməlidir.

Zor idrakın ahəngini pozur, düşüncəni təbii axarından ayırır, onu öz əksinə çevirir.

İnsan öz istədiyi kimi düşünmür, istənilən kimi düşünür, insanın ağlına ağalıq edirlər.

Özünə bənzəməyən, özünə yad olan insan cəmi – insani cəmiyyət adlana bilməz.

Müstəqil düşüncədən məhrum olanlar cəmiyyəti – özünü itirmiş cəmiyyətdir.

Həmin cəmiyyəti özümləşdirmək – əqidənin Zorla qəbul edilməsi eybəcərliyini həyatdan silmək deməkdir.

Fərd cəmdə özünü tapır: cəmiyyət hadisəsinin ümdə cəhəti bundan ibarətdir.

Cəm fərdi kölə vəziyyətinə salanda – cəmiyyət özünə yad olur. Çünki cəmiyyət fərdi yüksəltmək, qorumaq, böyütmək, insani mahiyyətə bərabər etmək üçün yaranıb.

Cəm – müstəqil fərdlərin birliyi kimi həyatidir, fərdlərin əsarəti kimi – antihəyatidir.

**Özümləşmək – cəmin fərd üzərində zülmünə son qoymaq deməkdir.**

**Ən müstəqil olan – ən ictimai olandır.**

**Bu həqiqətə əsaslanan cəmiyyət – Özümləşən cəmiyyətdir.**

**Özümləşmək – Maddiyyat əsarətindən xilas olmaqdır.**

Maddiyyat insan həyatında Məqsəd yox, Vasitə olmalıdır.

Maddiyyat vasitəsiylə insan cismani yaşayır.

Maddiyyat ruhani həyat yaratmır.

Bu səbəbdən də cəmiyyət maddiyyata pərçimlənib qala bilməz. Maddiyyat cəmiyyətin məqsədi ola bilməz.

Cəmiyyətin bütün gücü, qüdrəti Maddiyyata həsr oluna bilməz. Onda cəmiyyət öz ruhani məqsədindən uzaq düşər, özünə bənzəməz.

Maddiyyat əsarətinə düçar olan cəmiyyət, yaşayışını maddiyyata həsr edən cəmiyyət, maddiyyata pərçimlənən cəmiyyət – özündən ayrılmış cəmiyyətdir.

Maddiyyat dalınca qaçan, maddiyyatı ictimailiyin meyarına çevirən cəmiyyət – özündən ayrılmış cəmiyyətdir.

İctimailiyin meyarı – ruhanilik, İnsanilik olmalıdır.

Maddiyyatı Mütləqləşdirən cəmiyyət – ruhaniliyi nisbiləşdirir və bununla da İnsaniliyə xəyanət edir.

**Özümləşmə** həmin qəbahətə son qoyur.

Maddiyyat vasitə kimi qiymətləndirilir, Məqsəd kimi qiymətləndirilmir.

Cəmiyyət bütün insanlara eyni gözlə baxan valideyn olmalıdır.

Yalnız belə olduqda cəmiyyətlə insan doğmalaşar, doğma cəmiyyət yaranar.

Bərabərsizliyi təsdiq edən cəmiyyət – özündən ayrılmış cəmiyyətdir.

Bütün insanlar cəmiyyətdə eyni imtiyazlara malik olmalıdır.

Qabiliyyət fərqi, ixtisas fərqi, silki mənsubiyyət fərqi – imtiyaz fərqi yaratmamalıdır.

Qabiliyyət bərabərsizliyi – maddi bərabərliyi, imtiyaz bərabərliyini inkar etmir, çünki qabiliyyətindən, ixtisasından asılı olmayaraq, bütün insanlar – ruhani varlıqdır, Mütləqin təzahürləridir və bu səbəbdən də cəmiyyət onlara eyni münasibət bəsləməlidir. İndiyə qədər mövcud olan cəmiyyətlərin hamısı insanların bir hissəsini əzizləyib, digər hissəsini lənətləyib.

Cəmiyyət hələlik heç vaxt bütün insanlara ana olmayıb.

Qabiliyyət – başqasının imtiyazlarını qarət etmək, güc – başqasını əsarətə salmaq niyyətinə yönəlib.

Cəmiyyət parçalanıb, paralanıb, düşmən qütblərə bölünüb, həyat uğrunda mübarizə adlanan yırtıcılıq məhəbbəti üstələyib.

Cəmiyyət özünə oxşamayıb, özünə zidd yaşayıb.

Özümləşmədə cəmiyyətin ögey analığı ölür, doğma analığı başlayır və yalnız bu zaman fərdlə cəmin əsil vəhdəti peyda olur.

**Bütün insanlar cəmiyyətdən eyni dərəcədə bəhrələnməlidir.**

**Özümləşən cəmiyyət bu həqiqəti təsdiq edir.**

**Ruhani Kamil** – özünü başqasına bərabər sayır.

**Ruhani Kamil** – cəmiyyətdən mükafat, imtiyaz ummur.

Onun mükafatı, imtiyazı kamilliyin özüdür.

Özümləşən cəmiyyət – ruhani kamillərin cəmiyyətidir.

**Kamillər – doğmalardır.**

**Özümləşmək – Yalan əsarətindən xilas olmaqdır.**

İnsanı aldadan cəmiyyət – özünə inanmır.

Xurafatı insanın ağlına, duyğularına hopduran cəmiyyət – özünə inanmır.

İnsanlardan həqiqəti gizləyən cəmiyyət – özünə inanmır.

Zülmü ədalət kimi, həqarəti ləyaqət kimi təsdiq edən cəmiyyət – özünə inanmır.

İnsanları süniliyə alışdıran cəmiyyət – özünə inanmır.

**Həqiqətə yad olan – özünə yad olur.**

**Özümləşmək – həqiqətə tapınmaqdır.**

İndiyə qədər cəmiyyət öz cüzi və nisbi səviyyəsinə nail olub.

Bu nöqteyi-nəzərdən, cəmiyyət heç vaxt tam özü olmayıb.

Cəmiyyətin tam özümləşməsi üçün onun Mütləq Mənada yeniləşməsi gərəkdir.

Bunun üçün insan öz Mahiyyətinə bərabər olmalıdır.

**İnsanilәşәn Cәmiyyәt**

**Ağanın** mənafeyinə yox, **Sinifin** mənafeyinə yox, **Silkin** mənafeyinə yox, **Mücərrəd Ümuminin**, **Hamının** mənafeyinə yox, – hər bir Şəxsin, fərdin mənafeyinə xidmət edən cəmiyyət – İnsani cəmiyyət sayıla bilər.

Bu o deməkdir ki, Maddi Mülkiyyət bir kəsin yox, Mücərrəd **Ümuminin, Hamının (Dövlətin)** yox, hər bir fərdin malı olmalıdır.

Bu o deməkdir ki, Mülkiyyətə zəhmətkeş sahib olmalıdır.

Mülkiyyətlə zəhmətkeş arasında yadlıq aradan qalxmalıdır.

Hər bir şəxs əməyinin bəhrəsini mənimsəməlidir.

Mülkiyyət – **Mücərrəd Ümuminin**, **Hamının** sərəncamına veriləndə, fərd mülkiyyətdən məhrum olanda, **Mücərrəd Ümumi** şəxsiyyətin **Ağasına** çevrilir.

Bu, fərdlə Ümumi arasında uçurum yaradır.

Cəmiyyətin bir qütbündə – Mülkiyyətə tam sahib olan Möhtəşəm Ümumi, o biri qütbündə – Mülkiyyətdən tam məhrum olan Məzlum Fərd dayanır.

Möhtəşəm Ümumi – fərdin maddi təminatını öz üzərinə götürməklə – onu şəxsi Müstəqillikdən məhrum edir.

Yeni bərabərsizlik, yeni ziddiyyət, yeni ədalətsizlik meydana gəlir: **Mücərrəd Ümuminin, Hamının (Dövlətin)** maddi əsarəti.

**Xüsusi mülkiyyət** eybəcərliyində – əməkçi başqa bir şəxs tərəfindən (kapitalist, mülkədar) istismar edilirdi, öz əməyinin sahibi olmurdu, onu əmtəə səviyyəsində satırdı.

**Ümumi** (ictimai) mülkiyyətdə – əməkçi yenə də öz əməyinə sahib olmur, Başqasının **(Mücərrəd Hamının, Dövlətin)** ağalığına məruz qalır.

**Mülkiyyəti yaradan – Mülkiyyətə sahib olmalıdır.**

Maddi sərvətləri yaradan – maddi sərvətlərə sahib olmalıdır.

Ümumiliyin hakimliyində mülkiyyəti, maddi sərvətləri yaradan – mülkiyyətdən, maddi sərvətlərin çoxundan məhrum olur.

**Mülkiyyəti yaradan mülkiyyətsiz qalır.**

**Maddi sərvətləri yaradan – Ümumidən maddi güzəran payı alır.**

Əməklə şəxsiyyət arasında özgələşmə yenidən bərpa olur.

Bir şəxsin ağalığından xilas olan zəhmətkeş, Ümumiliyin, Hamının (Dövlətin) ağalığına düçar olur.

Başını bir boyunduruqdan çıxarıb, başqa boyunduruğa salır.

Tarix iki cür **əməkçi yetimliyi** tanıyır: İstismarçıya mənsub olan mülkiyyət yetimliyi, mücərrəd Ümumiyə, Hamıya (Dövlətə) mənsub olan mülkiyyət yetimliyi.

Hər ikisində – mülkiyyəti yaradan, maddi nemətləri istehsal edən zəhmətkeş – mülkiyyətdən məhrum olur.

İnsaniləşən cəmiyyət bu ədalətsizliyə son qoymalıdır.

İnsani cəmiyyətdə **Bir Şəxsin yox, bir Sinifin yox, bir Silkin yox, Mücərrəd Ümuminin, Hamının yox, hər bir Fərdin mənəvi ləyaqəti təsdiq olunmalıdır.**

Bu o deməkdir ki, hər bir Fərd öz həyatının Rəhbəri olmalıdır: həyatını Vicdana tabe etməli, Vicdanın hökmünü eşitməlidir.

**Cəmiyyət qanunlarını Fərd Vicdan Qanunu əsasında qəbul edir, yaxud rədd edir.**

**Ömrün Sahibi cəmiyyət yox, Fərd özü olur.**

Fərd öz fəaliyyətini, düşüncələrini, duyğularını, həyat tərzini Ruhani qanunlar əsasında qiymətləndirir.

Ruhani Qanunlara cavab verməyən ictimai Qanunlar rədd edilir.

**Cəmiyyət Ailə səviyyəsinə yüksəlir.**

**Zordan imtina edən dövlət səviyyəsinə.**

**Mülkiyyətdən imtina edən dövlət səviyyəsinə.**

**Xalq yaradan dövlət səviyyəsinə.**

**Xalqı dünyada təmsil edən, qoruyan, yüksəldən dövlət səviyyəsinə.**

Maddiyyat üstünlüyündən, imtiyaz fərqindən, Ağalıq səlahiyyətindən imtina edən dövlət başçısı səviyyəsinə.

**Həmin cəmiyyətdə – fərdin özünüidarə haqqı qorunur.**

**Cəmiyyət – fərdi idarə etmir.**

**Cəmiyyət – fərdlərdən Xalq yaradır.**

Fərdlərdən xalq yaratmaq – fərdin müstəqilliyini məhv etmək deyil.

Əksinə, fərdi düşüncəni, duyğunu, həyat tərzini yeni səviyyəyə – xəlqi səviyyəyə yüksəltmək deməkdir.

Xalq fərdiyyətin inkarı yox, zirvəsidir.

Xalqda – fərd öz Başqalaşma ehtiyacını, ehtirasını təsdiq edir.

**Fərdiyyətin – Xalqlaşma səviyyəsi var.**

**Həmin səviyyə – Müstəqillik ləyaqəti tələb edir.**

**Cəmiyyətin əsil Məqsədi Müstəqil fərdlərdən Xalq yaratmaqdır.**

**Xalq nədir?**

**Sinfi, Silki ziddiyyətlərin aradan qalxması nəticəsində yaranan ictimai birlik.**

(Zidd qütblərə, qruplara bölünən, parçalanan xalq – xalq deyil).

Ümumi etiqad, İnam, Fəlsəfi Fikir, Bədiyyat, Dil əsasında yaranan ruhani birlik.

(Ruhani birlik olmayan yerdə Xalq yoxdur).

Ümumi adət-ənənəyə əsaslanan məişət birliyi.

(Məişət birliyi olmayan yerdə – Xalq yoxdur!)

Ümumi tale əsasında yaranan – Tarixi birlik.

(Tarixi birlik olmayan yerdə – Xalq yoxdur!)

Müqəddəsləşən Torpaq, Vətən birliyi.

(Torpaqsızlaşmaq – Xalqsızlaşmaqdır!)

Müstəqil Dövlət əsasında yaranan siyasi birlik.

(Bunsuz xalq yoxdur, yəni xalqın dünyada yeri yoxdur).

Ümumi mənəvi qanunlar əsasında yaranan Əxlaq birliyi.

(Əxlaq birliyi olmayan yerdə xalq yoxdur).

Əcdad ümumiliyinə əsaslanan Etnos birliyi.

(Etnos birliyi olmayan yerdə – xalq yoxdur).

Yalnız müstəqil olan – xəlqi birliyə can atar.

Çünki yalnız müstəqil olan – özü olur.

Özü olan isə mütləq başqalaşır.

Kölə – xəlqi birlik aramaz.

Çünki kölə – özünü itirmiş fərddir.

**Özünü itirən – başqalaşmaz.**

İndiyə qədər bəşər – xalq tanımayıb.

Çünki ruhani cəmiyyət tanımayıb, müstəqil fərd tanımayıb.

İndiyə qədər dövlətlər yaranıb, əsil xalq yaranmayıb, fitnə-fəsad, qan-qada törəyib – əsil xalq yaranmayıb.

İndiyə qədər dövlət öz məqsədini fərdi əsarətə salmaqda görüb.

İndiyə qədər Ümumiliklə, Hamıyla, Dövlətlə – Fərdiyyət arasında keçilməz sədd, uçurum mövcud olub.

**Ya Dövlət, ya Fərd deyiblər.**

**Fərdi Ümumiliyə təhkim ediblər və Xəlqi Ümumilikdən məhrum olublar.**

Ümumi Ağalığı yaradıblar və Ümumidə Fərdi itiriblər, insansızlaşıblar.

İnsani cəmiyyətin başında ən Kamil Ruhani ləyaqət sahibi durmalıdır.

Xəlqi Amal yolunda özündən ən çox keçən, Mənəvi Qanunlara ən çox riayət edən, öz balaca «Mən»indən ən çox imtina edən, **Həyatdan ən az alan, həyata ən çox verən, Zor Səlahiyyətindən Mütləq Mənada əl çəkən, Mülkiyyətsiz, Varidatsız Şəxsiyyət!**

Xalqa xidmət edən – balaca «Mən»ə xidmət etməz!

Xalqı sərvət sayan – varidata həvəslənməz!

Ən cüzi güzəran – ən böyük fəaliyyət!

Hər şeyə malik olmaq və heç nəyə malik olmamaq!

Özünü özündə itirmək və Xalqda tapmaq!

Cəmiyyəti xalq səviyyəsinə qaldırmaq, yəni insaniləşdirmək!

**Hamıdan əskik yaşamaq və hamıdan artıq yaşamaq!**

**İnsaniləşən Cəmiyyət – Müstəqilləşən Fərd, Yaranan Xalq, Mülkiyyətləşən Əməkçi və Mütləqləşən Başçı deməkdir.**

## Cəmiyyət meyarı

İnsanı kölələşdirən Cəmiyyət yox,
Ülviləşdirən Cəmiyyət!
Əyriyə xidmət edən Cəmiyyət yox,
Doğruya xidmət edən Cəmiyyət!
Hakimə xidmət edən Cəmiyyət yox,
Xalqa xidmət edən Cəmiyyət!
Dəllal Cəmiyyət yox – Halal Cəmiyyət!
Qatil Cəmiyyət yox – Adil Cəmiyyət!
Qəddar Cəmiyyət yox – Sərraf Cəmiyyət!
Hiyləgər Cəmiyyət yox – Hünərvər Cəmiyyət!
Riyalı Cəmiyyət yox – İlqarlı Cəmiyyət!
Boyalı Cəmiyyət yox – Ziyalı Cəmiyyət!
Müstəbid Cəmiyyət yox – İgid Cəmiyyət!
Zəhərli Cəmiyyət yox – Dəyərli Cəmiyyət!
Düşmən Cəmiyyət yox – Həmdəm Cəmiyyət!
Dəyirman Cəmiyyət yox – Dərman Cəmiyyət!

Quldur Cəmiyyət yox – Qadır Cəmiyyət!
Cəllad Cəmiyyət yox – Azad Cəmiyyət!
İlan Cəmiyyət yox – İnsani Cəmiyyət!
Təlxək Cəmiyyət yox – Fərəhli Cəmiyyət!
Həyasız Cəmiyyət yox – Ləkəsiz Cəmiyyət!
Aktyorluq əvəzinə – Səmimiyyət!
Mükafat əvəzinə – Ləyaqət!
Məddahlıq əvəzinə – Həqiqət!
Varidat əvəzinə – İnsaniyyət!
Şüar əvəzinə – Hüquq!
Quyu əvəzinə – İşıq!
İntiqam əvəzinə – Cəza!
Rütbə əvəzinə – Zəka!
Zahirin Daxilə bənzərliyi!
Biçimin Məzmuna bənzərliyi!
Niyyətin Təzahürə bənzərliyi!
Xain qıtlığı.
Oyun qıtlığı.
Avam qıtlığı.
Çirkab qıtlığı.
Əzab qıtlığı.
Ölü Qıtlığı.
Zülm Qıtlığı.
Minnətli Çörək qıtlığı!
Zillətli Əmək qıtlığı!
Yalançı Loğmanlıq qıtlığı!
Yalançı Qəhrəmanlıq qıtlığı!
Yalançı Xilaskarlıq qıtlığı!
Yalançı Nəhənglik qıtlığı!
Yalançı Sədalar qıtlığı!
Eybəcər Ədalar qıtlığı!
Satılmış İlhamlar qıtlığı!
Hərcayi İnamlar qıtlığı!
Yalançı Nəvaziş qıtlığı!
Maddiyə Pərəstiş qıtlığı!
Böhtana Bulaşmaq qıtlığı!
Günaha Alışmaq qıtlığı!

Mənəvi Əlillər qıtlığı!
Möhtəşəm Zəlillər qıtlığı!
Qaranlıq Aydınlar qıtlığı!
Yalançı Qadınlar qıtlığı!
Yalançı Aşiqlər qıtlığı!
Yalançı Dahilər qıtlığı!
Yalançı Kahinlər qıtlığı!
Yalançı Böyüklər qıtlığı!
Yalançı İgidlər qıtlığı!
Namərd Mərdlər qıtlığı!
İsmətsiz İsmətlilər qıtlığı!
Azğın Mülayimlər qıtlığı!
Qatil Xeyirxahlar qıtlığı!
Cahil Qabillər qıtlığı!
Rəhmsiz Rəhmlilər qıtlığı!
Vətənsiz Vətənsevərlər qıtlığı!
Duyğusuz Duyğular qıtlığı!
Vicdansız Vicdanlar qıtlığı!
Kölə Sahiblər qıtlığı!
Naşı Ariflər qıtlığı!
Şöhrətsiz Şöhrətlilər qıtlığı!
Topal Sağlamlar qıtlığı!
Ali görünənlər qıtlığı!
Munis görünənlər qıtlığı!
Xalis görünənlər qıtlığı!

İnsanı özünə çatdıran Cəmiyyət!
Maddini Mənəviyə qaldıran Cəmiyyət!
Həyatı Mütləqə yüksəldən Cəmiyyət!

## Mütləq Tələb

**İctimai İnqilab** – cəmiyyəti baş-ayaq qoyur və çox cüzi nəticə əldə edir.

Azadlıq, Bərabərlik, Qardaşlıq... şüarlarının heç biri həyata keçmədi.

İnqilab həm də cəmiyyəti məhv olmaq təhlükəsi qarşısında qoyur.

Fransanı əslində Monarxizmi bərpa edən Napoleon xilas etdi.

Rusiyanı əslində totalitarizmi (Mütləq Dövlət Hakimiyyətini) təsdiq edən Stalin xilas etdi.

**Ruhani İntibah** – insanların İnamını, İdrakını, Mənəviyyatını, İradəsini kamilləşdirir və çox böyük nəticələr əldə edir: bəşəri mənəvi iflasdan, vəhşilikdən, əxlaq süqutundan qurtarır.

Ruhani hərəkatlar olmasaydı (məs. Zərdüşt hərəkatı, Budda hərəkatı, İsa hərəkatı və s.) insanlar yırtıcılıq və murdarlıq cəngəlliyində itib-batardılar.

**İnqilab** insanı köhnə cəmiyyətin zülmündən xilas etmək istəyir, ancaq əslində yeni əsarət yaradır. Ən yaxşı halda Möhtəşəm, Zorlu Dövlət peyda olur və həmin Dövlət insanı öz köləsinə çevirir.

İnsan üçün yaranmış yeni Dövlət İnsanı bütünlüklə zəbt edir: İnsan bir şəxsiyyət kimi heç səviyyəsinə endirilir, misilsiz bir antiinsanilik – **insanilik bayrağı altında antiinsanilik** – bərqərar olur.

Köhnə ictimai-siyasi quruluş devrilir, ancaq İnsanın qaranlıq iqbalına gün düşmür. Mülkiyyət ümumiləşir (ictimailəşir, dövlətləşir), ancaq İnsanın qaranlıq iqbalına gün düşmür.

İstismarçı siniflər ləğv olunur, ancaq İnsanın qaranlıq iqbalına gün düşmür.

“Kiçik xalqlar”ı azadlığa çıxarırlar, əslində isə onun azadlığını – müstəqil yaşamaq haqqını – əlindən alırlar.

Bərabərlikdən danışırlar – bərabərsizlik yaradırlar: imtiyazlar təzadı, maddi təminat fərqi ədalətə meydan oxuyur.

Təzə əyanlar, zadəganlar silkləri törəyib.

“Vahid ideologiya əsasında yaranan xalq” şüarı altında millətləri tədricən, ardıcıl şəkildə, məharətlə, “qardaşcasına”, “böyük xalq”ın damlasına çevirirlər.

Dinlə döyüş şüarı altında Mütləqə İnamı sarsıdırlar.
Qabaqcıl İdrak şüarı altında idraksızlıq yayırlar.
Qabaqcıl Əxlaq şüarı altında əxlaqsızlıq yayırlar.
Vahid İradə şüarı altında iradəsizlik yayırlar.
Bu fəlakətli vəziyyət Mütləq bir tələb – Ruhani İntibah (Dirçəliş) Tələbi irəli sürür.
Ruhani İntibahın Məqsədi aşağıdakılardan ibarətdir:
I. Mütləqə İnamı təsdiq etmək.
II. Ruhani Varlıq olan İnsanı Kamilləşdirmək, Yüksəltmək, öz Mütləq Mahiyyətinə çatdırmaq.
III. Müstəqil, Azad, Vahid Xalq yaratmaq.
IV. İnsana layiq olan Ruhani Cəmiyyət qurmaq.
V. Şərqin Ruhani Ləyaqətini bərpa etmək.
VI. Bəşəri İnamsızlıq, İdraksızlıq, Mənəviyyatsızlıq, İradəsizlik bəlasından qurtarmaq.
**Mütləq Tələb – Müqəddəs Tələbdir!** Bu Tələbi həyata keçirmək üçün Müqəddəsləşmək gərəkdir.
Bu baxımdan, **Mütləq Tələb həm də Müqəddəsləşmək Tələbidir!**

## Tarixə baxış

Bəşər Tarixi – iqtisadiyyat tarixi deyil, ictimai siniflər tarixi deyil.
**Bəşər tarixi İnsan tarixidir.**
İnsan özünü tarixdə iki biçimdə: İnsani Mahiyyət (yəni İnsanı heyvanat dünyasından fərqləndirən keyfiyyətlər) və Fərdlər biçimində ifadə edir.
Bəşər tarixində nə baş verirsə, onun əsasını İnsani Mahiyyət və Fərdlər fəaliyyəti təşkil edir.
**İqtisadiyyat** – İnsani Mahiyyətdən və Fərdlərdən asılıdır.
**Siniflər** – İnsani Mahiyyətdən və Fərdlərdən asılıdır.
İnsani Mahiyyət, Fərdlər – iqtisadiyyatdan əhəmiyyətlidir.
İnsani Mahiyyət, Fərdlər – Siniflərdən əhəmiyyətlidir.

İqtisadiyyatı cəmiyyətin aparıcı qüvvəsi saymaq – zahiri təsəvvürlərə uymaqdır, üzdə olanı görməkdir, Mahiyyətə, Daxilə, Batinə nüfuz edə bilməməkdir.

Sinfi fəaliyyəti cəmiyyətin aparıcı qüvvəsi saymaq – zahiri təsəvvürlərə uymaqdır, üzdə olanı görməkdir, Mahiyyətə, Daxilə, Batinə nüfuz edə bilməməkdir.

İqtisadiyyatın arxasında – İnsan dayanır.

Sinifin arxasında – Fərd dayanır.

**İqtisadiyyat** – əlamətdir, Mahiyyət deyil.

**Sinif** – əlamətdir, Mahiyyət deyil.

**Mahiyyət – İnsanilikdir və o, canlı fərdlərdə Təzahür edir.**

## Azadlıq

I

Azad Yırtıcı – Müdhiş Əsarət yaradır.
Azad Hərcayi – Müdhiş Əsarət yaradır.
Azad Xudbin – Müdhiş Əsarət yaradır.
Azad Həris – Müdhiş Əsarət yaradır.
Azad Əyyaş – Müdhiş Əsarət yaradır.
Bəşəri yalnız İnsanlar Azad edə bilər.
Yalnız İnsanlaşan bəşər Azad ola bilər.

II

"Azadlıq Haqsızlıq törədir!" – deyirlər.
"Azadlıq Qəddarlıq törədir!" – deyirlər.
"Azadlıq İstismar törədir!" – deyirlər.

"İnsanilikdən kənar Azadlıq yoxdur!" – deyirik.
"İnsanilik Haqsızlıq törətməz!" – deyirik.
"İnsanilik Qəddarlıq törətməz!" – deyirik.
"İnsanilik İstismar törətməz!" – deyirik.

III

Heç kəsin əsarətini qəbul etmirəm, heç kəsin azadlığına qəsd etmirəm.

IV

İnsan öz balaca “Mən”inə bərabər olanda kölə olur.

İnsan öz böyük “Mən”inə bərabər olanda Azad olur.

Balaca “Mən”də Yırtıcı yaşayır, Hərcayi yaşayır, Xudbin yaşayır, Həris yaşayır, Əyyaş yaşayır.

Böyük “Mən”də Yırtıcı ölür, Hərcayi ölür, Xudbin ölür, Həris ölür, Əyyaş ölür.

**Azad İnsan – Azad Dünya yaradır.**

V

Hamının Azad olması üçün – hamının İnsan olması gərəkdir.

VI

Hamı Azad olmaq istəyir, hamı İnsan olmaq istəmir.
Bu səbəbdən də Bəşər Köləlikdən qurtarmır.
İçindəki Yırtıcılıq aşkara çıxır - əsarət doğulur.
İçindəki Hərcayi aşkara çıxır - əsarət doğulur.
İçindəki Xudbin aşkara çıxır - əsarət doğulur.
İçindəki Əyyaş aşkara çıxır - əsarət doğulur.

VII

**Hamı Azad ola bilər – hamı İnsan ola bilsə.**

## ÖZÜMLÜ ŞƏRQ

### Şərq-Qərb

Şərq bir zamanlar müəllim idi, öyrədirdi, indi Qərbi təqlid edir, onun arxasınca addımlayır, ona oxşamasıyla öyünür.

Şərq bir zamanlar yeni İdeyalar, formalar yaradırdı, indi həmin Məzmunu, Biçimi Qərbdən mənimsəyir.

Geyimdən başlamış, siyasi üsul-idarəyə, ictimai doktrinaya, İdeala, Fəlsəfi Fikrə, Bədiiyyata qədər nə varsa, hamısını Şərq Qərbdən götürür.

Bir zamanlar Şərq Şərq olmağıyla fəxr edirdi, indi "mən Şərq deyiləm, mən elə Qərbəm" – deyə bağırır.

"Düşüncəm Qərb Düşüncəsidir, Duyğularım Qərb Duyğularıdır, Adətlərim, Həyat Tərzim, Məişətim Qərbvaridir, Özüm olmaq istəmirəm, Qərb olmaq istəyirəm.

"Avropalaşmalı" – deyə haray qoparıram.

Qərb müəssisələrini Şərqə gətirirəm, Şərq torpağında Qərb meyvəsi bitirirəm və bunu vüqarla aləmə bəyan edirəm. Sözdə irqçiliyin əleyhinə çıxıram, əməldə isə "Qərb hər şeydir" – ideyasını naşıcasına, miskincəsinə təsdiq edirəm.

Üsul-idarəm – Qərb üsul-idarəsi, müəssisələrim – Qərb müəssisəsi, İdealım – Qərb İdealı…

Qərbə qovuşuram, Qərbdə itirəm, ancaq fəlakətimi tərəqqi sayıram!

Özümə təskinlik vermək üçün – "Bəşər vahiddir, onu Şərqə və Qərbə bölmək olmaz" – deyirəm və unuduram ki, Bəşər müxtəlifliyin Vəhdəti kimi birdir, yeknəsəqliyin təsdiqi kimi yox!

Miskincəsinə, avamcasına unuduram ki, Şərqin Qərbləşməsi Qərbin Şərq Xalqlarını əsarətə salması üçün ən gözəl vasitədir".

Mən sənin əbədi qəyyumunam!

Sən məni eşitməlisən, mən deyən kimi yaşamalısan.

Mən sənə tarix tərəfindən əbədilik rəhbər təyin olunmuşam, sən mən deyən, mən istəyən Şərq olacaqsan!

Qərbləşməyə can atmaqla Şərq özünü əjdahanın ağzına atır, vüqarla Mənəvi səfalətə doğru addımlayır və anlamır ki, ayılıb görəcək Şərq Dünyasından heç nə qalmayıb.

Şərqin belə fəlakətli vəziyyətə düşməsinin səbəbi nədir? Birinci səbəbi odur ki, iqtisadi inkişafı tərəqqinin meyarı saydılar. Əgər Qərb Şərqi iqtisadi cəhətdən ötübsə, deməli, o, hər cəhətdən

Şərqdən üstündür. Deməli, onun Mədəniyyəti də, İctimai İdealı da, Həyat Tərzi də təqlidə layiqdir. Deməli, Avropalaşmaq lazımdır, Avropada nə varsa, Şərqə köçürmək lazımdır. Şərqin öz Fəlsəfəsini, Üsul-İdarəsini yaratmağa ehtiyacı yoxdur. Əgər Avropanın maşını çoxdursa, deməli, Ləyaqəti də çoxdur.

"Qərb balonlarda gəzir, biz isə avtomobil minməyiriz" – deməli, avtomobilə minməklə biz tərəqqinin ön sırasına çıxacağıq. Şərq dəhşətli yanlışlığa, fəlakətli naşılığa yol verdi, avtomobilə minməyi tərəqqiylə eyniləşdirdi.

İndi Şərq artıq balonlarda gəzir, ancaq tarixinin ən ağır illərini keçirir.

Şərq hay-küyə uydu, uzaqgörənlik göstərmədi, indi Qərb filosofları özləri maşın sivilizasiyasının Bəşərə səadət gətirmədiyini, əksinə, zillət gətirdiyini təsdiq edirlər.

Şərq avtomobilə minməliydi, minəcəkdi, ancaq bundan ötrü öz Dünyasından əl çəkməməliydi, anlamalıydı ki, İqtisadi Tərəqqi avtomatik şəkildə Mənəvi, İctimai, Siyasi Tərəqqi yaratmır, bu səbəbdən də Qərbdə hökm sürən Üsul-İdarəni, Mədəniyyəti süni surətdə Şərqə köçürmək, calamaq olmaz, bu, eybəcərlik törədər.

Qərb öz nailiyyətləri ilə Şərqin gözünü qamaşdıra bildi, Şərq Sabahı görmədi.

Heç bir Şərq ölkəsində parlament sistemi özünü doğrultmadı, Qərb Fəlsəfəsi Cərəyanlarının heç biri Şərq İdrakına təkan vermədi, Şərq pozitivistləri Kantların, Yasperslərin yanında heç görünmürlər də.

Şərq öz bədii ənənəsini davam etdirmədi, Qərb ənənəsini mənimsədi və bu səbəbdən də Sənət Zirvəsi yarada bilmədi. Şərq öz Mədəniyyətinə Qərbin gözü ilə baxdı, Qərb rasionalizminin, praqmatizminin ölçüsüylə yanaşdı, özündən ayrıldı.

Ona elə gəldi ki, Tarixində, Qədimliyində nailiyyəti azdır, yalnız Qərbləşəndən, Avropalaşandan sonra onun əsl tarixi başlanacaq.

Şərq özünü inandırdı ki, onun dünəni despotçuluqdan, qəsb-karlıqdan və xurafatdan ibarətdir və bu səbəbdən də onun özünə əsaslanmağa, öz ənənələri əsasında təbii şəkildə inkişaf etməyə imkanı yoxdur, o, özünü rədd edib, Avropanı qəbul etməlidir.

Əslində isə Şərqin öz yoluyla getmək, öz ənənələri əsasında müasir mədəniyyət yaratmaq üçün hər cür imkanı var idi. Zərdüştdən, Buddadan başlayan, Sufilik, Hürufilik səviyyəsinə yüksələn Fəlsəfi İdeyalar əsasında orijinal Şərq Fəlsəfəsi yaratmaq mümkün idi.

Qərb Şərqin Fəlsəfi Siqlətini özündən yaxşı anladı, ondan bəhrələndi, onun təsiriylə Həyat Fəlsəfəsi, İntiutivizm və s. yaratdı.

Şərq Avropalaşmaya qapılan zaman Avropanın Tolstoyları, Şveyserləri Şərq Düşüncəsinə, Bədiiyyatına, Mənəviyyatına üz tutdular…

Şərq öz siyasi tarixinə daha ciddi, daha diqqətli və daha yetkin yanaşsaydı, onda Şərq despotçuluğundan başqa Şərq Müdrikliyi, Şərq Möhtəşəmliyi, Şərq Müqəddəsliyi, Şərq Mətanəti də görərdi, Qərbdən üsul-idarə mənimsəməzdi.

Ümumbəşəri Bədiiyyatın Zirvələrindən olan Şərq Sənətini də Şərq düzgün qiymətləndirmədi. O, belə hesab etdi ki, müasir dövrdə ona arxalanmaq olmaz, o, vaxtı keçmiş arxaik hadisədir, Qərb sənətinə əsaslanmaq lazımdır.

Övladlar Atalarına layiq olmadılar və tədricən Şərq Qərbin bədii əyalətinə çevrildi.

Şərq çox şeydə yanıldı: ona elə gəldi ki, Qərb kapitalistləşirsə, o da kapitalistləşməlidir, Qərb sənayeləşirsə, o da mütləq sənayeləşməlidir, yoxsa məhv olar.

Əslində isə onu kapitalistləşmə, sənayeləşmə məhv etdi: bunları Şərq öz qüvvəsiylə həyata keçirə bilmədi, Qərbə üz tutdu, Qərb isə Şərqə sənayeləşmə ilə yanaşı, əsarət gətirdi. Şərq elə hesab etdi ki, əgər Qərbdə yeni bir ictimai cərəyan yaranırsa və bu cərəyan əsasında Dünyanı cənnətə döndərirlərsə, o, bu axından kənarda qala bilməz, tezliklə "nicat doktrinasını" qəbul edib cənnətə hamıdan tez çatmalıdır. Şərqin Qərbçilik dövrü ona ağır başa gəldi.

İndi o, özünə qayıtmalıdır, ya da Qərbin bulanıq sularında qərq olmalıdır.

## Qayıtma

İnsan Özündən ayrılıb – onu Özünə qaytarmaq lazımdır! Şərq Özündən ayrılıb – onu Özünə qaytarmaq lazımdır! Azərbaycan Özündən ayrılıb – onu Özünə qaytarmaq lazımdır!

İnsanı Özünə qaytarmaq üçün Ona normal maddi şərait yaratmaq lazımdır. Bu, ilkin və ibtidai tələbdir.

İnsanı Özünə qaytarmaq üçün Ona Yeni İdrak, Yeni Mənəviyyat, Yeni Hissiyyat, **Yeni Həyat İdealı lazımdır**. Bunun üçün **keçmişə qayıtmaq** tələb olunur.

Müqəddəsliyə pərəstiş duyğusunu bərpa etmək gərəkdir. Bunun üçün Dinin alleqorik şəkildə ifadə etdiyi **Ruhani İdeyalara, Duyğulara qayıtmaq** tələb olunur.

İnsansevərliyə, Məhəbbətə qayıtmaq gərəkdir. Bunun üçün **İdealizmin Ruhani Paklığına, Füzulilərin, Nəsimilərin Ehtizazına, Vəcdinə qayıtmaq tələb olunur.**

Qəhrəmanlıq, Fədakarlıq, Özündənkeçmə Ehtirasına qayıtmaq gərəkdir.

Bunun üçün **Babəklərin, Cordano Brunoların, Yan Qusların Dünyasına qayıtmaq tələb olunur.**

Ailə Qüdsiyyətini bərpa etmək gərəkdir. Bunun üçün **Qədim Adətlərə, Qaydalara qayıtmaq** tələb olunur.

Qadınlıq Ləyaqətini bərpa etmək gərəkdir. Bunun üçün **Qədim Qadınlığa qayıtmaq** tələb olunur.

Kişilik Əzəmətini bərpa etmək gərəkdir. Bunun üçün **Qədim Kişilərə bənzəməliyik**.

İnsanın Torpaq ilə Doğmalığını bərpa etmək gərəkdir. Bunun üçün ona **torpaqdan nə isə düşməlidir**.

İnsanı Heyvani Həyat tərzindən, əşyalaşma fəlakətindən, var-dövlət əsarətindən qurtarmaq lazımdır. Bunun üçün **Buddaların, C.Rumilərin Ruhuna qayıtmaq** tələb olunur!

İnsanın Gözəlliklə, Bədiiyyatla təmasını bərpa etmək lazımdır. Bunun üçün **Təbiətə Ruhani münasibətə, Qədim, Əbədi Bədiiyyata qayıtmaq** tələb olunur.

İnsanın Vətənsevərlik Ehtirasını bərpa etmək lazımdır. Bunun üçün **Vətənlə bir olmaq Ülviyyəti** tələb olunur.

İnsanın Mənəvi Müstəqilliyini bərpa etmək lazımdır. Bunun üçün onu **mühitin təsirindən qurtarmaq** tələb olunur. İnsanı daxilində yaşayan Şərdən, Eybəcərlikdən, Naqislikdən qurtarmaq lazımdır.

Bunun üçün **Özüylədöyüş Hikmətinə qayıtmaq** tələb olunur.

Şərq Özünəməxsus Dövlət Quruluşu, İctimai-Siyasi Doktrina, İdeal, Fəlsəfə, Bədiiyyat yaradanda, Qərbi təqlid etməkdən əl çəkəndə, öz Adət-Ənənələrinə arxalananda **Özünə qayıdacaq**.

Şərq özünün Dünənini Bugünündən, Qədimliyini Müasirliyindən, Tarixini indiki nailiyyətlərindən Üstün sayanda **Özünə qayıdacaq**. Bunun üçün ardıcıl və dərin **Özünüdərketmə və Özünüdəyişdirmə Qüdrəti** tələb olunur.

Azərbaycanın Özünə qayıtması – **Özünü Müstəqil İctimai, Mənəvi Varlıq** kimi dərk və təsdiq etməsilə bağlıdır. Azərbaycan – Müstəqil İctimai, Mənəvi Varlığa çevrilmədən, Qədim Ənənələri əsasında Özünəməxsus Ruhani Sərvətlər yaratmadan, Taleyini öz əlinə almadan, Özünün Ümumşərqi, Ümumtürk Xislətini bərpa etmədən, Qəyyumluq İmtiyazlarını həmişəlik rədd etmədən Öz Xəlqi

Mahiyyətini təsdiq edə bilməz. **Xalqı Özünün qeydinə qalmağa, Özünə sahib olmağa çağırmaq lazımdır.**

Onu yanlış fikirlərdən, avam xülyalardan, yalançı vətənsevərlərdən qorumaq gərəkdir.

Azərbaycanı mücərrəd vahidliyin vəhdəti kimi yox, orijinal, canlı, konkret hadisə kimi Xalqa öyrətmək lazımdır. **Xalqı Müstəqil Həyata çağırmaq, hazırlamaq və yetirmək gərəkdir**.

Üç Böyük Qayıtmanı təmin etmək üçün **dördüncü bir Qayıtmaya** da zəruri ehtiyac yaranır. Qədimdə Dini, Fəlsəfi və Bədii Fikir bir idilər. Sonralar onlar ayrıldı, hər biri öz yoluyla getdi.

İndi yenidən bir-birinə qovuşmalıdırlar.

**İndi Xüsusi Din, Xüsusi Fəlsəfə, Xüsusi Sənətlə yanaşı, onları özündə cəmləşdirən, onların üzvi, təbii Birliyi olan Ali Söz yaranır.**

**Həmin Söz Xəlqi, Şərqi, Ümumbəşəri İntibaha Rəhbərlik edəcək!**

***

**Qərb – madiyyatı bəşərin idealına çevirə bildi və bəşəri arxasınca apara bildi.**

**Şərq – ruhaniyyatı bəşərin idealına çevirə bilmədi**, bəşəri öz arxasınca apara bilmədi.

Qərbin qələbəsi - əslində bəşərin məğlubiyyəti idi.

Şərqin məğlubiyyəti - əslində bəşərin məğlubiyyəti idi.

20-ci yüz il Qərbə üstünlük verir.

**Sabah - Şərqindir!**

### Şərə qarşı Xeyir

Mütləq İnam – İnamsızlığın sonu deməkdir.
Mütləq İdrak – İdraksızlığın sonu deməkdir.
Mütləq Mənəviyyat – Mənəviyyatsızlığın sonu deməkdir.
Mütləq İradə – İradəsizliyin sonu deməkdir.
Şəri Xeyir öldürər – Şər öldürməz.

# ƏLAVƏLƏR

## 1. TƏMACLAR, RICALAR

### ÖZÜNDƏKİ MÜTLƏQLƏ SƏHƏR TƏMASI

**(Səhər saat 8 - 10 arası deyilir)**

Məndə Məndən Yüksək olan Mütləq Məna!
Məndəki Qorxunu Məndən al!
Məndəki Həsədi Məndən al!
Məndəki Köləni Məndən al!
Məndəki Xəbisi Məndən al!
Məndəki Cahili Məndən al!
Məndəki Vəhşini Məndən al!
Məndəki Hərisi Məndən al!
Məndəki Zalımı Məndən al!
Məni Özümə çatdır!

Nisbi Cəsarəti Məndən al!
Nisbi Heyrəti Məndən al!
Nisbi Vüqarı Məndən al!
Nisbi Saflığı Məndən al!
Nisbi Doğruluğu Məndən al!
Nisbi İnsaniliyi Məndən al!
Nisbi Ləyaqəti Məndən al!
Nisbi Mərhəməti Məndən al!
Məni Özümə çatdır!

Nisbi İnamı Məndən al!
Nisbi İdrakı Məndən al!
Nisbi Mənəviyyatı Məndən al!
Nisbi İradəni Məndən al!
Məni Özümə çatdır!

Mütləqə tapınım - Nisbiyə tapınmayım!
Həqiqətə tapınım - Yalana tapınmayım!
Vicdana tapınım - Zora tapınmayım!
İnsana tapınım - Zamana tapınmayım!
Özümə çatım!

## ATAYA SƏHƏR RİCASI
**(Səhər saat 8 - 10 arası deyilir)**

Atam - Mütləqim!
Ağlıma İşıq ver!
Ürəyimə Qüvvət ver!
İradəmə Qətiyyət ver!
Yalana uymayım!
Çirkaba bulaşmayım!
Günaha batmayım!
Qəbahətə əyilməyim!
Rəzalətlə barışmayım!
Özümə yad olmayım!

***

## TƏBİƏTDƏKİ MÜTLƏQLƏ GÜNDÜZ TƏMASI
**(Gündüz saat 12 – 14 arası deyilir)**

Təbiətdə Təbiətdən Yüksək olan Məna!
Dağların vüqarında Mənliyim yaşayır - Ona çatım!
Çayların axarında Mənliyim yaşayır - Ona çatım!
Səmanın ucalığında Mənliyim yaşayır - Ona çatım!
Günəşin şəfqətində Mənliyim yaşayır - Ona çatım!
Qürubun qübarında Mənliyim yaşayır - Ona çatım!
Gecənin sehrində Mənliyim yaşayır - Ona çatım!
Səhərin cəzbində Mənliyim yaşayır - Ona çatım!
Səndəki Özümlüyümə çatım!

## ATAYA GÜNORTA RİCASI
**(Gündüz saat 12 – 14 arası deyilir)**

Atam - Mütləqim!
Yalanla görüşdüm - yalançı olmadım!
Çirkabla görüşdüm - çirklənmədim!
Günahla görüşdüm - günahkar olmadım!
Qəbahətlə görüşdüm - əyilmədim!
Rəzalətlə görüşdüm - barışmadım!

Özümə yad olmadım!
Ağlım İşıqlıydı!
Ürəyim Qüvvətliydi!
İradəm Qətiyyətliydi!
Atalıydım - Mütləqliydim!

***

## DÜNYADAKI MÜTLƏQLƏ AXŞAM TƏMASI

**(Axşam saat 20 – 22 arası deyilir)**

Dünyada Dünyadan Yüksək olan Məna!
Əzəliyə qovuşum - Ötəridən keçim!
Əbədiyə qovuşum - Keçicidən keçim!
Sonsuza qovuşum - Sonludan keçim!
Kamilə qovuşum – Qeyri - Kamildən keçim!

Ötərini Əzəli saymayım!
Keçicini Əbədi saymayım!
Sonlunu Sonsuz saymayım!
Qeyri - Kamili Kamil saymayım!

Hadisədə qalmayım - Mahiyyətə çatım!
Gerçəklikdə qalmayım - Mahiyyətə çatım!
Şəraitdə qalmayım - Mahiyyətə çatım!
Mühitdə qalmayım - Mahiyyətə çatım!
Səndəki Özümlüyümə çatım!

## ATAYA AXŞAM RİCASI

**(Axşam saat 20 – 22 arası deyilir)**

Atam - Mütləqim!
Günüm keçdi!
Sənə bir addım da yaxınlaşdım.
Məni özünə qovuşdur!
Ağlımı Ağlınla,
Qəlbimi Qəlbinlə,
İradəmi İradənlə işıqlandır-
Sənə layiq olum!

## 2. İNAM ATA

## KUTSAL BİTİQLƏR

## (MÜQƏDDƏS KİTABLAR)
**10 clddə**

**Nəşrin ümumi adı:**

**KUTSAL ONLUQ, qısaca ONLUQ**

| Bitiq (cild) sırası | Bitiyin adı | İçindəki Əsərlər |
|---|---|---|
| I | ***Mütləqə İnam*** | Mütləqə İnam |
| II | ***Mütləqləşmək – Var olmaq*** | Mütləqləşmək – Var olmaq |
| III | ***Anlam İnsaniliyi*** | Təzadlar; Rəmzlər; Mənalar |
| IV | ***Görmək İnsaniliyi*** | Mütləqilik; Olan və Olmayan; Varlıq – Yoxluq; Ruhani Xətt; Münasibətlər; Hallar |
| V | ***Fəlsəfənin Təməli*** | İnam Fəlsəfəsi; Təməl |
| VI | ***Kutsal Quruculuq*** | Yol.Ata Sözü; Sədaqət; Ruhani Hökmlər; Ruhani Sənədlər; Müqəddəs Kəlamlar |
| VII | ***Yetməli Olduğunuz*** | Adamlıq – İnsanlıq; Adamdan – İnsana; İnsana Yaramaq; Özümlük – Özgəlik; Dünənçilik – Sabahçılıq; İnsanilikdən Yaranan; Müqəddəslik; İnsanilik İmkanı; Həqiqət İnsaniliyi; İnsanilik |
| VIII | ***Özüllər Özülü*** | Ruhaniyyat; Əxlaq; Mahiyyət |
| IX | ***İçdən Yaranma*** | Özündən Yüksək; Dünyadan Üstün; Dünyaçılıq – İnsançılıq; Gerçəkliyi Ötmək; Kamilləşmə Əməli; Daxildən Gerçəkləşmək; Bütövlük Həqiqəti |
| X | ***Hüquqdan Haqqa*** | Haqq; Ölçü; Siyasətdən Üstün; Haqq – Haqsızlıq; İqtisadiyyat İnsansızlığı – İqtisadiyyat İnsaniliyi; Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti |
| **YAN BİTİQLƏR** | | |
| I | ***Ruhani sənədlər*** | Ruhani sənədlər |
| II | ***Yollaşan Aqibət*** | Atalıq Xilqəti; Ömrüm – Günüm; Bədiiyyat; Muğam Fəlsəfəsi |
| I I I | ***Həqiqətlər*** | (Ata Söyləmləri və ya Gerçəklik – Ata sınağında) |

## 3. ATA – OCAQ GÜNSIRASI (TƏQVİM)

1 mart 1979-cu ildən başlanır.

*Aylarda* günlərin sayı miladda olduğu kimidir.

I ay **Günəş** – mart,
II ay **Çiçək** – aprel,
III ay **İşıq** – may,
IV ay **Şölə** – iyun,
V ay **Od** – iyul,
VI ay **Qürub** – avqust,
VII ay **Ata** – sentyabr,
VIII ay **Xəzan** – oktyabr,
IX ay **Yağış** – noyabr,
X ay **Sərt** – dekabr,
XI ay **Qar** – yanvar,
XII ay **Köçəri** –fevral.

**Həftənin günləri:**

I gün **Arzu –** bazar ert.,
II gün **Ümid –** çərş. axş.,
III gün **Dözüm –** çərşənbə,
IV gün **Mərhəm** – cümə axş.,
V gün **Qismət –** cümə,
VI gün **Murad** – şənbə,
VII gün **İnam –** bazar.

### Günsıranın Ünlü Günləri

**1 Günəş** – «Yeni il» Mərasim-Törəni
**14 Günəş –** «İnsanilik» Bayramı
**25 Çiçək** – «Ruhani İdrak Günü» Mərasimi
**1 Şölə –** «Evlad Günü» Mərasimi
**5 Şölə –** «Ata Sonevini Ziyarət Günü» Mərasimi
**13 Şölə –** «Xəlqilik» Bayramı
**1 Qürub** – «Müqəddəs Ziyarətgah Günü» Bayramı
**12 Ata –** «Şərqilik» Bayramı
**25 Ata** – «Ata Günü» Mərasimi
**13 Yağış** – «İnam Evi Günü» Mərasim-Törəni
**12 Sərt** – «Bəşərilik» Bayramı
**27 Sərt** – «Ruhani Səfər Günü» Mərasimi
**6 Köçəri** – «Ailə Günü» Mərasimi



# OCAQ-TÜRK ABESİ

| Latın | Ocaq-Türk | Latın | Ocaq-Türk | Latın | Ocaq-Türk |
|---|---|---|---|---|---|
| A |  | R |  | T |  |
| D |  | C |  | X |  |
| H |  | Ç |  | O |  |
| İ |  | Ö |  | U |  |
| M |  | Ü |  | N |  |
| V |  | Ş |  | Ğ |  |
| Y |  | S |  | J |  |
| F |  | L |  | Z |  |
| I |  | B |  | Ə |  |
| K |  | P |  | E |  |
| | | G |  | Q |  |

**Ocaq – Türk Abesini www.asifata.com/abe.htm ünvanından yükləyə bilərsiniz.**

# İçərisi


Müqəddəs Təlim (quruluş) .......... 5
Ocağa Gələn Dost (Safruh) .......... 7
İnsanlaşmaq .......... 12
Doğmalarıma .......... 13
Ocaq Məramı .......... 14
Sabahdaşlara (I) .......... 17
Sabahdaşlara (II) .......... 19
Sabahdaşlara (III) .......... 21
Mütləqə inam .......... 23
Kamil insan .......... 36
Müstəqil vətən .......... 59
Ruhani cəmiyyət .......... 77
Özümlü şərq .......... 100
Əlavələr .......... 105
Təmaslar, ricalar .......... 105
Onluq .......... 108
Günsıra .......... 109
Abe... .......... 110

**Türk Ulusunun Ruhaniyyat Ocağı –**
**İnam Atanın Mütləqə İnam Ocağı**

Bizimlə əlaqə
www.asifata.com
ocak@asifata.com
yolruh@mail.ru
İnam Evi + 99412 514-62-08

İNAM ATA
(Asif Ata)

**KUTSAL ÖYRƏTİ**

(Müqəddəs Təlim)

(Türk dilində)

Üz qabığının tərtibatı Yolruhundur.

**Tərtibatçı:** Sədaqət Kərimova
**Dizayner:** Rahilə Məmmədova

**Çapa imzalanmışdır**:27.04.2010
**Kağız formatı:** 60x84 1/16
**H/n həcmi:** 7 ç.v.
**Sifariş**: 96
**Sayı**: 500

Kitab «ADILOĞLU» nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulü ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Şərifzadə küç., 202*
*Tel.: 498-68-25; 418-68-25; 433-00-43*
*faks: 498-08-14;*
*Web: www.adiloglu.az;*
*E-mail: info@ adiloglu.az*